RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 251 (9418) 18 NOYABR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Qlobal ədalətsizliyə qarşı İLHAM ƏLİYEV ədaləti

## Birinci vitse-prezident Mehriban Əliyeva Milli Dirçəliş Günü ilə bağlı paylaşım edib




## Dayanıqlı inkişafın Azərbaycan modeli



Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Dayanıqlı İnkişafa dair II Bakı Forumunun keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib.

Baş nazirin müavini vurğulayıb ki, "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dəki Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrası Azərbaycan hökumətinin gündəliyində yer alan prioritetlərdəndir. Ölkəmiz BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna könüllü milli hesabatı indiyədək 3 dəfə təqdim edən azsaylı ölkələr sırasındadır. 2024-cü ildə 4-cü hesabatın təqdim olunması ilə bağlı işlər görülür. Diqqətə çatdırılıb ki, Azərbaycanın inkişaf proqramları DİM ilə uzlaşdırılır. Bu isə qlobal məqsədlərin icrasının maliyyələşdirilməsini asanlaşdırır.

4

## ABŞ və Qərb Azərbaycanın zəfərini qəbul edə bilmir

ABŞ Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilmədiyi kimi, güclü, regionda və dünyada söz sahibi olan Azərbaycan dövlətini də qəbul edə bilmir. Öz hüquqlarını qətiyyətlə təmin edən Azərbaycanın isə nə ABŞ, nə də onun konqresi qarşısında heç bir öhdəliyi yoxdur. Heç bir ölkə Azərbaycanla təzyiq dili ilə danışa bilməz və bu dəfələrlə beynəlxalq münasibətlərdə öz təsdiqini tapıb. Buna görə "907-ci düzəliş"in tətbiqi, ikitərəfli münasibətlərin əvvəlki kimi olmasının qeyri-mümkünlüyü kimi çağırışlarla Azərbaycana təzyiq göstərməyə çalışan ABŞ heç vaxt ölkəmizin maraqlarına təsir edə bilməz.

Bu cür davranışlar, Azərbaycana qarşı qərəzli və düşmən münasibət, erməni lobbisinin alətinə çevrilmək ilk növbədə ABŞ-nin özünün ziyanınadır. Çünki Azərbaycansız ABŞ-nin Cənubi Qafqaz və Mərkəzi Asiya siyasəti mümkün deyil.

Azərbaycana qarşı bu cür qərəzli və düşmən mövqeyindən sonra isə ABŞ-nin vasitəçilik missiyası həyata keçirməyə haqqı yoxdur. Məlum olduğu kimi, Azərbaycan ABŞ-nin qərəzli və düşmən mövqeyinə görə noyabrın 20-də Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri səviyyəsində təklif olunan görüşün keçirilməsini mümkün hesab etməyib.

6

## Vaşinqtonun bitməyən qərəzi

### ABŞ Konqresinin "907-ci düzəliş"i ölkəmizə qarşı ədalətsizliyin bariz nümunəsidir

ABŞ-nin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa və Avrasiya altkomitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilən dinləmələrdə dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın fikirləri də obyektivlikdən uzaq və qəbulolunmazdır. Onun "Azərbaycanla münasibət 19 sentyabr hadisələrindən sonra adi qaydada davam etməyəcək" sözləri ciddi suallar doğurur. Belə çıxır ki, ABŞ Azərbaycanın beynəlxalq müstəvidə tanınmış ərazisində qanunsuz, separatçı rejimin mövcudluğunun tərəfdarıdır? Digər tərəfdən, ABŞ rəsmisi çıxışında Ermənistanın və separatçı rejimin işğal dövründə Azərbaycana vurduğu zərbələrə, yüz minlərlə insanın doğma yurdlarından qovulmasına toxunmur. Dövlətimiz 44 günlük müharibədən sonra Qarabağ erməniləri ilə məsələlərin dinc yola həll olunmasına çalışıb, lakin qanunsuz rejim buna qarşı çıxıb, əvəzində bir çox hərbi təxribat törədib.

6

## Azərbaycan sülh deyir, ABŞ isə hərb

ABŞ, eyni zamanda başda Fransa olmaqla bəzi Qərbi Avropa ölkələri Azərbaycanın torpaqlarını işğaldan azad etməsini, suverenliyini təmin etməsini heç cür qəbul etmək istəmir, İrəvanı silahlandıraraq yenidən Cənubi Qafqazda savaşa, qanqadaya yol açırlar.

Onilliklər boyu Azərbaycanın işğalla üz-üzə qalmasına göz yuman, regiondakı nə işğaldan əvvəlki, nə də sonrakı gerçəklikləri nəzərə almayan məkrli Qərb sülh adı altında savaş planları cızır, beynəlxalq hüququ ayaqlar altına atır.

Azərbaycanın keçmiş işğal olunmuş ərazilərindən köçkün düşmüş və Ermənistandan zor gücü ilə deportasiya olunmuş qaçqınların vəziyyəti ilə heç zaman maraqlanmayan bu "humanist" ölkələr indi "erməni problemləri"nin müdafiəçisi roluna girərək, zorla özlərini bölgəyə pərçim etmək istəyirlər.

Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr də Vaşinqtonun regionda sülhə qarşı çıxdığını bir daha nümayiş etdirdi.



8

## ABŞ sülhü təhdid edir

Qərb ölkələrinin, eləcə də ABŞ-nin həqiqətləri təhrif etmələri, ölkəmizə qarşı riyakar mövqe sərgiləmələri qəbuledilməzdir. Bu ikiüzlü davranışlar ATƏT-in Minsk qrupunun fəaliyyəti dövründə edilənlərin bir növ təkrarıdır. Azərbaycanın haqlı mövqeyi açıq-aşkar ortada olsa da, bəzi ölkələr nəinki bu problemin həll olunması üçün heç bir iş görmür, hətta gərginliyi artırmağa çalışırlar. Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr də bunu sübut edir.

6

## Ermənistanın gələcəyi...

### ABŞ-nin vədlərində deyil, Cənubi Qafqazda sülhün təmin olunmasındadır

Birtərəfli, qərəzli və açıq-aşkar anti-Azərbaycan təşəbbüsləri irəli sürən Qərb ölkələri Azərbaycanla Ermənistan arasında münasibətin normallaşmasından narahatdırlar. Bu səbəbdən həmin ölkələrin sırasında öndə dayanan Fransa Ermənistana kütləvi şəkildə silah və texnika tədarükünün başlanmasını elan etdi.

9

## Hayastanın dövlət borcu 12 milyard dolları ötəcək



Məğlub ölkədə orta hesabla hər il dövlət borcu təxminən 1 milyard dollar artıb. Son məlumatlara görə, Hayastanın dövlət borcu 11,4 milyard dollar civarındadır. Nikol Paşinyan hakimiyyətə gələnə qədər bu, 6,7 milyard dollar idi. Beş ildən az müddət sonra 4,7 milyard dollar borc yığılıb.

Gələn il Hayastanın dövlət borcu son illərdəki kimi, heç də az olmayan sürətlə artacaq.

9

## İrqi ayrı-seçkilik, islamofobiya...

### Fransa insan haqlarının vəziyyətinə görə BMT üzvləri tərəfindən sərt tənqid edilir



Acınacaqlı haldır ki, hökumətin səriştəsiz daxili və xarici siyasətinə qarşı etiraz aksiyalarında iştirak edən müxtəlif peşə sahiblərinə və hətta jurnalistlərə polislər tərəfindən mütəmadi zor tətbiq olunur. Bu da ilk növbədə fundamental insan haqlarının, sərbəst toplaşma və fikir azadlığı hüquqlarının kobud pozulmasıdır.

9

# "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sisteminin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, daşınmaz əmlakın dövlət kadastrı və reyestri sahələrində idarəetmə sisteminin təkmilləşdirilməsi, şəffaflığın və operativliyin artırılması, biznes mühitinin yaxşılaşdırılması baxımından əmlakın qeydiyyatı ilə bağlı xidmətlərin elektronlaşdırılması və keyfiyyətinin yüksəldilməsi, nəzarət mexanizmlərinin, habelə elektron sənəd dövriyyəsinin genişləndirilməsi məqsədilə **qərara alıram:**

1. "Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı" informasiya sistemi (bundan sonra - Sistem) yaradılsın.

2. Müəyyən edilsin ki, Sistem aşağıdakıları təmin edir:

2.1. ərizəçinin daşınmaz əmlakın dövlət reyestrini və kadastrını tərtib edən və aparan quruma müraciətinin və ona əlavə edilən sənədlərin (məlumatların) qəbulu, emalı və nəticələrinə dair elektron sənədlərin, habelə məlumatların elektron qaydada verilməsini, eləcə də ərizəçilər tərəfindən müraciətlərin icra vəziyyətinin izlənilməsini;

2.2. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci və 10-cu maddələrində nəzərdə tutulmuş sənədlərin (məlumatların), həmçinin daşınmaz əmlakın tarix və mədəniyyət abidəsi olması barədə məlumatın Sistemə daxil edilməsini və həmin sənədlərdən (məlumatlardan) istifadə edilməsini;

2.3. daşınmaz əmlak üzərində hüquq əldə edən, onun tərəfindən vəkil edilmiş şəxs tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən çıxarışın və texniki sənədlərin, habelə notariuslar və ya qanunla müəyyən edilmiş hallarda notariat hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən qanunla müəyyən edilmiş hallarda notariat hərəkətinin aparılması üçün zəruri olan məlumatların elektron qaydada Sistemdən yoxlanılmasını və əldə edilməsini;

2.4. daşınmaz əmlakın dövlət reyestrinin və kadastrının aparılması üçün əsas olan hüquqi və texniki sənədlərin, habelə məlumatların əldə edilməsini;

2.5. qanunla nəzərdə tutulan ödənişlərin elektron qaydada həyata keçirilməsi imkanının yaradılmasını.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti altı ay müddətində:

3.1. Sistem haqqında əsasnamənin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Sistemin yaradılması ilə əlaqədar daşınmaz əmlakın qeydiyyatı, kadastrı və idarə edilməsi sahələrində normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2023-cü il*

# "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2074 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2074 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 3, maddə 370) 3-cü hissəsində "fəaliyyətin təşkilini" sözləri "fəaliyyəti" sözü ilə əvəz olunsun və həmin hissəyə "qurğuların" sözündən sonra "(Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən dəniz qurğuları, onların saxlanılmasını və qorunmasını təmin edən əsas və köməkçi avadanlıq istisna olmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2023-cü il*

# M.M.Seyidovun Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Mirsənani Mirsaleh oğlu Seyidov Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2023-cü il*

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2074 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin strukturu" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra - Agentlik) tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Hidrogeoloji-Meliorativ Xidmət və Suların İstifadəsinə-mühafizəsinə Nəzarət İdarəsinin əsasında Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti yaradılsın.

4. Agentliyin Aparatının işçilərinin say həddi 170 ştat vahidi, Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti işçilərinin say həddi cəmi 146 ştat vahidi, o cümlədən Xidmətin Aparatı üzrə 51 ştat vahidi və regional bölmələri üzrə 95 ştat vahidi müəyyən edilsin.

5. Agentliyin tabeliyində aşağıdakı publik hüquqi şəxslər yaradılsın:

5.1. bu Fərmanın 3-cü hissəsi və 5.3 - 5.5-ci bəndləri nəzərə alınmaqla, tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə Regional Su Meliorasiya Xidməti;

5.2. bu Fərmanın 5.5-ci bəndi nəzərə alınmaqla, tabeliyindəki "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti;

5.3. tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Meliorasiya Elmi Tədqiqat İnstitutunun çevrilmə formasında yenidən təşkili yolu ilə Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu;

5.4. tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Tikilməkdə olan meliorasiya və irriqasiya obyektlərinin birləşmiş müdiriyyətinin çevrilmə formasında yenidən təşkili yolu ilə Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti;

5.5. tabeliyindəki Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Su təsərrüfatı obyektlərinin layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu "Azdövsutəslayihə"nin və tabeliyindəki "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunun çevrilmə formasında yenidən təşkili yolu ilə Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu.

6. Müəyyən edilsin ki:

6.1. Agentlik yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti, Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikası su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə dövlət nəzarətini, su və su təsərrüfatı obyektlərinin monitorinqini həyata keçirən Agentliyin strukturuna daxil olan qurumdur;

6.2. Regional Su Meliorasiya Xidməti meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını və mühafizəsini, balansında (istifadəsində) olan su təsərrüfatı obyektlərinin (su anbarlarının, kanalların, boru xətlərinin və s.) istismarını həyata keçirən, həmçinin Azərbaycan Respublikasının rayon və şəhərlərində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərləri istisna olmaqla) istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərən publik hüquqi şəxsdir;

6.3. İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini göstərən publik hüquqi şəxsdir;

6.4. Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu su və meliorasiya sahəsində fundamental və tətbiqi tədqiqatlar həyata keçirən publik hüquqi şəxsdir;

6.5. Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti tikinti işlərinin təsdiq edilmiş layihə-smeta sənədlərinə uyğun həyata keçirilməsini və əsaslı vəsait qoyuluşu üzrə dövlət büdcəsindən və digər mənbələrdən ayrılmış vəsaitin idarə edilməsinin səmərəliliyini təmin edən, habelə su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin inşası, yenidən qurulması, bərpası ilə bağlı satınalmaları təşkil edən publik hüquqi şəxsdir;

6.6. Su və Meliorasiya Kompleksinin Layihələndirilməsi İnstitutu su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı, tullantı sularının emalı və axıdılması sistemlərinin layihələndirilməsini həyata keçirən publik hüquqi şəxsdir;

6.7. bu Fərmanın 5.1-ci və 5.2-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslər "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və "Azərsu" Açıq Səhmdar Cəmiyyəti öz fəaliyyətini davam etdirir və onların strukturu, işçilərinin say həddi, əməkhaqları (vəzifə maaşları, vəzifə maaşlarına əlavələr, mükafatlar və digər ödənişlər) və əməyin ödənilməsi sistemi saxlanılır;

6.8. bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsinin vəsaiti, habelə onların fəaliyyətindən əldə edilən gəlir və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;

6.9. bu Fərmanın 5.2-ci, 5.4-cü və 5.5-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin saxlanma xərcləri və fəaliyyəti onların fəaliyyətindən əldə edilən gəlir və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşir;

6.10. bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamə fondu onların çevrilmə yolu ilə yenidən təşkil olunduqları qurumların əmlakı (bu Fərmanın 8.1.6.1-ci və 8.1.6.2-ci yarımbəndləri nəzərə alınmaqla) hesabına formalaşır.

7. Bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

7.1. Azərbaycan Respublikasının Prezidentinə:

7.1.1. yenidən təşkili və ləğv edilməsi;

7.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

7.2.1. nizamnamənin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

7.2.2. idarəetmə orqanlarının yaradılması;

7.3. Agentliyə:

7.3.1. bu Fərmanın 7.1-ci və 7.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. dörd ay müddətində:

8.1.1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.1.2. bu Fərmanın 5-ci və 6-cı hissələri nəzərə alınmaqla, mühafizə olunmalı həyat təminatlı və mühüm əhəmiyyətli obyektlərin mühafizəsi ilə əlaqədar təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.1.3. bu Fərmanın 1-6-cı hissələri nəzərə alınmaqla, normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.1.4. bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin nizamnamələrini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.1.5. "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin birinci hissəsinin yeddinci abzasına uyğun olaraq, meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılması qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.1.6. bu Fərmanın 5.1-ci və 5.2-ci bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslər dövlət qeydiyyatına alındığı gündən aşağıdakı dövlət əmlakının balansdan balansa verilməsi ilə bağlı tədbirlər görsün:

8.1.6.1. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin balansındakı əmlakın (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinə xidmət göstərən su təchizatı və tullantı suları sistemləri üzrə) İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin balansına;

8.1.6.2. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin balansındakı əmlakın və bu Fərmanın 8.1.6.1-ci yarımbəndi nəzərə alınmaqla "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin balansındakı digər əmlakın Regional Su Meliorasiya Xidmətinin balansına;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Agentlik:

9.1. bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün onların nizamnamələri təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə müraciət etsin;

9.2. bu Fərmanın 5-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxslər dövlət qeydiyyatına alındıqdan sonra onların strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

9.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

10. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

10.1. bu Fərmanın 10.2-ci bəndi nəzərə alınmaqla, Agentliyin cari ildə fəaliyyətinin təşkili üçün zəruri maliyyələşməni təmin etsin;

10.2. bu Fərmanın 3-cü hissəsinə əsasən yaradılan Xidmətin və bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin cari ildə fəaliyyətinin təşkili məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti üçün nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşməni təmin etsin;

10.3. Agentliyin, bu Fərmanın 3-cü hissəsinə əsasən yaradılan Xidmətin, habelə bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin fəaliyyətinin təşkili üçün tələb olunan vəsaiti hər il dövlət büdcəsinin layihəsində nəzərdə tutsun;

10.4. qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) qiymətləri (tarifləri) artırıldığı hallarda, fəaliyyət xüsusiyyətləri nəzərə alınmaqla, bu Fərmanın 5.1-ci və 5.3-cü bəndlərində nəzərdə tutulan publik hüquqi şəxslərin fəaliyyətinin təşkili məqsədilə zəruri əlavə maliyyələşməni təmin etmək üçün tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 noyabr 2023-cü il*

# Mərkəzi Seçki Komissiyasında Türkiyə Yüksək Seçim Kurulunun nümayəndə heyəti ilə görüş keçirilib



Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (MSK) ilə Türkiyə Respublikasının Yüksək Seçim Kurulu (YSK) arasında imzalanmış Əməkdaşlıq Protokolu çərçivəsində seçki idarəçiliyinə dair təcrübə mübadiləsinin aparılması və ali seçki qurumlarının əməkdaşlığının dərinləşdirilməsi məqsədilə ölkəmizdə səfərdə olan YSK sədri Ahmet Yenerin başçılıq etdiyi nümayəndə heyəti ilə MSK-da görüş keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, MSK sədri Məzahir Pənahov dost və qardaş Türkiyə Respublikasından olan həmkarı, YSK sədri Ahmet Yeneri və nümayəndə heyətini səmimiyyətlə salamlayaraq, keçirilən görüşdən məmnunluğunu bildirib. Komissiyanın beynəlxalq əlaqələrindən söhbət açan M.Pənahov qeyd edib ki, seçki idarəçiliyi sahəsində qarşılıqlı təcrübə mübadiləsinə geniş imkan yaradan münasibətlərin uğurlu inkişafı olduqca sevindiricidir. Bənzərsiz dostluğu və qardaşlığı günbəgün daha da möhkəmlənən Azərbaycan və Türkiyənin ali seçki qurumları arasında mövcud olan uzunmüddətli sıx əməkdaşlıq qazanılmış nailiyyətlərdə və yaxşı təcrübələrdə mühüm əhəmiyyət kəsb edir.

Səmimi qəbula görə minnətdarlığını bildirən YSK sədri Ahmet Yener və nümayəndə heyətinin üzvləri qardaş Azərbaycanda olmaqdan, keçirilən görüşdən və MSK ilə əlaqələrin müvəffəqiyyətlə davam etməsindən şad olduqlarını söyləyiblər. A.Yener Türkiyənin seçki sistemi, seçki komissiyalarının fəaliyyət prinsipləri, tətbiq olunan institusional mexanizmlər və yüksək innovativ texnologiyalar barədə danışıb, həmçinin Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının da ən son nailiyyətlərindən istifadə edilməklə seçki sisteminin hazırkı inkişaf səviyyəsinə çatdırılması istiqamətində görülmüş işlərlə maraqlanıb.

MSK sədri Məzahir Pənahov qonaqların suallarını cavablandıraraq, ölkəmizin seçki sistemi, seçki qanunvericiliyinin daha da təkmilləşdirilməsi üçün həyata keçirilən layihələr barədə məlumat verib. O, son illər keçirilən seçkilərdə əldə olunan qabaqcıl təcrübəni qonaqlarla bölüşüb və bildirib ki, seçkilərin azad, ədalətli, şəffaf keçirilməsi üçün ölkədə hərtərəfli şərait və demokratik mühit mövcuddur.

Görüş çərçivəsində nümayəndə heyəti MSK-nın İnformasiya Mərkəzində də olub. Mərkəzdə qonaqlara "Seçkilər" İnformasiya Sistemi, seçkilər zamanı proseslərin şəffaflığının təmin olunmasında sistemin təkmilləşdirilmiş şəbəkə variantının və müvafiq proqram təminatlarının geniş tətbiqi barədə ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçirilən görüşdə, həmçinin qurumlararası əlaqələrin daha da gücləndirilməsi imkanları, perspektivlər və maraq doğuran digər məsələlər müzakirə olunub.

# Ahmet Yener: "Türkiyə-Azərbaycan qardaşlığı əbədi və sarsılmazdır"

"Biz bu gün Azərbaycan və Türkiyə üçün önəmli olan müqəddəs yerlərdən biri - Şəhidlər xiyabanını ziyarət edirik. Burada uyuyan türk şəhidlər azərbaycanlı qardaşları ilə birlikdə düşmənlərə qarşı vuruşublar".

Bununla da bir millət, iki dövlət olduğumuzu nümayiş etdiriblər. Bu qəhrəmanlıqlardan ilham alan azərbaycanlı qardaşlarımız illər sonra işğal altında olan Qarabağı azad etdilər. Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyə Yüksək Seçim Kurulunun sədri Ahmet Yener söyləyib. "Azərbaycan dövlətinin müstəqilliyində, quruculuğunda və inkişafında böyük əməyi olan Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdik. Xatirəsini dərin ehtiramla yad edirik.

Azərbaycan-Türkiyə qardaşlığının daimi olması üçün biz də öz üzərimizə düşən bütün vəzifələri yerinə yetirməyə hazırıq. Türkiyə-Azərbaycan qardaşlığı əbədi və sarsılmazdır. Yaşasın Türkiyə! Yaşasın Azərbaycan!", - deyə A.Yener vurğulayıb.

# XİN: "Azərbaycan CERD üzrə öhdəliklərinə ciddi yanaşır"

Azərbaycan İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Beynəlxalq Konvensiyanın (CERD) tətbiqi ilə bağlı Ermənistanın Azərbaycana qarşı iş üzrə Beynəlxalq Ədalət Məhkəməsinin 2023-cü il 17 noyabr tarixli müvəqqəti tədbirlər barədə qərarını qeydə alıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən daxil olan məlumatda bildirilib.

Məlumatda deyilir: "Biz Məhkəmənin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edən, Ermənistanın Azərbaycanın Qarabağ üzərində uzun müddətdir qəbul edilmiş və beynəlxalq səviyyədə tanınmış suverenliyini şübhə altına alan tələbini rədd edən qərarını alqışlayırıq. Həmçinin diqqətəlayiq haldır ki, Məhkəmə Azərbaycanın bütün hərbi və hüquq-mühafizə orqanlarının şəxsi heyətinin Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və gülünc tələbini də rədd edib.

Məhkəmə tərəfindən qeyd olunan tədbirlər Azərbaycan hökumətinin Qarabağın erməni sakinləri ilə bağlı artıq bəyan olunmuş siyasətini qəbul edir. Bu, milli və ya etnik mənşəyindən asılı olmayaraq bütün sakinlərin təhlükəsizliyini və mühafizəsini təmin etmək barədə öhdəliyimizi əhatə edir. Azərbaycan heç vaxt erməni sakinlərini Qarabağdan çıxartmayıb və regionu tərk etməmək barədə Azərbaycanın çağırışlarına baxmayaraq, Ermənistana və digər ölkələrə köçmək onların qərarı olub. Azərbaycan öz Konstitusiyasına və müvafiq beynəlxalq öhdəliklərinə uyğun olaraq, Qarabağın erməni sakinlərinin insan hüquqlarını Azərbaycanın digər vətəndaşları ilə bərabər əsasda müdafiə etməyə sadiqdir.

Məhkəmənin Ermənistanın BMT agentliklərinin Qarabağ bölgəsinə səfərini asanlaşdırmaq və Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə əməkdaşlığa dair tələbi ilə bağlı heç bir tədbir görməyi tələb etməməsi faktı Azərbaycanın bu sahədə göstərdiyi açıqlığın və əməkdaşlığın etirafıdır. Bu, ölkəmizə qarşı irəli sürülən bütün ittihamları mahiyyətcə əsassız edir.

Azərbaycan milli qanunvericiliyə və beynəlxalq öhdəliklərə uyğun olaraq şəxsi mülkiyyəti, mədəniyyət abidələrini, artefaktları, habelə qeydiyyat sənədlərini qoruyur. Beləliklə, məhkəmənin bu sahələri qeyd etməməsi, eyni zamanda Azərbaycanın həyata keçirdiyi tədbirlərin təsdiqidir.

Məhkəmə Ermənistanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qüvvədə olan maddələrinə uyğun olaraq hərbi təcavüz, separatizmi qızışdırmaq, terror aktları və s. ittihamlarla saxlanılan qanunsuz separatçı rejimlə əlaqəsi olan şəxslərlə bağlı Azərbaycanın istintaq tədbirlərinə dair Ermənistanın iddiasını eyni şəkildə təmin etməyib. Azərbaycan Ermənistanın və bütün digər tərəflərin qanuni istintaq tədbirlərinə müdaxiləsini dayandıracağını gözləyir.

Azərbaycan CERD üzrə öhdəliklərinə ciddi yanaşır. Biz beynəlxalq hüquq çərçivəsində bu öhdəlikləri və bütün insanların hüquqlarını qorumağa sadiq qalırıq və diqqətimizi dinc və firavan bir regionun qurulmasına yönəltmişik".

# "Avropa İttifaqının nümayəndəsinin faktları görməzdən gəlməsi təəssüf doğurur"

Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarının mətbuat katibi Peter Stanonun noyabrın 17-də Brüsseldə "Armenpress" xəbər agentliyinə müsahibəsi zamanı ölkəmizlə bağlı səsləndirdiyi fikirlər Avropa İttifaqı nümayəndəsinin qərəzli yanaşmasının növbəti göstəricisidir. Avropa İttifaqının nümayəndəsinin 30 il ərzində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün işğalçı və təcavüzkar Ermənistan tərəfindən pozulması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti yürütməsi, 1 milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktlarını görməzdən gəlməsi təəssüf doğurur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarının mətbuat katibi Peter Stanonun səsləndirdiyi fikirlərə dair şərhində yer alıb.

Xarici İşlər Nazirliyinin mətbuat katibi deyib: "44 günlük Vətən müharibəsinin, habelə 2023-cü ilin sentyabr ayında həyata keçirilən 24 saatlıq antiterror tədbirlərinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın suveren ərazilərində həyata keçirildiyini və ölkəmizin legitim üsullarla öz suverenliyini bərpa etdiyini Aİ nümayəndəsinə bir daha xatırladırıq. Azərbaycanın dəfələrlə ərazilərimizdə qanunsuz mövcudluğunu davam etdirən erməni silahlı qüvvələrinin bölgədə təhlükə mənbəyi olduğunu bildirməsinə və beynəlxalq hüquqa uyğun olaraq onların dərhal çıxarılmasına dair çoxsaylı çağırışlar etməsinə baxmayaraq, Aİ nümayəndəsinin Azərbaycanın birtərəfli hərbi addımlar atmaqda günahlandırılması qəbuledilməzdir".

"Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin şəxsi qərarları əsasında Ermənistana miqrasiyası ilə bağlı Aİ nümayəndəsinin erməni sakinlərin hüquq və təhlükəsizliyi üzrə beynəlxalq mexanizm yaradılması təşəbbüsündən söz açmasını Azərbaycanın reinteqrasiya prosesinə müdaxilə kimi qiymətləndiririk", - deyən Ayxan Hacızadə bildirib ki, Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir, bu bölgədə yaşayan erməniəsilli əhalinin hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyasına uyğun olaraq təmin ediləcək.

"Bir daha vurğulayırıq ki, Azərbaycanın Ermənistanla normallaşma və sülh gündəliyinə sadiqliyi möhkəmdir və bu mövqe 2020-ci ilin noyabr ayından etibarən sülh müqaviləsinin təşəbbüskarı olaraq tərəfimizdən atılan ardıcıl addımlarla sübut edilib", - deyə o vurğulayıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova MDB Parlamentlərarası Assambleyası tərəfindən təltif edilib

**Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində MDB Parlamentlərarası Assambleyasının (MDB PA) Şura iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda bir sıra təşkilati və gündəlikdə duran məsələlərlə bağlı müzakirələr aparılıb. Tədbirdə həmçinin Qırğız Respublikası Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyev, Belarus parlamentinin spikeri Natalya Koçanova, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova, o cümlədən təşkilata üzv ölkələrin bəzi parlament təmsilçiləri MDB PA tərəfindən təltif ediliblər.

*"Azərbaycan"*






# Milli Məclisin Sədri Sahibə Qafarova Ermənistanın yalanlarını ifşa edib

**Noyabrın 17-də Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının 56-cı plenar iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edib. Son iclasından ötən müddət ərzində assambleyanın parlamentlərarası əməkdaşlığın bütün istiqamətləri üzrə məhsuldar fəaliyyətini davam etdirdiyini deyən Milli Məclisin Sədri qeyd edib ki, Müstəqil Dövlətlər Birliyinin mühüm təsisatlarından biri olan Parlamentlərarası Assambleya ikitərəfli və çoxtərəfli parlamentlərarası əməkdaşlığın inkişafına töhfə verir.

Spiker Sahibə Qafarova çıxışında Ermənistan tərəfinin yalanlarını ifşa edib. Milli Məclisin Sədri xatırladıb ki, Azərbaycan 2020-ci ildə öz torpaqlarını Ermənistanın işğalından azad etdikdən sonra Ermənistanla beynəlxalq hüququn prinsiplərinə əsaslanan sülh müqaviləsi imzalamaq təşəbbüsü ilə çıxış edib. Lakin Qarabağı sözdə Azərbaycan ərazisi kimi tanıyan Ermənistan təəssüf ki, bu üç il ərzində siyasi və hərbi təxribatlarla məşğul olub. Ermənistan nəinki üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməyərək, öz silahlı qüvvələrini Azərbaycanın Qarabağ bölgəsindən çıxarmayıb, həm də oraya silah, sursat və hərbi qulluqçuların daşınmasını davam etdirib.

Sahibə Qafarova qeyd edib ki, işğal dövründə basdırdığı və sayı milyondan çox olan minalarla yanaşı, Ermənistan işğaldan azad edilmiş əraziləri də minalamaqda davam edib. Bu il sentyabrın 2-də Ermənistanın baş naziri Azərbaycanın qanuni ərazilərində Ermənistanın yaratdığı və fəal şəkildə dəstəklədiyi separatçı rejimi qondarma "müstəqillik" günü münasibətilə təbrik edib. Sentyabrın 9-da isə bu qeyri-qanuni qurum qondarma "prezident seçkiləri" keçirib. Bu addımları Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlmiş təxribatçı addımlar kimi qiymətləndirən Milli Məclisin Sədri vurğulayıb ki, 2023-cü il sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin işğaldan azad edilmiş torpaqlarımıza qəsdən yerləşdirdiyi minaların partlaması nəticəsində 6 mülki şəxs və polis əməkdaşı həlak olub. Ümumiyyətlə isə, müharibədən sonrakı dövrdə mina partlayışları nəticəsində 340-a yaxın insan həlak olub və ya yaralanıb.

Çıxışında bu ilin sentyabr ayında həyata keçirilən antiterror tədbirləri barədə də məlumat verən Milli Məclisin Sədri vurğulayıb ki, bu tədbirlər Azərbaycanın öz konstitusiya quruluşunu bərpa etmək və qanunsuz silahlı birləşmələri zərərsizləşdirmək məqsədi daşımışdır. 23 saat ərzində həyata keçirilən antiterror tədbirləri nəticəsində Ermənistanın Qarabağdakı ordusu tam tərk-silah edilmiş, Azərbaycan Qarabağdakı qanunsuz separatçı rejimə son qoyaraq, beynəlxalq səviyyədə tanınmış ərazisi üzərində suverenliyini tam bərpa etmişdir.

Spiker Sahibə Qafarova xüsusilə vurğulayıb ki, antiterror tədbirləri zamanı Azərbaycan beynəlxalq humanitar hüquqa tam uyğun hərəkət edib. Belə ki, bu tədbirlər zamanı mülki əhaliyə və mülki infrastruktura heç bir ziyan dəyməyib. Eləcə də heç bir qondarma "etnik təmizləmə", ermənilərin Qarabağdan məcburi köçürülməsi ilə bağlı bir fakt belə qeydə alınmayıb. Bunu bölgəyə iki dəfə səfər edən BMT missiyasının nümayəndələri də təsdiqləyiblər.

Bu aşkar faktlara baxmayaraq, Ermənistanın hələ də Azərbaycana qarşı yalan və əsassız ittihamlar əsasında beynəlxalq ictimaiyyəti aldatmaqda davam etdiyini söyləyən Sahibə Qafarova, Ermənistanın iddialarının yalan olduğunu bir daha bəyan edib.

Milli Məclisin Sədri çıxışında, həmçinin diqqətə çatdırıb ki, bu gün Qarabağ bölgəsində erməni işğalından azad edilmiş ərazilərdə Azərbaycan fəal şəkildə genişmiqyaslı bərpa və quruculuq işlərini davam etdirir. Böyük qayıdış proqramının icrası çərçivəsində keçmiş məcburi köçkünlər artıq Laçın və Füzuli şəhərlərinə, eləcə də bir sıra kəndlərə qayıdıblar. 2026-cı ilin sonunadək 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura qaytarılması planlaşdırılır. O, deyib ki, hazırda regionda sülh gündəliyi üçün yaxşı imkanlar var. Spiker, Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə ölkəmizin Ermənistanla münasibətlərin normallaşmasını və sülh müqaviləsinin imzalanmasını dəstəklədiyini ifadə etdiyini xatırladıb.

Qeyd edək ki, Milli Məclisin Sədri Sahibə Qafarova, həmçinin assambleya çərçivəsində görülən işlərin ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin daha da genişlənməsində özünəməxsus rol oynadığını bildirərək deyib ki, bu baxımdan əməkdaşlığın humanitar aspekti xüsusi əhəmiyyət kəsb edir. Bu da MDB-yə üzv dövlətlər arasında qarşılıqlı anlaşmanın və mehriban qonşuluğun möhkəmlənməsinə töhfə verir. Həmin prosesdə fəal iştirak edən Azərbaycan birgə fəaliyyətə böyük önəm verir.

2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edildiyini xatırladan Sahibə Qafarova parlament nümayəndə heyətlərinin Milli Məclisin Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında fəal iştirak edən, eləcə də MDB-yə üzv ölkələrdə bu münasibətlə çoxsaylı yüksəksəviyyəli tədbirlərin təşkilinə görə minnətdarlığını bildirib.

Sahibə Qafarova, həmçinin 2023-cü ildə Azərbaycanda keçirilən və "Rus dili ili"nə həsr olunan tədbirlər barədə də məlumat verib.

Spiker xatırladıb ki, 2025-ci ildə Üçüncü MDB Oyunları Azərbaycanda keçiriləcək. O, bu oyunların MDB məkanında gələcək əməkdaşlığın və uğurlu qarşılıqlı fəaliyyətin inkişafına növbəti töhfə olacağını vurğulayıb.

Sahibə Qafarova çıxışında, həmçinin Özbəkistanda referendum və növbədənkənar prezident seçkilərinin uğurla keçirilməsi münasibətilə təbriklərini də çatdırıb. Milli Məclisin Sədri plenar iclasdakı çıxışında müzakirə olunan digər məsələlərə də münasibət bildirib.

Qeyd edək ki, plenar iclasda təşkilata üzv olan dövlətlərin parlament rəhbərləri, məruzəçilər müxtəlif mövzulara həsr olunmuş çıxışlar ediblər.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Bişkekdə Çingiz Aytmatovun 95 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda çıxış edib

**Qırğız Respublikasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova Bişkek şəhərində böyük Qırğız yazıçısı Çingiz Aytmatovun 95 illik yubileyi münasibətilə keçirilən beynəlxalq konfransda çıxış edib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker çıxışında Çingiz Aytmatovun hələ sağlığında klassikə çevrilmiş yazıçı olduğunu söyləyərək, onun dünya ədəbiyyatında yeni nəsrin yaradıcılarından biri olmaqla oxucularına misilsiz irs qoyduğunu bildirib. Sahibə Qafarova deyib ki, bu böyük yazıçının hər bir əsərini şah əsər adlandırmaq olar. O, həmişə ümumbəşəri dəyərlərə əsl sadiqlik nümunəsi kimi xatırlanacaq.

Milli Məclisin Sədri çıxışında Çingiz Aytmatovun Azərbaycanın böyük dostu olduğunu xatırladıb. Deyib ki, ölkəmizə dəfələrlə səfər etmiş Çingiz Aytmatov Azərbaycan xalqı, onun mədəniyyəti haqqında dəyərli fikirlər söyləmişdir. Azərbaycan xalqı da öz növbəsində Çingiz Aytmatova çox yaxın və əziz yazıçı kimi baxaraq, onun yaradıcılığına böyük diqqət və rəğbət bəsləyir. Çingiz Aytmatovun yaradıcılığını və şəxsiyyətini yüksək qiymətləndirən Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev demişdir ki, "Dünya ədəbiyyatı xəzinəsinə gözəl əsərlər bəxş etmiş Çingiz Aytmatov həm Qırğızıstanın, həm də bütün türk dünyasının fəxridir".

Sahibə Qafarova bildirib ki, Çingiz Aytmatovun yubileyləri Azərbaycanda geniş və təntənəli şəkildə qeyd olunur. 2008-ci ildə yazıçının 80 illik yubileyi yüksək səviyyədə qeyd olunub. Prezident İlham Əliyevin sərəncamı ilə Çingiz Aytmatov "Dostluq" ordeni ilə təltif edilib. Belə bir yüksək mükafatı təqdim edən Azərbaycan Prezidenti, Çingiz Aytmatovun hər zaman Azərbaycanın böyük dostu kimi həm sovet, həm də müstəqillik dövründə bizə daim dəstək olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, Çingiz Aytmatovun yaradıcılığı haqqında Bakıda çoxsaylı əsərlər, monoqrafiyalar nəşr olunub, namizədlik və doktorluq dissertasiyaları müdafiə olunub, dahi ədibin yaradıcılığına həsr olunmuş konfranslar vaxtaşırı keçirilir, onun əsərləri əsasında tamaşalar hazırlanır.

Sahibə Qafarova deyib ki, Çingiz Aytmatovun 95 illik yubileyi münasibətilə paytaxt Bakıdakı küçələrin birinə böyük Qırğız yazıçısının adı veriləcək, onun büstü qoyulacaq.

Milli Məclisin Sədri, Çingiz Aytmatovun bütün əsərlərində fəlsəfi, əxlaqi və ümumbəşəri problemlərə müraciət edən böyük yazıçı olduğunu qeyd edərək, vurğulayıb ki, onun yaradıcılığı prizmasından qırğız xalqının bütün milli kimliyini izləmək olar. O, Vətən obrazını dünya ədəbiyyatına gətirmiş, onu mənəvi irsə çevirmişdir. Bu böyük yazıçının əsərləri 170-dən çox xarici dilə tərcümə edilmiş və milyonlarla tirajla nəşr edilmişdir.

Sahibə Qafarova çıxışında Çingiz Aytmatovun ictimai-siyasi, diplomatik fəaliyyəti barədə də danışıb. Onun sözlərinə görə, müxtəlif mədəniyyətlər, xalqlar və ölkələr arasında qarşılıqlı anlaşmanı və əlaqəni təşviq edən Çingiz Aytmatov ölkəsini xaricdə layiqincə təmsil edib.

Sonda Milli Məclisin Sədri bir daha qeyd edib ki, qırğız xalqı dünyaya Çingiz Aytmatov kimi nadir, dahi dünya klassiklərinin sırasında özünəməxsus yer tutan parlaq yazıçı bəxş etdiyi üçün fəxr edə bilər və onun xatirəsi əbədi olaraq yaşayacaq.

Qeyd edək ki, beynəlxalq konfransda MDB Parlamentlərarası Assambleyasına üzv ölkələrin parlament rəhbərləri, elm və ədəbiyyat xadimləri və yerli ictimaiyyət nümayəndələri də iştirak ediblər. Çıxışlarda böyük Qırğız yazıçısının həyat və yaradıcılığının ən müxtəlif səhifələrinə dair fikirlər səsləndirilib.

*"Azərbaycan"*

# Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclası keçirilib

**Noyabrın 17-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, gündəliyə üç qanun layihəsi daxil edilib.

Birinci məsələ olan "Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsinin (birinci oxunuş) vacibliyinə toxunan birinci vitse-spiker sənədin cinayət təqibi üzrə qiyabi icraat qaydalarını və mexanizmlərini müəyyən etdiyini bildirib. O, məsələ ilə bağlı məlumat vermək üçün Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmova söz verib.

Bəhruz Məhərrəmov bildirib ki, Azərbaycanda qiyabi icraatla bağlı mülki prosessual qanunvericilikdə bütöv bir fəsil olsa da, Cinayət-Prosessual Məcəllədə (CPM) sadəcə cəmi 3 maddədə işə qiyabi baxılmasının mümkünlüyü ifadə olunub. Bildirilib ki, ölkə Prezidentinin qanunvericilik təşəbbüsü ilə CPM-ə əlavə olunması təklif edilən LIV-II fəsil bu məsələni həll edir.

Cinayət prosesində qiyabi icraat institutuna müraciət olunmasının konseptual məqsədindən danışan Bəhruz Məhərrəmov layihədə təsbit olunan qiyabi icraat prosedurları, o cümlədən cinayət təqibi üzrə qiyabi icraatın açılması, ona xitam verilməsi, qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi kimi qaydalar barədə ətraflı məlumat verib. O, təklif olunan dəyişikliklərin digər istiqamətinin isə prosessual sənədlərin rəsmi qaydada verilməsini ehtiva etdiyini bildirib. Diqqətə çatdırılıb ki, layihədə CPM-ə prosessual sənədlərin çatdırılması, qəbulu və digər məsələləri tənzimləyən IV-I fəslin əlavə edilməsi təklif olunub.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi Təminat və İnsan Hüquqları Məsələləri İdarəsinin rəisi Aynur Osmanova təqsirləndirilən şəxslərə qarşı qiyabi məhkəmə icraatının aparılması ilə bağlı qanunvericilikdə mövcud prosedurların çatışmazlığını və dəyişikliklərin zəruriliyini diqqətə çatdırıb. O, qiyabi məhkəmə icraatının Azərbaycan Respublikasının ədalət mühakiməsindən yayınan şəxslərin, xüsusilə də sülh və insanlıq əleyhinə, dövlətin konstitusiya quruluşu və təhlükəsizliyi əleyhinə olan cinayətlərin hüquqi təqibinin həyata keçirilməsinə yaratdığı imkanlardan danışıb. Vurğulanıb ki, qanun layihəsində beynəlxalq hüququn, konvensiyaların tələbləri nəzərə alınıb.

Əli Hüseynli gündəliyin ikinci məsələsi olan "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) dair bildirib ki, sənəd dövlət və ya kommersiya sirri hesab edilən məlumatların qorunmasının tənzimlənməsi məqsədilə hazırlanıb.

Sonuncu məsələ olan Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı bildirilib ki, layihə iqtisadi və biznes fəaliyyəti sahəsində yaranan borc öhdəlikləri ilə bağlı mübahisələrin həllinə yönəldilib.

Müzakirələrin sonunda qanun layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Dayanıqlı inkişafın Azərbaycan modeli

**Dayanıqlı İnkişafa dair II Bakı Forumunda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin maliyyələşdirilməsi, bu prosesə özəl sektorun və xarici investisiyaların cəlb edilməsi ilə bağlı müzakirələr aparılıb**























Noyabrın 15-də Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının, İqtisadiyyat Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə Dayanıqlı maliyyə və investisiya mövzusunda II Bakı Forumu işə başlayıb.

Tədbirin moderatoru, "TRT World"un xəbər müxbiri xanım Maria Ramos Forumun Bakıda keçirilməsindən məmnunluğunu ifadə edib və tədbirdə dünyanın müxtəlif regionlarını təmsil edən ölkələrdən və beynəlxalq təşkilatlardan nümayəndələrin iştirak etdiklərini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Dayanıqlı İnkişafa dair II Bakı Forumunun keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirib. Baş nazirin müavini vurğulayıb ki, "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dəki Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrası Azərbaycan hökumətinin gündəliyində yer alan prioritetlərdəndir.

Ölkəmiz BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna könüllü milli hesabatı indiyədək 3 dəfə təqdim edən azsaylı ölkələr sırasındadır. 2024-cü ildə 4-cü hesabatın təqdim olunması ilə bağlı işlər görülür. Diqqətə çatdırılıb ki, Azərbaycanın inkişaf proqramları DİM ilə uzlaşdırılır. Bu isə qlobal məqsədlərin icrasının maliyyələşdirilməsini asanlaşdırır.

Forumda ölkəmiz tərəfindən inklüziv təhsilin inkişafı, iqlim dəyişiklikləri ilə mübarizə, dayanıqlı və sosial inkişafın təmin edilməsi istiqamətində atılan addımlara nəzər salınıb. Əli Əhmədov DİM-in uğurla həyata keçirilməsi üçün qarşıdakı 7 ildə həyata keçiriləcək tədbirlərin icrasının sürətləndirilməsinin vacibliyini və bu sahədə regional əməkdaşlığın əhəmiyyətini qeyd edib.

İqtisadiyyat naziri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası sədrinin müavini Mikayıl Cabbarov bildirib ki, DİM-ə nail olunması istiqamətində səylərin gücləndirilməsi və çətinliklərin aradan qaldırılması üçün bərpaolunan enerjiyə keçidin sürətləndirilməsi, rəqəmsallaşmanın əhatə dairəsinin genişləndirilməsi, ömür boyu təhsilə əsaslanan cəmiyyətin qurulması, insanların layiqli iş və sosial müdafiə təminatının artırılması, xüsusilə də "yaşıl" və rəqəmsal iqtisadiyyat sahələrində iş yerlərinin sayının artırılması və iqlim dəyişikliyi ilə mübarizə qlobal hədəflər üzrə əsas tövsiyələr sırasındadır.

Diqqətə çatdırılıb ki, azad edilmiş torpaqlarımızın minalanması həmin ərazilərin reabilitasiyasına mane olur, iqtisadi dirçəlişin əsasını təşkil edən çoxistiqamətli layihələrin həyata keçirilməsi prosesini ləngidir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev tərəfindən minatəmizləmə fəaliyyətinin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi BMT-nin 2030 Gündəliyinə əlavə edilməsi təşəbbüsü irəli sürülüb.

İqtisadiyyat naziri forum çərçivəsində aparılacaq müzakirələrin və qurulan əməkdaşlıqların ölkəmizdə BMT-nin 2030 Gündəliyinin icrasına müsbət töhfə verəcəyini bildirib.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Muhammad Nasar Hayat forumun təşkilinə görə təşkilatçılara təşəkkür edib. Qeyd edilib ki, DİM-lərin maliyyələşməsi üçün dövlət investisiyaları yetərli deyil və bu məsələdə özəl sektor önə çıxmalıdır. Bu məqsədlə DİM investisiya xəritəsi hazırlanacaqdır. DİM sahəsində vətəndaş cəmiyyəti və özəl sektorun birgə çalışması önəm kəsb edir.

BMT nümayəndəsi DİM-ə nail olunması istiqamətində "yaşıl" transformasiya, sosial iqtisadi inklüzivliyin təmin olunması və digər məsələlər baxımından bu ilin oktyabr ayında Bakıda keçirilmiş yüksəksəviyyəli dialoqun rolunu vurğulayıb. Azərbaycan hökuməti ilə əməkdaşlıqdan məmnunluğunu vurğulayan BMT nümayəndəsi Dayanıqlı İnkişafa dair II Bakı Forumunun 2030-cu ilədək DİM-ə nail olunmasına və regionun inkişafına mühüm töhfə verəcək müzakirələrin aparılması baxımından əhəmiyyətini qeyd edib.

Rusiya Federasiyası Prezidentinin iqlim məsələləri üzrə müşaviri Ruslan Edelgeriyev ölkəsinin BMT metodologiyası əsasında DİM-ə nail olunması, o cümlədən insan sağlamlığı, yoxsulluğun azaldılması istiqamətində görülən işləri diqqətə çatdırıb. Əsas diqqətin, həmçinin su problemləri və iqlim dəyişikliklərinə, ekosistem layihələrinin icrasına yönəldilməsinin vacibliyi bildirilib.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Katibinin birinci müavini Merve Kavakcı bildirib ki, dayanıqlı inkişaf, ilk növbədə, bütün dövlətlərin siyasətində əsas istiqamətlərdən birini təşkil etməlidir. M.Kavakcı DİM-in hər kəs üçün rifahı və planetimizin təhlükəsizliyini təmin etməyə xidmət edən əsas hədəfləri özündə ehtiva etdiyini bildirib. Bu hədəflərə nail olunmasında cəmiyyətin bütün təbəqələri mühüm rol oynamalıdır. Bu baxımdan, dövlət və özəl sektorla yanaşı, maraqlı tərəflərin də işə geniş cəlb edilməsi önəmlidir. Xanım Kavakcı sülh və sabitliyə xidmət edən mehriban qonşuluq münasibətlərinin iqtisadi və sosial mühitə təsirini vurğulayıb, regional təşkilatların fəaliyyətinin bölgədəki çağırışlarla uzlaşmasının vacibliyini qeyd edib.

Belarus Respublikasının Milli Assambleyası Şurası sədrinin müavini Valeri Belski qeyd edib ki, hazırda cəmiyyətlərin qarşısında duran bütün problemlərin həllində DİM mühüm rol oynayır. Bu məqsədlərə necə nail olunması ilə bağlı müzakirələr daha geniş aparılmalı, bu yollar aydınlaşdırılmalıdır. Valeri Belski ölkəsində DİM-lə bağlı milli assosiasiyaların formalaşması, təhsil sektorunda DİM-ə marağın artırılması və vahid monitorinq sisteminin qurulması istiqamətində aparılan işlərdən bəhs edib.

Forumda həmçinin Azərbaycanda DİM-ə nail olunması istiqamətində görülən işlərə və qazanılan nailiyyətlərə dair videoçarx nümayiş olunub.

Daha sonra tədbir işini sessiyalarla davam etdirib. Sessiyalar "DİM-lərə nail olmaq üçün maliyyə arxitekturasının yenidən qurulması", "DİM-lərə nail olmaq üçün aparıcı investisiyalar: təsirin ölçülməsi və idarə edilməsi" və "Rəqəmsallaşma vasitəsilə rəqabətqabiliyyətli iqtisadiyyatlar" mövzularına həsr edilib.

DİM-lərə nail olmaq üçün maliyyə arxitekturasının yenidən qurulması mövzusunda təşkil edilən sessiyada iştirakçı ölkələrin və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə interaktiv müzakirələr aparılıb. Türkiyə Respublikasının Prezident Administrasiyasının Strateji və büdcə idarəsinin rəis müavini Kutluhan Taşkının məruzəsi dinlənilib.

İştirakçı ölkələrin nümayəndələri və beynəlxalq təşkilatları təmsil edən ekspertlərin iştirakı ilə DİM-lərə nail olmaq üçün maliyyə arxitekturasının yenidən qurulması, DİM-lərin həyata keçirilməsində beynəlxalq və regional tərəfdaşlığın gücləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Serbiyanin mədən və enerji naziri Dubravka Dedoviçin əsas məruzəçisi olduğu "DİM-lərə nail olmaq üçün aparıcı investisiyalar: təsirin ölçülməsi və idarə edilməsi" mövzusunda sessiyada ətraf mühitin, ekoloji və sosial təsirlərin qiymətləndirilməsi mövzularında müzakirələr aparılıb, suallar cavablandırılıb.

II Bakı Forumunun ilk günü "Rəqəmsallaşma vasitəsilə rəqabətqabiliyyətli iqtisadiyyatlar" mövzusunda sessiya ilə başa çatıb. Sessiyada Bosniya və Herseqovinanın Prezident Şurasının sədri Alija Kozljakın məruzəsi dinlənilib, dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv çərçivənin formalaşdırılması, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli hərəkətverici qüvvələrinin möhkəmləndirilməsi, insan kapitalının müasirləşdirilməsi və rəqəmsal iqtisadiyyatın genişləndirilməsi məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Azərbaycanın DİM investor xəritəsi və investisiya ekosistemi üzrə tədqiqatın nəticələrinə dair təqdimatlar keçirilib.

"Dayanıqlı maliyyə və investisiya" mövzusunda II Bakı Forumu çərçivəsində təqdimatlar keçirilib. İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibi Hüseyn Hüseynov Mina Təhlükəsizliyinə dair Milli 18-ci DİM məqsədinin təqdimatını keçirib.

Bildirilib ki, cari ilin 2 mart tarixində Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID 19-a Qarşı Mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə Prezident İlham Əliyev tərəfindən minatəmizləmə fəaliyyətinin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi BMT-nin 2030 Gündəliyinə əlavə edilməsi təşəbbüsü irəli sürülüb. Bununla əlaqədar, İqtisadiyyat Nazirliyi tərəfindən aidiyyəti orqanlarla birlikdə milli, 18-ci Dayanıqlı İnkişaf Məqsədinin layihəsi (Mina təhlükəsizliyi ilə mübarizəyə dair fəaliyyətlər) hazırlanıb və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası tərəfindən təsdiq edilib. Yerli və beynəlxalq ictimaiyyətə təqdim edilən 18-ci DİM milli 5 hədəf və 15 göstəricidən ibarətdir. Bu hədəflər ərazilərin təmizlənməsi, torpaq sahələrinin iqtisadi fəaliyyətə cəlb olunması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, o cümlədən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsidir.

Təsir İnvestisiya Qrupunun rəhbəri, BMT-nin İnkişaf Proqramının İnkişaf üzrə İstanbul Beynəlxalq Özəl Sektor Mərkəzinin (ICPSD) təmsilçisi Funda Suzer tərəfindən Azərbaycanın DİM investor xəritəsi və investisiya ekosistemi üzrə tədqiqatın nəticələrinə dair təqdimat edib. DİM-lərə investisiyanın cəlb edilməsinə dair DİM İnvestisiya Xəritəsi (SDG Investment Map) və İnvestisiya Ekosisteminin Tədqiqatı təşəbbüsləri icra olunub.

Diqqətə çatdırılıb ki, DİM-in icrasına dövlət sektoru ilə yanaşı, özəl sektorun cəlb edilməsi olduqca vacibdir. Bu məqsədlə BMT-nin İnkişaf Proqramının Ölkə Nümayəndəliyinin dəstəyi ilə beynəlxalq və yerli investorlar, həmçinin təsir yaratmaq potensialı olan müəssisə və startaplar tərəfindən mühüm tədbirlər görülüb. DİM investor xəritəsinə əsasən, Azərbaycan üzrə 4 sektor - infrastruktur, alternativ enerji, xidmət, qida və içki əsas investisiya qoyulacaq sahələr kimi təklif edilib.

Dayanıqlı maliyyə və investisiya mövzusunda II Bakı Forumu noyabrın 16-da başa çatıb. Həmin gün Dayanıqlı maliyyə və investisiya mövzusunda II Bakı Forumunun yekunlarına həsr olunmuş Bakı Bəyannaməsi də qəbul olunub.

Forumun bağlanış mərasimində çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov tədbir çərçivəsində aparılan müzakirələr və əldə edilən nəticələrin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsi istiqamətində təcrübələrin bölüşdürülməsi və birgə fəaliyyət üzrə yol xəritələrinin hazırlanması baxımından önəmini vurğulayıb: "Müzakirələr və təqdimatlar göstərir ki, özəl sektoru DİM-in icrasına səfərbər etmək üçün DİM İnvestor Xəritəsi kimi məhsullar vasitəsilə investisiya imkanları və sahələr haqqında məlumatların təmin edilməsi vacibdir. Bir məqam xüsusilə qeyd olundu ki, bu sahədə inkişaf məqsədilə əməkdaşlığı genişləndirmək və DİM-ə investisiyaları artırmaq üçün sistemli tədbirlər görülməlidir".

BMT İnkişaf Proqramının Azərbaycan üzrə rezidenti vəzifəsinin icraçısı Alessandra Rokkasalvo Forumun təşkilinə görə təşəkkürünü ifadə edib, təmsil etdiyi qurumun 18-ci DİM-in icrasında Azərbaycan hökumətinə dəstəyini davam etdirəcəyini, azad edilmiş ərazilərimizin minalardan təmizlənməsində birgə fəaliyyət göstərəcəyini bildirib.

Forumun yekunu olaraq qəbul olunan Bakı Bəyannaməsində DİM-ə sərmayələrin cəlb edilməsi, investisiya ekosisteminin təşviqi məqsədilə regional əməkdaşlığın yaradılması, buna dair koordinasiya mexanizminin icrasına dövlət qurumları, akademik dairələr və maraqlı investorların cəlb olunması təklifləri əksini tapıb.

Qeyd edək ki, Dayanıqlı İnkişafa dair 2-ci Bakı Forumunda 15-ə yaxın xarici ölkənin yüksəksəviyyəli hökumət rəsmiləri, 40-dan çox beynəlxalq təşkilatı və özəl sektoru təmsil edən nümayəndə iştirak etmişdir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Sosialyönümlü tədbirlərin maliyyələşdirilməsi dövlət büdcəsinin əsas istiqamətlərindən biridir



Noyabrın 17-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin növbəti iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili gündəliyə 12 məsələnin daxil edildiyini, onlardan 11-nin ikinci oxunuşda təqdim edilən 2024-cü ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri olduğunu söyləyib.

Komitə sədri bildirib ki, ötən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr ölkə iqtisadiyyatının gücləndirilməsində mühüm mərhələ olub. Həmin dövrdə Azərbaycanda sənayeləşmə prosesinin başlanması, əmək məhsuldarlığının artması, Xəzər dənizində yeni neft resurslarının kəşf edilməsi ölkənin iqtisadi inkişafında önəmli rol oynayıb və müstəqilliyimizin bərpası üçün zəmin yaradıb. O, 35 il əvvəl, 1988-ci il noyabrın 17-də Azərbaycan xalqının milli azadlıq hərəkatına başlayaraq, dövlətimizə qarşı olan haqsızlıqlara layiqli cavab verdiyini və bu günün Milli Dirçəliş Günü kimi qeyd edildiyini deyib, bu münasibətlə öz təbriklərini çatdırıb.

Sonra Tahir Mirkişili gündəlikdəki məsələlər barədə fikirlərini açıqlayıb. O, 2024-cü ilin dövlət büdcəsi və büdcəyə daxil olan qanun layihələri barədə birinci oxunuşda ətraflı məlumat verildiyini söyləyib. Qeyd edib ki, 2024-cü ilin büdcəsində gəlirlərin 282 milyon manat, xərclərin isə 138 milyon manat artırılması planlaşdırılır. Komitə sədri ölkədə məşğulluğun və iqtisadi fəallığın artırılması ilə bağlı həyata keçirilən tədbirlərin əhəmiyyətindən danışıb. O, iqtisadiyyatın inkişafında mühüm əhəmiyyətə malik olan özəl sektorun genişləndirilməsi, investisiyaların, kredit qoyuluşlarının artırılması ilə bağlı Milli Məclisdə bir sıra qanun layihələrinin müzakirə edildiyini bildirib.

Sonra iclasda maliyyə nazirinin müavini Azər Bayramov çıxış edərək, 2024-cü il və sonrakı 3 il üçün dövlət və icmal büdcələrinin təklif olunan gəlir və xərcləri barədə məlumat verib. Diqqətə çatdırıb ki, növbəti ilin dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində təklif olunur. Xərclərin 93 faizinin və ya 34 milyard 173 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına, 7 faizinin və ya 2 milyard 590 milyon manatının dövlət büdcəsi kəsirinin maliyyələşməsi hesabına həyata keçirilməsi planlaşdırılır. Dövlət büdcəsi gəlirlərinin 49,8 faizi qeyri-neft sektorunun, 50,2 faizi isə neft sektorunun gəlirləri hesabına formalaşacaq.

Bildirilib ki, növbəti ilin büdcə xərclərinin 51,2 faizi və ya 18 milyard 833 milyon manatı məqsədli dövlət proqramları və məqsədli tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulub. Belə ki, işğaldan azad edilmiş ərazilərdə Böyük qayıdış proqramı üzrə 4 milyard manat məbləğində, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi üçün 1,5 milyard manat məbləğində və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün 249 milyon manat məbləğində vəsaitin yönəldilməsi nəzərdə tutulub.

Qeyd olunub ki, sosialyönümlü tədbirlərin maliyyələşdirilməsi dövlət büdcəsinin əsas istiqamətlərindən birini təşkil edir. Bu istiqamətdə 2024-cü ildə 15 milyard 773 milyon manat vəsait ayrılacaq. Məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə haqqı ödənilən ictimai işlərin maliyyələşdirilməsi üçün 286 milyon manat, keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər üçün 355 milyon manat vəsait nəzərdə tutulub. Təhsil, səhiyyə, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahələrində xərclərin artırılması da proqnozlaşdırılır.

Nazir müavini diqqətə çatdırıb ki, 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır. Kəsirin ÜDM-ə nisbəti 2,9 faiz səviyyəsində planlaşdırılır. Dövlət Neft Fondunun gəlirləri 12 milyard 73 milyon manat, xərcləri isə 12 milyard 862 milyon manat təşkil edəcək. Növbəti ildə Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 920 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsi 2 milyard 811 milyon manat, İşsizlikdən Sığorta Fondunun büdcəsi 238 milyon manat, Naxçıvan Muxtar Respublikasının büdcəsi 516 milyon manat təşkil edəcək.

Sonra iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov növbəti ilin büdcə layihəsi barədə danışıb. O, bildirib ki, İqtisadiyyat Nazirliyi proqnozları 3 ssenaridə - baza, pessimist və optimal ssenarilər üzrə hazırlayıb. 2024-cü ildə ÜDM 118 milyard 383 milyon manat proqnozlaşdırılır və real artım 2,4 faiz təşkil edir. Neft-qaz sektorunda 1,7 faiz azalma, qeyri-neft sektorunda 4,6 faiz artım proqnozlaşdırılır. ÜDM-in kənd təsərrüfatı üzrə 4,6 faiz, qeyri-neft/qaz sənayesində 8,5 faiz, tikinti sahəsində 2,4 faiz, ticarətdə 3 faiz, turizm sahəsində 15,8 faiz, nəqliyyat sektorunda 4,5 faiz, informasiya və rabitə sahəsində 9,5 faiz, sosial və digər xidmətlər üzrə 3 faiz artımı proqnozlaşdırılır.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili büdcə zərfinə daxil olan qanun layihələri barədə məlumat verib. Diqqətə çatdırıb ki, 2024-cü il üçün Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 651,9 milyon manat artırılması planlaşdırılır. O, fondun gəlirlərinin və xərclərinin eyni istiqamətdə artmasının növbəti ildə yaradılacaq iş yerlərinin və orta aylıq əməkhaqqının artım dinamikasına uyğun olduğunu qeyd edib.

Komitə sədri, İşsizlikdən Sığorta Fondunun gəlirlərinin və xərclərinin 7,5 milyon manat artırılmasının planlaşdırıldığını deyərək, ölkədə məşğulluğun artması ilə bağlı tədbirlərin həyata keçirilməsinin vacibliyindən danışıb.

Büdcə zərfinə daxil olan digər sənədlərə əsasən, "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında" qanun layihəsində növbəti il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilir. "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihəsində ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə növbəti il üçün ehtiyac meyarının həddi 270 manat məbləğində nəzərdə tutulur.

İclasda Tahir Mirkişili Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərə dair məlumatında söyləyib ki, sənəddə 71 əsas maddə və 201 altmaddə üzrə dəyişikliklərin edilməsi nəzərdə tutulur. O, bu dəyişikliklərin əsas istiqamətlərinin güzəşt və azadolmalar, habelə inzibatçılığın təkmilləşdirilməsi ilə bağlı olduğunu deyib.

Deputatlar büdcə zərfinə daxil olan digər qanun layihələrini də nəzərdən keçirərək, bu sənədlərdə təklif olunan dəyişiklikləri məqbul hesab ediblər.

Təqdim olunan qanun layihələri ətrafında keçirilən müzakirələrdə komitənin sədr müavini Əli Məsimli, üzvləri Vüqar Bayramov, Məzahir Əfəndiyev, Rüfət Quliyev, Vahid Əhmədov fikir və qeydlərini açıqlayıblar.

Maliyyə nazirinin müavini Azər Bayramov, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, Dövlət Statistika Komitəsinin sədr müavini Yusif Yusifov, Mərkəzi Bank sədrinin birinci müavini Rəşad Orucov, Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov, Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov, Dövlət Məşğulluq Agentliyinin Maliyyə departamentinin müdiri Yuliya Pasternak, Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev millət vəkillərinin suallarını cavablandırıblar, qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda gündəliyin 11 məsələsi - "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında", "Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında", Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında, "Nağdsız hesablaşmalar haqqında" qanunlarında dəyişiklik edilməsi barədə, "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə, "Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitə sədri Tahir Mirkişili gündəliyin 12-ci məsələsi olan "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb.

Bildirilib ki, sənəd maliyyə hesabatları və mühasibat uçotu sənədləri təqdim edilərkən dövlət və ya kommersiya sirri hesab edilən məlumatların qorunmasının tənzimlənməsi məqsədilə hazırlanıb.

Bu qanun layihəsi də birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Asəf Hacıyev yenidən QDİƏT Parlament Məclisinin baş katibi seçilib

Noyabrın 16-17-də Ukraynanın Kiyev şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisi (QDİƏT PM) Baş Assambleyasının 62-ci plenar iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirə Milli Məclisin deputatları - qurumdakı Azərbaycan nümayəndə heyətinin rəhbəri, QDİƏT PM sədrinin müavini Eldar Quliyev, nümayəndə heyətinin üzvləri Eldar İbrahimov, Musa Quliyev, Ramin Məmmədov, Jalə Əhmədova və Elşad Mirbəşiroğlu onlayn formatda qoşulublar.

Toplantıda Qara Dəniz regionunda təhlükəsizliyin möhkəmləndirilməsi, əməkdaşlığın inkişaf etdirilməsində parlamentlərin rolu, fövqəladə hallar zamanı əməkdaşlıq, uşaq hüquqlarının qorunması və digər məsələlər müzakirə olunub. Həmçinin iclasda bir sıra təşkilati məsələlərə baxılıb, QDİƏT Parlament Məclisinin Baş katibi Asəf Hacıyev yenidən qurumun baş katibi vəzifəsinə seçilib.

Yekunda qurumun növbəti sessiyasının tarixi, yeri və gündəliyi müəyyənləşdirilib.

***"Azərbaycan"***

# "Uşaq hüquqları tribunası" mövzusunda konfrans təşkil olunub

Noyabrın 17-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) təşkilatçılığı ilə "Uşaq hüquqları tribunası" mövzusunda konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, BMT-nin 20 Noyabr - Ümumdünya Uşaq Hüquqları Gününə həsr edilmiş tədbirdə Türkiyənin müvafiq qurumlarının nümayəndələri və 100-dən çox uşaq iştirak edib.

Konfransda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla anılıb.

Sonra dövlət uşaq siyasəti, eləcə də uşaq iştirakçılığı sahəsində həyata keçirilən tədbirləri özündə əks etdirən videoçarx nümayiş olunub.

Konfransı açan AQUPDK-nın sədri Bahar Muradova tədbir iştirakçılarını, eləcə də qardaş Türkiyədən gələn qonaqları salamlayıb. İki ölkə arasında dostluq, qardaşlıq münasibətlərinə diqqət çəkən komitə sədri müvafiq sahədə uğurlu əməkdaşlıq əlaqələrindən danışıb.

Ölkəmizdə uşaqların hüquqlarının yüksək səviyyədə qorunduğunu, onların diqqət və qayğı ilə əhatə olunduqlarını vurğulayan Bahar Muradova bildirib ki, Azərbaycan Respublikası 1992-ci ildə BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasına, 2002-ci ildə isə həmin konvensiyanın iki əlavə protokoluna qoşulub. 1998-ci ildə ölkəmizdə Konvensiyanın əsas prinsiplərini özündə əks etdirən "Uşaq hüquqları haqqında" Qanun qəbul edilib və ölkədə uşaq hüquqlarının təmini məqsədilə müxtəlif istiqamətlərdə davamlı olaraq zəruri tədbirlər həyata keçirilməkdədir.

Diqqətə çatdırılıb ki, uşaqların hüquqlarının qorunması və müdafiəsi sisteminin təkmilləşdirilməsi istiqamətində işlər aparılır, bu sahədə yeni qanun layihəsi üzərində iş gedir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin həm müstəqilliyə qədərki dövrdə, həm də müstəqillik illərində Azərbaycan dövlətinin inkişafına verdiyi töhfələrdən bəhs edən B.Muradova Ulu Öndərin uşaqlara xüsusi yer ayırdığını, onların ən yaxın dostu olduğunu vurğulayıb. Komitə sədri Prezident İlham Əliyevin bu siyasəti qətiyyətlə irəli apardığını qeyd edərək, həssas qrupdan olan, 30 il işğaldan əziyyət çəkən keçmiş məcburi köçkünlərin, xüsusilə də qadın və uşaqların pozulmuş hüquqlarının bərpası istiqamətində işlər aparıldığını bildirib.

Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyinin əməkdaşı Muhammed Furkan Bilge qardaş ölkədə həyata keçirilən uşaq siyasətindən söz açıb. O, uşaq hüquqlarının təmin olunması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, bu sahədə komitə ilə birgə uğurlu əməkdaşlığın ölkələrimiz arasında dostluğu daha da inkişaf etdirəcəyini bildirib.

Rəsmi hissədən sonra konfrans işini uşaq hüquqları ilə bağlı mövzuları əhatə edən 4 panel iclası ilə davam etdirib.

Rəsmi qurumların nümayəndələri "Uşaqların yaşamaq hüquqları", "Uşaqların müdafiə hüquqları", "Uşaqların inkişaf hüquqları" və "Uşaqların iştirak hüquqları" mövzularında fikirlərini bölüşüblər, təkliflərini səsləndiriblər.

Tədbirin sonunda iştirakçı uşaqlara hədiyyələr verilib.

# Bakıda Latviya Respublikasının elan olunmasının 105 illiyi qeyd edilib

Latviya Respublikasının elan olunmasının 105-ci ildönümü münasibətilə noyabrın 17-də Bakıda rəsmi qəbul təşkil edilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Rəsmi qəbulda əvvəlcə Azərbaycanın və Latviyanın Dövlət himnləri səsləndirilib.

Ölkəsinin tarixinə, keçdiyi inkişaf yoluna nəzər salan Latviya səfiri Edqars Skuya Azərbaycan-Latviya əlaqələrinin müxtəlif sahələrdə dinamik inkişafından danışıb. Ölkələrimiz arasındakı diplomatik əlaqələrin 2024-cü ildə 30 illiyinin qeyd olunacağını diqqətə çatdıran səfir, münasibətlərin strateji əməkdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

"Latviya həm də Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin inkişafına dəstək göstərir", - deyə o qeyd edib. Ölkələrimiz arasındakı əlaqələrin beynəlxalq arenada da uğurla inkişaf etdiyindən söhbət açan Edqars Skuya, əlaqələrin bundan sonra da uğurla inkişaf edərək dərinləşəcəyinə əminliyini bildirib.

Tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Samir Şərifov Azərbaycan hökuməti adından Latviya xalqını respublikanın yaranmasının 105-ci ildönümü münasibətilə təbrik edib.

Azərbaycan-Latviya münasibətlərinin strateji əhəmiyyət daşıdığını qeyd edən nazir müavini, ölkələrimizin bir-birini hər zaman dəstəklədiklərini deyib.

Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında ikitərəfli əlaqələr inkişaf mərhələsinə qədəm qoyub. Yüksəksəviyyəli qarşılıqlı səfərlər, aparılan müzakirələr, imzalanan sənədlər əlaqələrimizin genişləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

# Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Azərbaycana qarşı 10 iddiasından 7-sini rədd edib

Beynəlxalq Ədalət Məhkəməsi noyabrın 17-də Ermənistanın Azərbaycana qarşı 10 iddiasından 7-sini rədd edib.




AZƏRTAC xəbər verir ki, Məhkəmə öz qərarında Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiqləyib, Azərbaycanın hərbi və hüquq-mühafizə orqanlarının Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və gülünc tələbi rədd edib. Həmçinin qərara əsasən Azərbaycan hökumətinin Qarabağın erməni sakinləri ilə bağlı artıq bəyan olunmuş siyasəti qəbul edilib. Bu, milli və ya etnik mənşəyindən asılı olmayaraq, bütün sakinlərin təhlükəsizliyini və mühafizəsini təmin etmək barədə Azərbaycanın öhdəliyini əhatə edir.

Məhkəmə Ermənistanın BMT agentliklərinin Qarabağ bölgəsinə səfəri və Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə əməkdaşlıq barədə iddiasına əhəmiyyət verməyib, bununla da, beynəlxalq təşkilatların bölgəyə girişi ilə bağlı ölkəmizə qarşı bütün iddiaları mahiyyətcə əsassız edib. Həmçinin Məhkəmənin mədəniyyət abidələri və artefaktlar ilə bağlı Ermənistanın iddialarını rədd etməsi Azərbaycanın həyata keçirdiyi müsbət tədbirlərin təsdiqidir.

Bundan başqa, məhkəmə müvafiq ittihamlarla saxlanılan qanunsuz separatçı rejimlə əlaqəsi olan şəxslərlə bağlı Ermənistanın iddiasını eyni şəkildə təmin etməyib.

Azərbaycanın İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Beynəlxalq Konvensiya (CERD) öhdəliklərini pozması məhkəmə tərəfindən təsdiqlənməyib və Ermənistanın bu iddiası da rədd edilib.

# Vaşinqtonun bitməyən qərəzi

## ABŞ Konqresinin "907-ci düzəliş"i ölkəmizə qarşı ədalətsizliyin bariz nümunəsidir

"Müəyyən beynəlxalq dairələr Cənubi Qafqazda vəziyyətin gərgin olaraq qalmasında maraqlıdırlar. Eyni zamanda biz hələ də bir sıra dövlətlərin əsassız olaraq Ermənistanın maraqlarına uyğun formada çıxış etdiyini görürük. Noyabrın 15-də ABŞ-nin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa və Avrasiya altkomitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmə keçirilməsi və çıxış edənlərin Azərbaycana qarşı qərəzli mövqeyi bunu bir daha təsdiqləyir".



Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva "Azərbaycan" qəzetinə açıqlamasında deyib. Deputat bildirib ki, Azərbaycan otuz il ərzində Ermənistanın işğalından əziyyət çəkən zaman beynəlxalq birlik işğalçıya qarşı təsirli addımlar atmayıb, bu prosesdə dünyanın aparıcı dövlətləri xüsusilə susqunluq nümayiş etdiriblər. Vaxtilə ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olmuş ABŞ da Qarabağ münaqişəsinin həllində ikili standartlardan çıxış edib. Həmin dövrdə ABŞ və digər həmsədrlər təcavüzkarı heç vaxt öz adı ilə çağırmayıblar, əksinə, verdikləri bəyanatlar işğalçı Ermənistanın maraqlarına uyğun olub. Özünü dünyada beynəlxalq hüququn, insan haqlarının əsas "qoruyucusu" kimi təqdim edən ABŞ işğaldan əziyyət çəkən Azərbaycana heç vaxt ciddi dəstək nümayiş etdirməyib. Əksinə, konqres tərəfindən qəbul olunmuş "907-ci düzəliş" ölkəmizə qarşı ədalətsizliyin bariz nümunəsidir.

S.Fətəliyevanın sözlərinə görə, beynəlxalq səviyyədə ədalətsizliklə üzləşən Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edib. "Bu tarixi hadisədən sonra rəsmi Vaşinqton Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün vasitəçilik təşəbbüsləri ilə çıxış edib. Təsadüfi deyil ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh sazişi layihəsinin müzakirəsi üzrə keçirdiyi altı görüşdən üçü ABŞ-də baş tutub. Bu, ölkəmizin sülhə sadiqliyinin göstəricisidir. Amma sentyabr ayında ordumuzun Qarabağda keçirdiyi lokal antiterror tədbirləri nəticəsində dövlətimizin suverenliyini tam bərpa etməsindən, separatçı rejimin təslim olmasından sonra ABŞ-nin mövqeyində müəyyən dəyişikliklər yaranıb. Belə ki, Ağ Evin bir sıra rəsmi şəxsləri Azərbaycanın öz suverenliyini təmin etməsini yanlış formada şərh edirlər. ABŞ Konqresindəki erməni lobbisinin nümayəndələri isə açıq-aşkar erməni separatizminə dəstək verir, ölkəmizə qarşı qərəzli mövqe sərgiləyirlər", - deyə deputat əlavə edib.

Sevinc Fətəliyeva qeyd edib ki, ABŞ-nin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa və Avrasiya altkomitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilən dinləmələrdə dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Braynın fikirləri də obyektivlikdən uzaq və qəbulolunmazdır. Onun "Azərbaycanla münasibət 19 sentyabr hadisələrindən sonra adi qaydada davam etməyəcək" sözləri ciddi suallar doğurur. Belə çıxır ki, ABŞ Azərbaycanın beynəlxalq müstəvidə tanınmış ərazisində qanunsuz, separatçı rejimin mövcudluğunun tərəfdarıdır? Digər tərəfdən, ABŞ rəsmisi çıxışında Ermənistanın və separatçı rejimin işğal dövründə Azərbaycana vurduğu zərbələrə, yüz minlərlə insanın doğma yurdlarından qovulmasına toxunmur. Dövlətimiz 44 günlük müharibədən sonra Qarabağ erməniləri ilə məsələlərin dinc yola həll olunmasına çalışıb, lakin qanunsuz rejim buna qarşı çıxıb, əvəzində bir çox hərbi təxribat törədib. Ona görə də, Azərbaycan qanunsuz rejimin hərbi birləşmələrinə qarşı lokal antiterror tədbirləri keçirib və öz suverenliyini təmin edib. Eyni zamanda Qarabağın mülki erməni əhalisi üçün reinteqrasiya proqramı təklif edilib, lakin həmin ermənilərin əksəriyyəti könüllü surətdə Ermənistana köçüb.

Milli Məclisin komitə sədrinin müavini vurğulayıb ki, bu gün Azərbaycanla yanaşı, Ukrayna, Gürcüstan və Moldova da eyni problemdən əziyyət çəkir, onların da ərazi bütövlüyü və suverenlik problemi var. Amma nədənsə ABŞ birmənalı olaraq həmin ölkələrə açıq dəstək verir. Azərbaycana gəlincə, başqa mövqe ortaya qoyulur. Beynəlxalq hüquq bütün ölkələr üçün bərabər olmalıdır. Lakin Vaşinqtonun qərəzli yanaşması Azərbaycanın beynəlxalq hüquqa və ədalət prinsiplərinə əsaslanan mövqeyinə təsir edə bilməz.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***



# Qlobal ədalətsizliyə qarşı İLHAM ƏLİYEV ədaləti

## ABŞ və Qərb Azərbaycanın zəfərini qəbul edə bilmir

Beynəlxalq münasibətlər sistemində dövlətlərin yerini və nüfuzunu müəyyən edən əsas məsələlərdən biri onların yürütdüyü siyasətin məzmun və mahiyyətidir. Əlbəttə, bütün dövlətlər ölərinin milli maraqlarına cavab verən siyasət həyata keçirmək istəyirlər. Amma hər dövlətə müyəssər olmur. Bu baxımdan yerləşdiyi regionun lider dövləti olan Azərbaycanın qlobal səviyyədə də öz maraqlarını qətiyyətlə təmin etməsi, bütün xarici təsir və təzyiqləri dəf etməsi ən böyük reallıqdır.

### Okeanın o tayından dəstəklənən pozuculuq cəhdləri Azərbaycanda iflasa uğrayıb

Ümumiyyətlə, müstəqillik tariximiz göstərir ki, Azərbaycan bütün xarici təsirlərin, müxtəlif rəngli ssenarilərin həmişə qətiyyətlə qarşısını alıb, ayrı-ayrı siyasi mərkəzlərin antimilli planlarını darmadağın edib. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ötən 20 ildə xaricdən himayə olunan bütün çirkin planlar və niyyətlər iflasa uğrayıb. Azərbaycan hansısa uğura yaxın olanda fəallaşan antiazərbaycançı şəbəkə bunun qarşısını almağa çalışsa da, heç vaxt istədiyinə nail ola bilməyib və respublikamız öz məqsədlərinə yetişib. Bakı-Tbilisi-Ceyhan neft kəməri çəkiləndə, Azərbaycanda "Eurovision" mahnı müsabiqəsi keçiriləndə və digər qlobal tədbirlərdə bunun şahidi olmuşuq. İlham Əliyev böyük siyasi qətiyyətlə bütün antiazərbaycançı şəbəkələrin niyyətlərini puça çıxarıb. Zaman göstərib ki, həmin antiazərbaycançı şəbəkənin önündə gələn Avropa Parlamenti kimi təşkilatların, erməni məkrinin yuvası olan Fransa kimi dövlətlərin qanunverici orqanlarının qəbul etdikləri hansısa sənədlər Azərbaycan üçün adi kağız parçasından başqa bir şey deyildi.

Eyni zamanda bizə yaxın coğrafiyalarda baş tutan, lakin həmin dövlətləri asılı vəziyyətə salan, xalqlarına isə ağrı-acıdan başqa heç nə gətirməyən rəngli inqilablar, pozuculuq, konstitusion quruluşu dəyişmək cəhdləri Azərbaycanda həmişə fiaskoya uğradılıb. Buna misal olaraq ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) ölkəmizdə həyata keçirmək istədiyi, lakin qarşısı alınan çirkin planları göstərmək olar. Son vaxtlarda Gürcüstan və digər ölkələrdə USAİD-in iştirakı ilə ortaya çıxan problemlər müxtəlif formalarda Azərbaycanda da yaşanıb. USAİD maliyyə ayırdığı, dəstəklədiyi təşkilatlar vasitəsilə təmsil etdiyi siyasi mərkəzlərin maraqları naminə respublikamızda da pozuculuq fəaliyyəti həyata keçirməyə çalışıb.

USAİD -lə yanaşı, ABŞ Milli Demokratiya İnstitutu (MDİ) da respublikamızda zaman-zaman pozuculuq fəaliyyəti göstərməyə cəhd göstərib. 2014-cü ildə MDİ-nin Bakıdakı nümayəndəliyinin keçmiş rəhbəri Aleks Qriqoryevs bu məqsədlə özünün bank hesabından 2 milyon dollara yaxın vəsaiti çıxarıb bəzi QHT-lərə, konkret şəxslərə paylamışdı. Bu adamın adı digər keçmiş sovet respublikalarında da bu cür pozuculuq fəaliyyətləri ilə məşğul olmaqda keçir.

Əlbəttə, Azərbaycan güclü dövlətdir, cəmiyyətimiz sağlamdır, milli və dövlətçilik amalları uğrunda səfərbərdir. Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə USAİD, MDİ kimi təşkilatların Azərbaycandakı pozuculuq fəaliyyətləri heç vaxt nəticə verməyib. Xalq-hakimiyyət birliyi hər zaman onların qarşısında sarsılmaz sipər olub.

### ABŞ işğala və işğalçıya dəstək verib

Azərbaycanın Vətən müharibəsindəki qələbəsindən və xüsusən də öz əraziləri üzərində milli suverenliyini bərpa etməsindən sonra erməni məkrinin digər ünvanı olan ABŞ-də öz antiazərbaycançı simasını ortaya qoyaraq, ölkəmizə qarşı riyakar davranışlarını açıq müstəviyə çıxarıb. Bu gün ABŞ erməni separatizminin darmadağın edilməsinə görə Azərbaycanı ittiham edir. Bu ölkənin siyasi dairələri Azərbaycanın öz əraziləri üzərində milli suverenliyini bərpa etməsi ilə razılaşa bilmirlər.

Fransa kimi ABŞ da bir dəfə belə, Azərbaycan torpaqlarının işğal edilməsinə görə Ermənistanı qınamayıb. Bir dəfə də olsun ABŞ-nin hansısa siyasi strukturu BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrası ilə bağlı Ermənistana çağırış etməyib. Amma 1992-ci ildə ABŞ Azərbaycana qarşı məlum "907-ci düzəliş"i qəbul edib. Azərbaycan xalqı bu riyakarlığı unutmayıb və unutmayacaq.

Bunlar həm də bu reallığı təsdiq edir ki, ABŞ da Fransa kimi ATƏT-in keçmiş Minsk qrupunun həmsədri olduğu dövrdə, əslində, işğala və işğalçıya dəstək verib. Eyni zamanda ABŞ separatçı rejimə maliyyə ayırmaqla, onun təmsilçilərinin Vaşinqtona səfərlərini və burada rəsmi şəxslərlə görüşlərini təşkil etməklə işğala dəstək göstərib.

Bu baxımdan Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ ərazilərimizin işğal edilməsinə, azərbaycanlılara qarşı etnik təmizləmənin həyata keçirilməsinə, milli-mədəni irsimizin məhv olunmasına, sərvətlərimizin talanmasına görə məsuliyyət daşıyır.

Bir neçə gün əvvəl ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici İşlər Komitəsinin Avropa üzrə alt komitəsində "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr də bunu təsdiq edir. Dinləmələrin keçirilməsinə ABŞ-dəki erməni lobbisi də dəstək verir. Dinləmələrdə çıxış edən ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Brayn və qanunverici orqan nümayəndələri regionda sülh prosesinin davam etdirilməsinə maneələr törədən, düşmənçiliyi qızışdıran açıqlamalarla vəziyyəti gərginləşdirməyə çalışırlar. Qərəzli şəkildə Azərbaycanı hədəfə alan, respublikamızın özünümüdafiə hüququndan istifadəsini tənqid edən həmin açıqlamalar bir daha təsdiq edir ki, ABŞ Azərbaycanın öz suverenliyini və ərazi bütövlüyünü bərpa etməsini qəbul edə bilmir. Dinləmələrdə verilən açıqlamaların böhtan xarakterli məzmunu göstərir ki, ABŞ rəsmiləri reallıq hissini itirərək, beynəlxalq hüquqa qarşı çıxır, Azərbaycanın öz milli haqqını bərpa etməsi ilə barışa bilmirlər.

Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında dinləmələrdə səsləndirilən fikirlərin əsassız və qəbuledilməz olduğu bildirilib: "Dinləmələri və səsləndirilən çıxışları Azərbaycan ilə ABŞ arasında ikitərəfli və çoxtərəfli formatlarda münasibətlərə zərbə kimi qiymətləndiririk. Azərbaycana qarşı səslənən ittihamlar əsassız olmaqla yanaşı, regionda sülh və təhlükəsizliyi sarsıdır.

Dinləmələrdə səsləndirilən "Azərbaycanın gücdən istifadə etməsi etimadı sarsıdıb və Bakının Ermənistanla hərtərəfli sülhə sadiqliyinə şübhələr yaradıb", o cümlədən "ikitərəfli münasibətlərimiz "əvvəlki kimi" ola bilməz" kimi ifadələr isə heç bir dəyər daşımır. Azərbaycan beynəlxalq münasibətlərdə öz maraqlarını qətiyyətlə qoruyur və ABŞ-nin ölkəmizə qarşı bu cür qərəzli və düşmən mövqe tutması Bakını narahat etmir.

### Azərbaycana qarşı məkrli "907-ci düzəliş"

Dinləmələrdə çıxış edənlər bildiriblər ki, ABŞ Azərbaycana yardım etməyəcək. Bu baxımdan "907-ci düzəliş"in icrasını hər il müvəqqəti dayandırmış ABŞ-nin bu bədnam düzəlişi yenidən tətbiq etmək istəməsi bir daha Azərbaycana qarşı olan düşmən münasibətdən xəbər verir.

Xatırladaq ki, 1992-ci ildə ABŞ Konqresi müstəqilliyini qazanmış keçmiş sovet respublikalarına dövlət quruculuğu, demokratiya və bazar iqtisadiyyatına keçidlə bağlı maliyyə yardımını tənzimləyən "Azadlığa Dəstək Aktı" adlı qanun qəbul edib. Həmin il bu qanuna erməni lobbisinin təsiri və senator Con Kerri və konqresmen Ueyn Ouensin təşəbbüsü ilə 907-ci bölməsinə edilən düzəlişə əsasən, ABŞ tərəfindən Azərbaycana yardım göstərilməsi qadağan olunmuşdu.

O zaman müstəqilliyini yeni əldə etmiş Azərbaycan 907-ci düzəliş kimi bir sankisiya ilə ABŞ tərəfindən birbaşa maliyyə dəstəyindən məhrum olmuşdu. Ən əsası isə bu düzəliş işğala məruz qalmış ölkəmizin haqlı mövqeyinin tapdalanması idi. "907-ci düzəliş"in müəllifləri iddia edirdilər ki, guya Azərbaycan Dağlıq Qarabağı işğal edir, Ermənistana qarşı blokada həyata keçirir. Lakin bu düzəlişin qəbuluna qədər Ermənistan Azərbaycan torpaqlarını artıq işğal etmişdi. Belə ki, buna qədər Şuşa və Laçın ermənilər tərəfindən işğal olunmuşdu. Həmçinin Xocalıda, Qaradağda dinc azərbaycanlı əhaliyə qarşı soyqırımı cinayətləri həyata keçirilmişdi. 1992-ci ilin oktyabr ayına qədər on minlərlə azərbaycanlı artıq məcburi köçkün vəziyyətinə düşmüşdü. Ermənistan öz işğalçı siyasətini yalnız Qarabağda deyil, bütövlükdə Azərbaycanın sərhədboyu rayonlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında həyata keçirirdi.

Bütün bunlar o dövrdə dünyanın bildiyi həqiqətlər idi. Elə ABŞ-də də vəziyyətin necə olduğunu çox yaxşı bilirdilər. Lakin ABŞ məkrli, ikiüzlü və riyakar mövqedən çıxış edərək bu düzəlişi tətbiq etmişdi.

Bugünkü Azərbaycan 30 il əvvəlin Azərbaycanı deyil. Bugünkü Azərbaycan torpaqlarını işğaldan azad edən, öz milli haqqını qətiyyətlə qorumağı bacaran, müstəqil və cəsarətli bir dövlətdir. Azərbaycan həm də başqalarına əl tutan, kömək edən dövlətdir. Belə bir dövlətin isə ABŞ-nin hansısa yardımına ehtiyacı yoxdur.

### ABŞ-nin vasitəçilik missiyası həyata keçirməyə haqqı yoxdur

Göründüyü kimi, ABŞ Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini həzm edə bilmədiyi kimi güclü, regionda və dünyada söz sahibi olan Azərbaycan dövlətini də qəbul edə bilmir. Öz hüquqlarını qətiyyətlə təmin edən Azərbaycanın isə nə ABŞ, nə də onun konqresi qarşısında heç bir öhdəliyi yoxdur. Heç bir ölkə Azərbaycanla təzyiq dili ilə danışa bilməz və bu dəfələrlə beynəlxalq münasibətlərdə öz təsdiqini tapıb. Buna görə "907-ci düzəliş"in tətbiqi, ikitərəfli münasibətlərin əvvəlki kimi olmasının qeyri-mümkünlüyü kimi çağırışlarla Azərbaycana təzyiq göstərməyə çalışan ABŞ heç vaxt ölkəmizin maraqlarına təsir edə bilməz.

Bu cür davranışlar, Azərbaycana qarşı qərəzli və düşmən münasibət, erməni lobbisinin alətinə çevrilmək ilk növbədə ABŞ-nin özünün ziyanınadır. Çünki Azərbaycansız ABŞ-nin Cənubi Qafqaz və Mərkəzi Asiya siyasəti mümkün deyil.

Azərbaycana qarşı bu cür qərəzli və düşmən mövqeyindən sonra isə ABŞ-nin vasitəçilik missiyası həyata keçirməyə haqqı yoxdur. Məlum olduğu kimi, Azərbaycan ABŞ-nin qərəzli və düşmən mövqeyinə görə noyabrın 20-də Vaşinqtonda Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri səviyyəsində təklif olunan görüşün keçirilməsini mümkün hesab etməyib.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# ABŞ sülhü təhdid edir

"Qərb ölkələrinin, eləcə də ABŞ-nin həqiqətləri təhrif etmələri, ölkəmizə qarşı riyakar mövqe sərgiləmələri qəbuledilməzdir. Bu ikiüzlü davranışlar ATƏT-in Minsk qrupunun fəaliyyəti dövründə edilənlərin bir növ təkrarıdır. Azərbaycanın haqlı mövqeyi açıq-aşkar ortada olsa da, bəzi ölkələr nəinki bu problemin həll olunması üçün heç bir iş görmür, hətta gərginliyi artırmağa çalışırlar. Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr də bunu sübut edir".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Hikmət Məmmədov deyib. Deputat qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının üzvü olmaqla yanaşı, bu qurumun Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı qəbul etdiyi dörd qətnaməyə səs vermiş ölkə kimi ABŞ-nin əleyhimizə çıxış etməsi, tarixin arxivinə yollanmış mövzuları gündəmə gətirməsi bu ölkəyə yaraşmır: "Həm də yeni reallıqlarla uzlaşmır. Hər kəsə yaxşı məlumdur ki, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı bir coğrafi vahid artıq yoxdur. Sadəcə olaraq, ABŞ Azərbaycanın artan gücünü, suverenliyini və müstəqilliyini qəbul edə bilmir".

Deputat qeyd edib ki, Azərbaycanda Qarabağ iqtisadi rayonu var və suveren ərazisində hansı coğrafiyanın necə adlandırılması hər ölkənin daxili işidir: "Bu, ölkələrin suveren hüquqlarına aiddir, ABŞ Azərbaycanla uzun illərdir ki, əməkdaşlıq edən bir dövlət kimi həqiqətləri yaxşı bilir. Lakin bilərəkdən mövcud olmayan "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidinin gələcəyi ilə bağlı müzakirələr aparır. Bu, müstəqil bir ölkənin suverenliyinin məhdudlaşdırılmasına cəhd göstərməkdir".

Hikmət Məmmədov həmçinin bildirib ki, bəzi xarici qüvvələr erməni diasporunun əlində alətə çevrilib: "Elə ABŞ-də bu dinləmələrin keçirilməsi də bir mənada erməni lobbisinin təsiri altında baş tutub. ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda dinləmələrinə ən çox dəstək verən ABŞ-dəki erməni lobbisi olub. Nəzərə almaq lazımdır ki, tədbirin təşkilatçısı konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin bir müddət əvvəl Ermənistanın ABŞ-dəki səfiri ilə görüşüb".

Deputat vurğulayıb ki, ABŞ-nin birtərəfli mövqeyinə görə noyabrın 20-də Vaşinqtonda keçirilməsi nəzərdə tutulmuş Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşünə Azərbaycanın xarici işlər naziri getməyəcək. Çünki ABŞ qeyri-hüquqi və ədalətsiz mövqeyi ilə sülhə xidmət etmədiyini, regionda qarşıdurmanın daha da dərinləşməsinə çalışdığını bəlli edir. Lakin o da unudulmamalıdır ki, ABŞ-nin və Qərbin cəhdlərinə baxmayaraq, regionumuzda sülhün mütləq bərpa olunması üçün Azərbaycan əlindən gələni əsirgəməyəcək.

"Azərbaycanla təhdid dili ilə danışmaq qəbuledilməzdir. ABŞ anlamalıdır ki, Azərbaycan olmadan Cənubi Qafqazda hər hansısa siyasətini həyata keçirə bilməz. Ona görə də ermənilərə saxta dəstək nümayiş etdirməkdənsə, konqres ABŞ-nin günü-gündən artmaqda olan daxili problemləri ilə məşğul olmalıdır. ABŞ-də irqi ayrı-seçkilik, polis zorakılığı və s. bu kimi digər problemlər baş alıb gedir. Bütün bu haqsızlıqlara susan, Ermənistanı bircə dəfə də olsun qınamayan, BMT TŞ-nin məlum 4 qətnaməsinin icrası istiqamətində heç bir addım atmayan ABŞ indi Azərbaycana qarşı ittihamlar səsləndirə bilməz", - deyə deputat söyləyib.

Hikmət Məmmədovun sözlərinə görə, Azərbaycana diktə etmək istəyənlərin cavabı adekvat olaraq veriləcək. Biz düzgün məqam gözləyirik, əminik ki, Prezident İlham Əliyev nəyi necə və nə vaxt etməyi yaxşı bilir.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

# Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin inkişafı müzakirə edilib



Azərbaycanın mədəniyyət naziri Adil Kərimli IX Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumu çərçivəsində Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər iki ölkə arasında mədəni əlaqələrin hazırkı vəziyyətini və inkişaf perspektivlərini müzakirə ediblər.

O.Lyubimova A.Kərimlinin nazir vəzifəsində Rusiyaya ilk səfərinin ölkələrimizin mədəniyyət qurumları arasında əməkdaşlığın genişlənməsinə, növbəti illərdə daha maraqlı tədbirlərin keçirilməsinə təkan verəcəyinə əminliyini ifadə edib. O, Rusiyada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin geniş qeyd olunduğunu xüsusi vurğulayıb.

Rusiyalı nazir 2024-cü il üçün nəzərdə tutulmuş birgə mədəni tədbirlər planını hazırlamağı, gələn il isə 2024-2026-cı illər üçün tədbirlər proqramının imzalanmasını təklif edib. O.Lyubimova Azərbaycanın yaradıcı kollektivlərinin Rusiyaya səfərlərinin maraqla qarşılandığını qeyd edərək, Beynəlxalq Yeni Bədii və Sənədli Kino Festivalında, eləcə də Beynəlxalq Xəzər Kinoforumunda fəal iştiraka görə azərbaycanlı həmkarlarına təşəkkürünü bildirib.

Öz növbəsində nazir Adil Kərimli Sankt-Peterburq Mədəniyyət Forumuna dəvətə görə təşəkkürünü bildirərək deyib ki, ölkələrimiz arasında bütün sahələrdə sürətlə inkişaf edən əməkdaşlıq Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında qarşılıqlı etimada söykənən münasibətlərdən qaynaqlanır. "Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin Rusiyada geniş qeyd olunması bizim üçün çox vacibdir. Heydər Əliyevin Rusiya mədəniyyətinin də inkişafında böyük xidmətləri var", - deyə nazir vurğulayıb. A.Kərimli rusiyalı həmkarlarını Bakıda keçiriləcək Kreativ Sənaye Forumuna, eləcə də VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət edib.

Sonda nazir Adil Kərimli Olqa Lyubimovaya "Şuşa. Zirvədən uca" kitabını hədiyyə edib.

Rusiyalı nazir kitabın nazirliyin kitabxanasında özünəməxsus yer tutacağını bildirib.

Görüşdə Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu da iştirak edib.

# Qarabağda tikilən İşğal və Zəfər muzeylərinin layihələri İtaliyadakı sərgidə nümayiş olunur

Qarabağda inşa olunan İşğal və Zəfər muzeyləri komplekslərinin layihələri İtaliyada keçirilən sərgidə nümayiş etdirilir.

AZƏRTAC xəbər verir ki, İşğal və Zəfər muzeyləri kompleksləri "Art Cloud Network" (ACN) şirkəti tərəfindən layihələndirilib.

Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov və ölkəmizin Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov "Fiera di Roma" sərgi mərkəzində ACN şirkətinin stendi ilə tanış olublar.

Stenddə sərgi iştirakçılarına işğaldan azad olunmuş ərazilərimizdə tikilən İşğal və Zəfər muzeyləri komplekslərinin layihələri, videoçarxlar, fotolar, elektron sərgi və 3D elektron tur nümayiş etdirilir. Həmçinin Ağdamda tikilən İşğal və Zəfər muzeyləri kompleksinin maketi də təqdim olunur.

Qeyd edək ki, Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan və Kəlbəcər rayonlarında Zəfər və İşğal muzeyləri yaradılır.

# Bakıda Qərbi azərbaycanlıların deportasiyası ilə bağlı virtual muzeyin təqdimatı olub

Noyabrın 17-də Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə həyata keçirdiyi "Qərbi azərbaycanlıların deportasiyası və soyqırımı ilə bağlı virtual muzeyin yaradılması" layihəsinin yekun təqdimat tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev həyata keçirilən layihə, o cümlədən hazırlanan sayt və sənədli film haqqında geniş məlumat verib.

Sonra layihə çərçivəsində hazırlanan "Deportasiya - şahidlərin gözü ilə" adlı sənədli film nümayiş etdirilib.

Daha sonra virtual muzeyin "deport.az" saytının təqdimatı olub.

Bildirilib ki, layihə çərçivəsində ilkin mərhələdə deportasiyalar zamanı zərər çəkmiş və onlara canlı şahidlik etmiş 80 nəfər müsahibədə, 25 nəfər anket sorğusunda olmaqla, həmin dövrə aid foto, məzun albomları və sənədlərini təqdim edənlərlə birlikdə ümumilikdə 150-yə yaxın Qərbi azərbaycanlı virtual muzeyin formalaşmasında iştirak edib. Hazırda




muzeydə 300-dən çox foto və 200-ə yaxın sənəd toplanıb. Layihənin əsas məqsədi deportasiya siyasəti nəticəsində Qərbi azərbaycanlıların məruz qaldıqları soyqırımı və cinayətləri virtual muzey vasitəsilə beynəlxalq müstəvidə tanıtmaq, onların təsirli həyat hekayələrini yayımlayaraq yaşadıqları acıları göstərməkdir. Həmçinin bu cinayətlərin beynəlxalq səviyyədə ictimailəşdirilməsi həmin insanların hüquqlarının bərpasına dair əsasları gücləndirəcək. Növbəti hədəf isə daha çox iştirakçının müsahibələrə cəlb olunması, toplanan materialların sayının artırılması və digər virtual muzeylərlə qarşılıqlı əlaqələrin qurulmasıdır.

Tədbirdə çıxış edən Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva bildirib ki, qalib ölkənin qalib vətəndaşları kimi qarşımızda yeni hədəflər var. Bu hədəflərə çatmaq üçün mühüm işlər görülür, məhsuldar layihələr icra olunur. Belə layihələrin ərsəyə gəlməsi çox vacib və əhəmiyyətlidir. Bu gün təqdimatı keçirilən layihə tarixi baxımdan mühüm əhəmiyyət kəsb edir, son yüzillik tarixdə milli qürurumuzun qayıdışını qeyd edirik və elə bu layihənin təqdimat mərasimi də Zəfər günləri ərəfəsinə təsadüf edir.

Sonra Milli Məclisin deputatı Musa Quliyev layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürlərini ifadə edib. Diqqətə çatdırıb ki, bu layihə tariximiz, millətimiz, Vətənimiz qarşısında ümumi işimiz, ümumi mübarizəmizdir.

Daha sonra Milli Məclisin deputatı Ceyhun Məmmədov layihənin önəmindən danışaraq, belə tədbirlərin davamlı olmasının və Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə tanıdılmasının vacibliyini xüsusi vurğulayıb. Qeyd edilib ki, qarşıda duran əsas məsələlərdən biri bu təbliğatı gücləndirmək, bu mövzuda kitabların, yeni nəşrlərin ərsəyə gəlməsini təmin etməkdir.

Təqdimatda çıxış edən Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının üzvü Əfqan Vəliyev tarixi faktlara əsaslanan məlumatları mərasim iştirakçıları ilə bölüşüb.

Tədbir müzakirələrlə davam edib.

# Azərbaycan İlahiyyat İnstitutunda elmi seminar keçirilib



Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) Rəcəb Tayyib Ərdoğan Universitetinin keçmiş rektoru, Yüksek Öğretim Kurulunun (YÖK) üzvü, professor Hüseyn Karaman "Fuat Sezgin və müsəlmanların elmə töhfələri" mövzusunda məruzə ilə çıxış edib.

Tədbirdə Türkiyənin Azərbaycandakı səfirliyinin mədəniyyət, turizm və təbliğat işləri üzrə müşaviri professor Muhittin Macid və qurumun din işləri üzrə müşaviri İhsan Açık, Aİİ-nin rəhbər heyəti və tələbələri iştirak ediblər.

Aİİ rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edərək, qonağı ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu diqqətə çatdırıb. Tədbirin əhəmiyyətinə toxunan A.Şirinov bildirib ki, islam dünyası bugünədək ixtiraları ilə elm dünyasına işıq salmağı bacaran, elm tarixində iz qoyan görkəmli mütəfəkkirlər yetişdirib ki, belə alimlərindən biri də Fuat Sezgindir.

Professor Hüseyn Karaman islam dininin elmə verdiyi önəmdən söhbət açaraq, müsəlman alimlərin dünyaya bəxş etdikləri töhfələrdən bəhs edib. Professor Fuat Sezginin həyatı, islam mədəniyyətinə və dünya elminə mühüm xidmətləri haqqında geniş söhbət açıb.

Hüseyn Karaman qeyd edib ki, islam elm adamlarının tanınmış simalarından biri olan Fuat Sezginin vəfatından sonra, 2019-cu ildə Türkiyə Respublikasında "Fuat Sezgin İli" elan olunub.

Türkiyənin Azərbaycandakı Səfirliyinin müşavirləri Muhittin Macid və İhsan Açık görkəmli elm xadimi Fuat Sezgin haqqında danışaraq, belə alimlərin islam mədəniyyətinə böyük töhfələr verdiyini, onların xalqlarımız arasında elm və dostluq körpüsü yaratdığını bildiriblər.

***"Azərbaycan"***

# ADMİU-nun 100 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konfrans






Noyabrın 17-də Azərbaycan Milli Kitabxanasında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) 100 illik yubileyi münasibəti ilə "Azərbaycan sənətşünaslığı Şərq-Qərb dialoqu kontekstində" mövzusunda Beynəlxalq elmi-praktiki konfrans keçirilib.




Azərbaycan Respublikasının Dövlət Himni ilə başlanan konfransda ölkəmizin suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin ruhu birdəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyinin qeyd edilməsi haqqında 2023-cü il 6 iyul tarixli 3954 nömrəli Sərəncamına əsasən keçirilən konfransda 8 ölkəni təmsil edən 50-dən çox nümayəndə iştirak edib. Konfransın plenar iclasında ADMİU-nun rektoru professor Ceyran Mahmudova çıxış edərək qonaqları salamlayıb, bu ilin rəhbərlik etdiyi ali təhsil ocağı üçün əhəmiyyətindən danışıb. ADMİU-nun 100 illik yubileyi ilə bağlı dövlət başçısı tərəfindən imzalanmış sərəncamın bütün kollektivi sevindirdiyini deyən rektor, həm də əlavə məsuliyyət olduğunu da qeyd edib. Həm Ümummilli Lider Heydər Əliyevin anadan olmasının, həm də ölkənin ilk yaradıcı təhsilli ali məktəbi olan Mədəniyyət və İncəsənət Universitetinin yaranmasının 100 illiyi ilə bağlı universitetin cari il boyunca böyük tədbirlər, konfranslar, dəyirmi masalar və konsert proqramları keçirdiyini deyən C.Mahmudova ilin sonuna qədər bu tədbirlərin davam edəcəyini vurğulayıb.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin nümayəndəsi Afət Sadıqova çıxış edərək ADMİU-nun Azərbaycan mədəniyyətinin və təhsilinin inkişafındakı rolundan danışıb, kollektivi 100 illik yubiley münasibəti ilə təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Şimali Kipr Türk Respublikasının dövlət xadimi Serdar Tekdaş, Urgənc Dövlət Pedaqoji Universitetinin rektoru Madrahimova Firuzə, Ege Universitetinin professorları Füsun Topsumerov, Aylin Göztaş, Uludağ Universitetinin professoru Mehmet Yüce, türkiyəli araşdırmaçı Baha Ahmet Yılmaz və başqaları çıxış edərək ADMİU-nun 100 illik yubileyini təbrik edib, Azərbaycanın öncül yaradıcıyönümlü ali təhsil ocağı ilə dostluq münasibətlərindən məmnunluqlarını dilə gətiriblər.

Çıxışçılar rektor Ceyran Mahmudovaya öz ölkələrinin milli atributlarını əks etdirən xatirə hədiyyələri təqdim ediblər.

Plenar iclasda çıxış edən Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət işçisi, professor Kərim Tahirov kollektivi yubiley münasibəti ilə təbrik edib və belə önəmli konfransa evsahibliyi etməkdən qürur duyduqlarını bildirib. K.Tahirov bu il həmçinin Milli Kitabxananın da 100 illik yubileyinin qeyd edildiyini diqqətə çatdırıb və cənab Prezidentin həm ADMİU, həm də Milli Kitabxananın 100 illik yubileylərinin qeyd edilməsi ilə bağlı sərəncamlar imzalamasını mədəniyyətə, sənətə, ədəbiyyata, kitaba olan qayğının daha bir təzahürü kimi dəyərləndirib.

K.Tahirov da çıxışının sonunda C.Mahmudovaya və ADMİU-nun kitabxanasına bir-birindən dəyərli nəşrlər hədiyyə edib.

Plenar iclas Azərbaycanın və Özbəkistanın Xalq artisti, ADMİU-nun "Muğam sənəti" kafedrasının baş müəllimi Gülyanaq Məmmədovanın ifaları ilə yekunlaşıb.

Daha sonra konfrans öz işini Sənətşünaslıq, Təsviri sənət, Musiqi sənəti, Kinoşünaslıq, teatrşünaslıq mövzulu bölmə iclasları ilə davam etdirib.

# "Avropa İnsan Hüquqları Konvensiyası və Azərbaycan: nailiyyətlər və perspektivlər"

Noyabrın 17-də Bakıda "Avropa İnsan Hüquqları Konvensiyası və Azərbaycan: nailiyyətlər və perspektivlər" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfrans Avropa İnsan Hüquqları Konvensiyasının qüvvəyə minməsinin 70 illiyinə həsr olunub.

AZƏRTAC xəbər verir ki, konfransın açılışında çıxış edən Ədliyyə Nazirliyi İnsan hüquqları və kommunikasiya idarəsinin rəisi Aynur Sabitova Azərbaycanda insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi sahəsində səmərəli təminat mexanizmlərinin yaradılmasının daim diqqət mərkəzində olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra insan hüquqlarının təminatı dövlətimizin ali məqsədi kimi bəyan edilib, ilk milli Konstitusiyamızın üçdəbir hissəsi məhz insan hüquq və azadlıqlarına həsr olunub. Azərbaycanda ölüm cəzasının ləğv edilməsi, humanist ideyaların davamlı təşviqi və tətbiqi, insan hüquqlarına dair fundamental sənədlərin qəbulu, Ombudsman institutunun yaradılması, milli fəaliyyət planlarının qəbul olunaraq davamlı həyata keçirilməsi dövlətimizin insan hüquqlarına, onun etibarlı təminatına nə dərəcədə ciddi münasibət bəslədiyini göstərir.

Eyni zamanda ölkəmizin bu sahədə mühüm əhəmiyyət kəsb edən bir sıra beynəlxalq sənədlərə, o cümlədən İnsan hüquqları üzrə Avropa Konvensiyasına qoşulması universal normaların real həyata keçirilməsinə geniş imkan yaradıb.

"2001-ci ildən Avropa Şurasına üzv olan Azərbaycanda Avropa konvensiyasının, Avropa Məhkəməsinin presedentlərinin öyrənilməsinə və tətbiqinə daim xüsusi önəm verilir. Həmin məqsədlə tanınmış mütəxəssislərin iştirakı ilə müxtəlif tədris tədbirləri, konvensiyanın tətbiqi problemləri ilə bağlı təlimlər təşkil olunur, Avropa Şurası ilə birgə Ədliyyə Akademiyası tərəfindən xüsusi layihələr təşviq edilir, bu sahədə aktual mövzular akademiyanın təlim proqramlarına daxil edilərək mütəmadi tədris olunur. Yeri gəlmişkən, bu yaxınlarda Hüquq və İnsan Haqları İnstitutu tərəfindən Avropa Şurasının dəstəyi ilə "Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü və 6-cı maddələri üzrə hüquqşünaslar üçün təlimlərin həyata keçirilməsi" layihəsi çərçivəsində ədliyyə işçilərinə həm Bakıda, həm bölgələrdə çox maraqlı təlimlər keçirilib", - deyə A.Sabitova qeyd edib.

Avropa Şurasının Azərbaycan Respublikasındakı ofisinin rəhbəri Petr Zix Avropa İnsan Hüquqları Məhkəməsinin 2022-ci ilə qədər 25 min 674 qərar çıxardığını diqqətə çatdırıb. Onun sözlərinə görə, 2023-cü ilin iyun ayına qədər 25 min 34 qərar və dostyana həll yolu icra edilib.

"Həmin qərarlar müxtəlif qanunvericilik aktlarında dəyişikliklərə səbəb olub. Avropa İttifaqına üzv olan ölkələrdə insanlar Avropa İnsan Hüquqları Konvensiyasının qoruması altına düşüblər. Bəzi hallarda vətəndaşlar başa düşməyiblər ki, onların hüquqlarının mühafizəsində təkmilləşmələr baş verib", - deyə P.Zix bildirib.

O vurğulayıb ki, 2023-cü ilin mayında İslandiyanın paytaxtı Reykyavikdə keçirilən Avropa Şurası Sammitində Avropa Məhkəməsinin qərarlarının milli səviyyədə icrasının əksər hallarda o qədər də qənaətbəxş olmadığı vurğulanıb. Buna görə də Avropa Şurası ölkələr üzrə xüsusi uyğunlaşdırılmış yanaşma həyata keçirir, qərarların icrası ilə bağlı danışıqlar aparır. Avropa Şurasının Bakı ofisi də prosesdə yaxından iştirak edir.

Azərbaycanın Avropa Şurasına 2001-ci ildən etibarən üzv olduğunu deyən P.Zix həmin vaxtdan etibarən ölkəmizin Avropa İnsan Hüquqları Konvensiyasına, ümumilikdə isə 70-dən artıq Avropa Şurası konvensiya və sazişlərinə qoşulduğunu bildirib: "Azərbaycanın məhkəmə hakimiyyəti həmin sazişləri uğurla tətbiq edir. Bu günə qədər Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycandan 2 minə qədər müraciət alıb, 300 qərar icra edilib. Qərarların icrası istiqamətində Azərbaycanda müsbət tendensiyalar müşahidə olunur. Həll olunmuş işlərin sayında irəliləyişlər var. Hazırda Azərbaycanda "Avropa qərarlarının icrasının təkmilləşdirilməsinə dəstək" layihəsi icra olunur. Burada məhkəmə sahəsində fəaliyyətin təkmilləşdirilməsi tələb edilir. Sevindiricidir ki, Azərbaycanla çox müsbət əməkdaşlıq təcrübəsi həyata keçiririk".

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyev insan hüquqlarının müdafiəsi sahəsində ən mühüm amillərdən birinin insan hüquqlarının tədrisi məsələsi olduğunu deyib. O, bu baxımdan BMT-nin İnsan hüquqları üzrə təhsil və təlim Bəyannaməsinin, həmçinin Bolonya bəyannaməsinin və digər vacib prinsiplərin əsas tutulduğunu söyləyib.

"Hüquq fakültəsində Avropa İnsan Hüquqları Konvensiyasına çox böyük önəm verilir. Konvensiya tədris proqramlarına daxil edilib. Həmçinin hüquq fakültəsində bakalavr və magistratura pilləsində xüsusi fənlər tədris olunur", - deyə fakültə dekanı qeyd edib.

Tədbir məruzə və təqdimatlarla davam edib. Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynovun "İnsan hüquqlarının və azadlıqlarının müdafiəsində Avropa İnsan Hüquqları Məhkəməsinin rolu", Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərovun "Avropa İnsan Hüquqları Məhkəməsi və Azərbaycan", Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayevin "Avropa İnsan Hüquqları Konvensiyasının konstitusiya ədalət mühakiməsinə təsiri", Milli Məclisin deputatı Bəhruz Məhərrəmovun "Azərbaycanın Avropa hüquq məkanına inteqrasiyasında Ulu Öndərin rolu", Milli Məclisin deputatı, AŞPA İnsan Hüquqları Alt komitəsinin sədri Kamal Cəfərovun "Avropa Şurası Parlament Assambleyası və Azərbaycan", Avropa İnsan Hüquqları Məhkəməsi Katibliyinin baş hüquqşünası Xaqani Quliyevin "Avropa İnsan Hüquqları Konvensiyasının beynəlxalq hüquqda yeri", Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədr müavini Şahmar Məmmədovun "Avropa İnsan Hüquqları Konvensiyasının təşviqində Vəkillər Kollegiyasının rolu", Mediasiya Şurası İdarə heyətinin sədri Nadir Adilovun "Keyfiyyətli hüquq xidmətlərinin təmin edilməsində mediasiyanın unikal yeri və rolu", Bakı Dövlət Universiteti Hüquq fakültəsinin IV kurs tələbəsi Səyad Ələkbərovun Hüquq fakültəsinin "Tələbədən tələbəyə" layihəsi çərçivəsində Avropa İnsan Hüquqları Konvensiyasının tədrisi mövzularında çıxışları dinlənilib, müzakirələr aparılıb.

# Azərbaycan sülh deyir, ABŞ isə hərb

"Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik..."




Bu il sentyabrın 20-də Prezident İlham Əliyevin xalqa müraciətində qətiyyətlə xəbərdarlıq etdiyi kimi, bəzi riyakar, ikili standartlar yürüdən ölkələr təcavüzkar Ermənistana hərtərəfli siyasi, hərbi dəstək verərək, ümumilikdə bölgəni müharibə təhlükəsi altında qoyublar.

ABŞ, eyni zamanda başda Fransa olmaqla bəzi Qərbi Avropa ölkələri Azərbaycanın torpaqlarını işğaldan azad etməsini, suverenliyini təmin etməsini heç cür qəbul etmək istəmir, İrəvanı silahlandıraraq yenidən Cənubi Qafqazda savaşa, qanqadaya yol açırlar.

Onilliklər boyu Azərbaycanın işğalla üz-üzə qalmasına göz yuman, regiondakı nə işğaldan əvvəlki, nə də sonrakı gerçəklikləri nəzərə almayan məkrli Qərb sülh adı altında savaş planları cızır, beynəlxalq hüququ ayaqlar altına atır.

Azərbaycanın keçmiş işğal olunmuş ərazilərindən köçkün düşmüş və Ermənistandan zor gücü ilə deportasiya olunmuş qaçqınların vəziyyəti ilə heç zaman maraqlanmayan bu "humanist" ölkələr indi "erməni problemləri"nin müdafiəçisi roluna girərək zorla özlərini bölgəyə pərçim etmək istəyirlər.

## Konqresdə gülünc müzakirə

Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr də Vaşinqtonun regionda sülhə qarşı çıxdığını bir daha nümayiş etdirdi.

Hazırda dünyada baş verən müharibələrin, saysız insan itkilərinin qarşısının alınması istiqamətində heç bir iş görməyən, ağızlarına su alıb oturan konqresmenlərin Azərbaycan ərazisi barədə erməni ağzı ilə yalanlar, böhtanlar səsləndirmələrinin özü insan haqlarına həqarətdir.

Rüşvətxor, erməni lobbisinin pulunun hərisinə çevrilən bu siyasi işbazlar hələ də qəbul etmək istəmirlər ki, artıq dünya xəritəsində nə "Dağlıq Qarabağ" adlı bir ərazi vahidi mövcuddur, nə də onun hansısa gələcəyi var.

ABŞ Qarabağ münaqişəsinin nizamlanması prosesində vasitəçi kimi 27 il ərzində tərəflərin sülhə gəlməsi üçün heç bir iş görməyib. Əksinə, Vaşinqtonun ötən müddətdə təcavüzkar Ermənistana dəstək verməsinə, Azərbaycana qarşı ikili münasibət sərgiləməsinə şahid olmuşuq.

İndi isə özünü "demokratiya beşiyi" adlandıran ABŞ ölkəmizə qarşı açıq şantaja, təhdidə keçib.

Nədən ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini öz gücü ilə yerinə yetirib, suverenliyini bərpa edib, ərazisində onilliklər boyu kök salmış separatizmin yuvasını dağıdıb. Ölkəmizi könüllü tərk etmək istəyən erməni sakinlərə hər cür şərait yaradıb. Qarabağ iqtisadi zonasında qalaraq Azərbaycan qanunları ilə yaşamağa razı olan erməniəsilli sakinlərə ləyaqətli və təhlükəsiz həyat şəraiti yaradıb.

Nəhayət, Cənubi Qafqazda müharibə bitib, iki ölkə arasında normallaşmaya nail olunması üçün real zəmin yaranıb.

## Vaşinqton riyakarlığını davam etdirir

Lakin bütün bu gerçəkliklər erməni lobbisinin oyuncağına çevrilən Qərbi qane etmir. Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında dinləmələrin keçirilməsinə ən çox dəstək verən də ABŞ-dəki erməni lobbisidi.

Nə təsadüfdür ki, tədbirin təşkilatçısı konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin bundan əvvəl Ermənistanın ABŞ-dəki səfiri Lilit Makuns ilə görüşüb.

Ancaq bu ikili standartların, gülünc dinləmələrin ölkəmiz üçün zərrə qədər də əhəmiyyəti yoxdur. Çünki Azərbaycan nə ABŞ, nə də onun konqresi qarşısında heç bir öhdəliyə malik deyil.

Sözügedən tarixdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn Xarici İşlər Komitəsində keçirilən dinləmədə deyib ki, ABŞ Ermənistan-Azərbaycan sülh danışıqlarında inkişaf görənədək Azərbaycana birbaşa yardımları qadağan edən "907-ci düzəliş"dən imtinanın müddətini uzatmayacaq.

"Demokratik" ABŞ Azərbaycanı hədələdiyi bədnam "907-ci düzəliş"i 1992-ci ildə qəbul edib. "Azadlığı Müdafiə Aktı" adlı qanunun 907-ci bölməsinə düzəlişə əsasən, ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərməsi qadağan olunub.

Torpağından zorla didərgin salınan bir milyondan çox azərbaycanlının taleyinə ABŞ biganəlik göstərərək etdiyi bu düzəlişlə, həm də "insanpərvər"liyini sərgiləmişdi.

Vaşinqton bu riyakar əməlindən hələ də əl götürməyib və illər əvvəl xalqımıza, ölkəmizə qarşı etdiyi ikiüzlülüyünü hazırda da davam etdirir.

Azərbaycan Xarici İşlər Nazirliyi bildirib ki, Ceyms O'Braynın dinləmələrdə səsləndirdiyi birtərəfli və qərəzli fikirlər səmərəsiz, əsassız və qəbuledilməzdir: "Dinləmələri və səsləndirilən çıxışları Azərbaycan və ABŞ arasında ikitərəfli və çoxtərəfli formatlarda münasibətlərə zərbə kimi qiymətləndiririk. Azərbaycana qarşı səslənən ittihamlar əsassız olmaqla yanaşı, regionda sülh və təhlükəsizliyi sarsıdır".

Şərhdə deyilir ki, region ölkəsi olmayan ABŞ öz addımları və bəyanatları ilə bölgə ölkələrinin nəqliyyat təhlükəsizliyi səylərinə zərbə vurur: "Ceyms O'Braynın "907-ci düzəliş"in icrasının müvəqqəti dayandırılması məsələsi ilə bağlı şərhinə gəlincə isə belə görünür ki, ABŞ tərəfi 1992-ci ildə təcavüzə və işğala məruz qalmış dövlət olmasına baxmayaraq, bu düzəlişlə sanksiyaya məruz qalan Azərbaycana qarşı etdiyi səhvi yenidən təkrarlayır".

## Azərbaycan öz milli maraqlarını təmin edib

Yürütdüyü işğalçılıq siyasəti sayəsində dirəndiyi dalandan, düşdüyü hərtərəfli böhrandan çıxmaq üçün sülh məhz Ermənistana vacibdir.

Lakin regionda ssenarinin sülhə doğru irəliləməsini istəməyən ikili standartlı ABŞ və Fransa marionet ölkə Ermənistanı yeni müharibəyə qızışdırır, bir sözlə, bölgədə müharibə istəyirlər.

Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq torpaqlarını işğaldan azad edib, suverenliyini təmin edərək, bayrağını bütün ərazilərində dalğalandırıb. Bundan sonra da ölkəmiz milli maraqlarına təhdid olan bütün güclərə qarşı qətiyyətlə mübarizə aparacaq və məkrli qüvvələri layiqincə yerinə otuzduracaq. Necə ki bu barədə sentyabrın 20-də qalib lider İlham Əliyev xəbərdarlıq mesajını verib: "Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın!"

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Antiazərbaycançı şəbəkənin bütün çirkin kampaniyaları iflasa məhkumdur

İkinci Qarabağ müharibəsindəki zəfərimiz və birgünlük antiterror tədbirləri ilə suverenliyimizin tam təmin olunması Qərb dairələrini çox narahat edib. Artıq son zamanlarda bu qısqanclıq hissləri özünü daha qabarıq şəkildə göstərir. Qəribədir ki, Fransa və ABŞ kimi dövlətlər Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmamasında ölkəmizi günahlandırmağa başlayıblar. Ancaq dünya şahiddir ki, 3 ildir Ermənistan sülh danışıqlarında Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, əməldə bunun əksinə gedərək sülhə yaxın gəlmir. Azərbaycan qalib kimi sülhə hazır olduğunu isə dəfələrlə bəyan edib.



Lakin Qərb dairələri hər zamankı kimi Ermənistana havadarlıq edir və məğlub ölkəni silahlandıraraq Cənubi Qafqazda yenidən savaş açmaq istəyirlər.

Azərbaycan xalqının haqlı narazılığına səbəb olan bu məsələ ilə bağlı qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Anar İsgəndərov deyib ki, Qərb dövlətləri heç zaman ölkəmizin haqqını müdafiə etməyiblər. Qərbin marağında tarix boyu erməni lobbisi olub: "Təəssüflər olsun ki, ABŞ, Almaniya, Fransa otuz il Azərbaycan torpaqları işğala məruz qalanda nə hökumət, nə dövlət başçısı, nə də xarici işlər nazirləri, Nümayəndələr Palatası, Senat səviyyəsində bir dəfə olsun belə, işğala məruz qalanın Azərbaycan, işğalçının Ermənistan olduğunu deyiblər".

Deputatın sözlərinə görə, Qərbin bəzi ölkələri ermənilərin Azərbaycanın yüzlərlə dini, tarixi, mədəniyyət abidəsini məhv etdiklərini dilə gətirməyiblər: "Həmin ölkələr bir dəfə olsun dilə gətirmədilər ki, abidələri məhv edilən Azərbaycan xalqının günahı nədir? Nə üçün xalq otuz ildən artıq bu müsibətləri görür, evləri yandırılır, məhv edilir, əmlakları əlindən alınır, faciələr yaşayır".

Deputat qeyd edib ki, 44 günlük Vətən müharibəsində Azərbaycan öz torpaqlarını azad edərkən bəzi Avropa ölkələri əndişəyə düşüb ölkəmizə qarşı əllərindən gələn təzyiqləri göstərməyə çalışıblar. "Amma dövlət başçımız, Azərbaycan xalqı bu təhdidləri, təzyiqləri qətiyyətlə dəf etdi. Bu gün erməni lobbisi guya Ermənistanın haqqını müdafiə edir, Azərbaycana qarşı qanunlar qəbul etmək istəyir. Ancaq bir soruşan lazımdır: Azərbaycan ərazisindən ermənilər gedərkən biri döyülübmü, əmlakı əlindən alınıbmı, bir erməniyə təzyiq göstərilibmi? Yox. Bəs Qərbin bu əndişəsi nədən ibarətdir? Qərb heç zaman Azərbaycanı, Türkiyə Cümhuriyyətini sevməyib. Türkiyə və Azərbaycan arasında dostluq, qardaşlıq, ən nəhayət, müttəfiqlik həm bəzi Qərb dairələrini qıcıqlandırır, həm Ermənistanı narahat edir.

A.İsgəndərov vurğulayıb ki, Qərb bu gün Azərbaycanla bağlı qarayaxmalarla məşğuldur. Amma ölkəmizə qarşı hansısa təzyiqlər həyata keçirilirsə keçirilsin, onların nə təzyiqi, nə təhdidi Azərbaycanı çəkindirə bilməz. Xalq "dəmir yumruq" kimi birləşib öz torpağını azad edib və qonşu dövlətin torpağında da gözü yoxdur. Haqq, ədalət Azərbaycanın yanındadır, amma Qərb bunu görə və eşidə bilmir: "Biz Qərbə inanıb, irəliyə getmirik. Biz özümüzə, uğurumuza, dövlətimizə inanırıq. Prezident İlham Əliyev Azərbaycanın haqqını müdafiə etmək üçün öz xalqına inanır. Xalq öz dövlət başçısına inanır".

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*

# Heç bir ölkə Azərbaycana iradəsini zorla qəbul etdirə bilməz



Son vaxtlar Ermənistanın əli ilə Cənubi Qafqaza girib korporativ maraqlarını təmin etmək istəyən dövlətlərin daha da fəallaşması müşahidə edilir. Əvvəllər Azərbaycan-Ermənistan sülh danışıqları prosesinə Fransa mane olmaq məqsədilə katalizatorluq edirdi. Lakin Parisin Azərbaycana etdiyi təzyiqlərin bir nəticə vermədiyini görən ABŞ da bu prosesə qoşularaq ölkəmizə qarşı təzyiq dili ilə danışmaq niyyətinə düşdü.

2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra müəyyən qədər özünü pərdələyən ABŞ Azərbaycanın 2023-cü ilin 19-20 sentyabrında Qarabağda həyata keçirdiyi lokal xarakterli antiteror tədbirlərindən sonra loyallığını qoruyub saxlaya bilmədi. Ölkəmizə qarşı illərdən bəri davam etdirdiyi gizli oyunu daha sərt formada üzə çıxardı. Azərbaycana qarşı "təzyiqləri" gücləndirmək niyyətində olduğunu nümayişkaranə şəkildə ortalığa qoydu. Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələr, çərşənbə günü ABŞ Dövlət Departamentinin diplomatı, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi C.O'Braynın konqresdəki dinləmələrdə çıxışı və Azərbaycan haqqında qərəzli mövqe sərgiləməsi bunu bir daha təsdiqlədi.

Ceyms O'Brayn çıxışında Ermənistanla Azərbaycan arasında sülh sazişi əldə edilməyənədək Azərbaycanla münasibətlərin əvvəlki səviyyədə olmayacağını bildirib. Amerikalı diplomat Azərbaycanın sentyabrın 19-da Qarabağda keçirdiyi antiterror tədbirlərindən sonra ABŞ-nin Azərbaycana hərbi yardımı dayandırdığını və bir neçə yüksəksəviyyəli görüşləri ləğv etdiyini qeyd edib.

ABŞ rəsmiləri sülh sazişinin imzalanmasını ləngidən tərəfin onların müdafiə etdiyi, maliyyələşdirdiyi və silahlandırdığı Ermənistan olduğunu bilməmiş deyillər. Bəs onda günün günorta çağında əllərində şam amerikanları "sülh" axtarmağa vadar edən səbəb nədir?

Heç kimə sirr deyil ki, bu gün dünyanın müxtəlif bölgələrində baş verən siyasi kataklizmlərin, müharibələrin, çevrilişlərin, dünyanın bir sıra dövlətlərində baş verən vətəndaş müharibələrinin ssenariləri Amerikada hazırlanıb bu ölkənin xüsusi xidmət orqanları və onlara satılmış agentura şəbəkəsi tərəfindən həyata keçirilir.

20 il Əfqanıstanı işğal altında saxlayan ABŞ-nin bu ölkəyə göstərdiyi xidmət oranı narkotik plantasiyasına çevirməsi oldu. Dünyaya "sülh, demokratiya" ixrac edən ABŞ Əfqanıstanı tərk etdikdən sonra bu ölkədə narkotik plantasiyalarının həcmi 20 dəfədən çox azalıb.

Liviyada, Suriyada, İraqda yaradılmış "cəhənnəm tabloları"nın da müəllifinin ABŞ olduğunu bilməyən az adam tapılar. ABŞ-nin Latın Amerikasında, Afrika qitəsində törətdiyi cinayətlərdən bütün dünyanın xəbəri var... Bu gün Qəzzada baş verən, ölüm saçan dəhşətlərin ssenarisi də Amerikada hazırlanıb.

Rusiya-Ukrayna qarşıdurmasını alovlandıran və bu alovu hər gün körükləyən, sönməyə qoymayan da məhz özünü "sülh carçısı" kimi təqdim etməyə çalışan Amerikadır. Gəlin bir anlığa Ukraynanın düşdüyü vəziyyətə nəzər salaq. Amerikanın vədlərinə uyub, milyonlarla insanın ölümünə səbəb olan bu qanlı müharibə ölkəni bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoyub.

Bütün bunları gördüyümüz və bildiyimiz halda ABŞ Azərbaycana hansı haqla müdaxilə etmək istəyir? Nəyə görə bu ölkə heç kimin çətirinin altına girməyən müstəqil, suveren Azərbaycan dövlətini qəbul edə bilmir.

Konqresdə keçirilən dinləmələrdə ABŞ diplomatları deyiblər ki, sentyabrın 19-da Qarabağda keçirilən antiterror tədbirlərindən sonra, demək olar ki, bütün etnik ermənilər - 100 mindən çox adam ərazini tərk edərək Ermənistana sığınıb...

30 illik Qarabağ münaqişəsi dövründə vasitəçilik missiyası ilə məşğul olan amerikalı diplomatlar bilməmiş deyillər ki, münaqişəni başlayan da, Azərbaycan torpaqlarını onilliklərlə işğal altında saxlayan da Ermənistan olub. Bu müddətdə Ermənistan işğal etdiyi ərazilərdə bütün infrastrukturu dağıdıb, azərbaycanlılara aid yaşayış yerlərini tamamilə xarabazara çevirib, işğal etdikləri ərazilərdə azərbaycanlılara aid tarixi mədəni irsi məhv ediblər. Bu azmış kimi azərbaycanlılara aid qəbiristanlıqlarda belə soyğunçuluq, qarət məqsədilə vandalizim törədiblər.

Bu gün Amerikalı diplomatların Xankəndidə yaşayıb Ermənistanın baş nazirinin çağırışı və separatçı rejimin rəhbərlərinin, silahlı quldur dəstələrinin başçılarının təklifi və təzyiqi ilə Ermənistana könüllü köç etmiş etnik erməni adlandırdıqları əhalinin əksəriyyəti bu illər ərzində azərbaycanlılara qarşı qanlı cinayətlərdə bu və ya digər formada iştirak etmiş, separatizmi dəstəkləmiş insanlardır. Özü də onların böyük əksəriyyəti Ermənistanın Qarabağda qanunsuz məskunlaşdırdığı dünyanın müxtəlif yerlərindən gələnlərdir.

"Səxavətli" ABŞ-nin Qarabağdan Ermənistana "sığınan"lara 11,5 milyon dollar yardımından əlavə, daha 6 milyon dollar məbləğində əlavə yardım edəcəyi bildirilir. Halbuki bir milyondan çox azərbaycanlını Ermənistan öz doğma yurdundan didərgin salanda Amerika bu dəhşətli faktı görməzdən gəlmişdi? Azərbaycanlı məcburi köçkünlərə qarşı belə davranmamışdı. Bu azmış kimi, torpaqları işğal olunan, təcavüzə məruz qalan Azərbaycana qarşı birbaşa yardımları qadağan edən, "907-ci düzəliş" kimi tanınan qanun tətbiq edilmişdir.

Nədir bu ayrı-seçkiliyin səbəbi? Xristian təəssübkeşliyi, yoxsa Ermənistanın müticəsinə, darmacalda Qərbin Amerikanın maraqlarına xidmət etməsi?

Bu gün, Ukrayna-Rusiya müharibəsində üz-üzə gələn Qərb, ABŞ hər zaman xəyanətə hazır olan Ermənistanı öz tərəfinə çəkə bilib. ABŞ-nin Cənubi Qafqaza girmək niyyəti heç də sirr deyil. Rusiyanın Cənubi Qafqazdan sıxışdırılması üçün də ən yaxşı vasitə hər zaman xəyanətə hazır olan Ermənistandan bu ölkəyə qarşı istifadə etməkdir. Ermənistanın Qərbin və ABŞ-nin əlində Rusiyaya qarşı bir istifadə vasitəsinə çevrildiyini görməmək sadəlövhlük olar. Bu dəqiqə amerikalı siyasilərin başlıca vəzifəsi Qərbin və Amerikanın maliyyə dəstəyi ilə hakimiyyətə gələn Nikol Paşinyandan maksimum dərəcədə istifadə etməkdir. Elə erməni baş nazirinə göstərilən xüsusi qayğının da məqsədi ona motivasiya verməkdir. Amma ABŞ rəsmiləri anlamalıdırlar ki, Azərbaycan olmadan nə Cənubi Qafqazda, nə də Mərkəzi Asiyada onların siyasəti olmayacaq.

Konqresdə keçirilən dinləmələrdə ABŞ rəsmiləri bildiriblər ki, ABŞ-də Azərbaycana birbaşa yardımları qadağan edən, "907-ci düzəliş" kimi tanınan qanunun tətbiqini dayandıran qərarın müddətini uzatmayacaqlar. Olsun! Unutmaq lazım deyil ki, ABŞ 1991-ci ildən 2001-ci ilə qədər Azərbaycana heç bir hərbi yardım etməyib.

Regionda sülhə-sabitliyə töhfə vermək istəyən və bu arzuda olan dövlətlər Azərbaycanla şərtlə, hədə-qorxu dili ilə danışmamalı, müstəqil Azərbaycanın siyasətinə zorla təsir etmək həvəsinə düşməməlidirlər. Azərbaycanın tələbi olduqca sadə və başadüşüləndir: sülh danışıqlarında vasitəçilik etmək istəyən dövlətlər Qarabağın Azərbaycanın ərazisi olduğunu birmənalı olaraq qəbul etməlidirlər. Danışıqlarında kimin vasitəçi olacağını Azərbaycan özü müəyyən edir. Kimsə buna qarşı çıxa bilməz.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Hayastanın dövlət borcu 12 milyard dolları ötəcək

## Məğlub ölkənin iqtisadi çöküşü gələn il daha sürətli xarakter alacaq

Postmüharibə dönəmində sosial-iqtisadi sahədə daha böyük problemlərə düçar olan, Azərbaycanla sülh müqaviləsinin imzalanmasını hər vəchlə uzadan Hayastanda vəziyyətin getdikcə daha da gərginləşməsi müşahidə olunur. Müharibədəki məğlubiyyətdən sonra bu ölkədə qeyd olunan istiqamətlər üzrə müsbətə doğru dəyişən nəsə yoxdur. Əksinə, məğlub ölkənin çöküşünün daha sürətli xarakter alacağı proqnozlaşdırılır.



Bunu Hayastanın gələn il dövlət büdcəsindən də görmək olar. Gələn il üçün nəzərdə tutulan layihədə büdcənin xərcləri 3,108 trilyon dram (7,75 milyard dollar), gəliri 2,767 trilyon dram (6,9 milyard dollar), kəsiri isə 341,1 milyard dram (853,3 milyon dollar) olaraq hesablanıb.

Hakimiyyətə gəlməzdən əvvəl borclara qəti şəkildə qarşı çıxan və ya ən azı bunu belə təqdim edən Nikol Paşinyan Hayastanın dövlət borcunun yükünü durmadan artırıb. 2024-cü il dövlət büdcəsinin müzakirəsi zamanı Hayastan Mərkəzi Bankının sədri Martin Qalstyan deyib ki, gələn il ölkənin dövlət borcu artacaq və ÜDM-in 48,4 faizini təşkil edəcək.

Ümumiyyətlə, məğlub ölkədə orta hesabla hər il dövlət borcu təxminən 1 milyard dollar artıb. Son məlumatlara görə, Hayastanın dövlət borcu 11,4 milyard dollar civarındadır. Nikol Paşinyan hakimiyyətə gələnə qədər bu, 6,7 milyard dollar idi. Beş ildən az müddət sonra 4,7 milyard dollar borc yığılıb.

Gələn il Hayastanın dövlət borcu son illərdəki kimi, heç də az olmayan sürətlə artacaq. Belə ki, Paşinyan hökumətinin 2024-cü il dövlət büdcəsinə əsaslanan proqnozlarına əsasən, bu ilin sonunda dramla ifadə olunan dövlət borcu 4,660 milyard dram təşkil edəcək. İndi bu, 4,395 milyarddır. Yəni ilin sonuna kimi 265 milyard dram artacağı gözlənilir. Artıq gələn ilin sonunda hökumətin proqnozlarına görə, borc 5,318 milyard dram təşkil edəcək. Paşinyan hökumətinin bu proqnozları özünü doğrultsa, gələn il dramla ifadə edilən borc əsasən hökumətin öhdəliklərinə uyğun olaraq 658 milyard dram (təxminən 1,6 milyard dollar) artacaq. Proqnozlar isə yekunda onu deməyə əsasə verir ki, gələn il borc öhdəlikləri 12 milyard dolları ötəcək.

Bu arada, 2024-cü il dövlət büdcəsinə əsaslanan proqnozlara əsasən, hökumətin borcunun xidmət xərcləri (faiz ödənişləri) ÜDM-in 3,1 faizini təşkil edəcək. Nominal ifadədə bu, 322 milyard dramdan çox olacaq.

Paşinyan hökuməti pensiya və müavinətləri artırmaq əvəzinə götürülmüş və bilinməyən səbəblərə xərclənən borcları ödəmək məcburiyyətində qalacaq. Əgər hər şey hökumətin tərtib etdiyi ssenari üzrə getsə, gələn il borcun xidmət məbləğləri, ən azı, 49,4 milyard dram artacaq. Hayastanın dövlət büdcəsinə əsaslanan məzənnə ilə hesablansa, bu, 128 milyon dollar alınır. Beləliklə, gələn il borc xidməti də artacaq və ümumilikdə 830 milyon dollardan çox olacaq.

Məsələ bundadır ki, bu fonda Hayastan büdcəsində sosial ödənişlərdə, maaşlarda hansısa artımın olmayacağı proqnozlaşdırılır. Bununla bağlı ekspert Manvel Minosyan qeyd edir ki, Hayastanda təqaüd və maaşlar artmayacaq. Əgər ölkədəki pensiyaçıların təqaüdləri 100 dram artırılarsa, bu, dövlət büdcəsinə çox böyük məbləğə başa gələ bilər: "Təbii ki, belə bir addımın atılmasının ölkə əhalisinin rifahına elə də böyük bir təsir göstərməyəcəyini nəzərə alsaq, bu halda, belə bir sual doğa bilər - hökumət tərəfindən belə bir addım atılmasına dəyərmi? Əslində, pensiyaçıların təqaüdlərinin 1000 dram artırılması ölkədəki bugünkü qiymət artımı ilə müqayisədə heç nədir, yəni belə bir addımın atılması xalqın rifah səviyyəsinin yüksəlməsinə heç bir təsir göstərə bilməz".

Hayastan hakimiyyəti 2024-cü ildə əsaslı xərclərin 41 faizini müdafiə sektorunu dəstəkləməyə yönəldəcək. Bu barədə parlamentin növbəti dörd günlük iclasında təsdiq üçün parlamentə təqdim edilən 2024-cü il dövlət büdcəsi layihəsində qeyd olunub. 2024-cü ildə əsaslı xərclər artaraq, 710 milyard dram (təxminən 1 milyard 775 milyon dollar) təşkil edəcək. Ermənistan Müdafiə Nazirliyinə 555 milyard dram (1,4 milyard dollar) ayrılacaq. Müdafiə xərcləri ÜDM-in 5,3 faizini təşkil edəcək.

Bütün bunlar onu deməyə əsas verir ki, məğlub ölkəni qarşıda çox çətin dövr gözləyir. İqtisadi çöküş Hayastanı daha dərin tənəzzülə yuvarlayır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# İrqi ayrı-seçkilik, islamofobiya...

## Fransa insan haqlarının vəziyyətinə görə BMT üzvləri tərəfindən sərt tənqid edilir

Özünü hər vaxt "demokratiyanın beşiyi" hesab edən, hansı ki buna haqqı olmayan Fransada son illər baş qaldıran irqi ayrı-seçkilik, islamofobiya fonunda haqlı narazılıqlarını nümayiş etdirən ölkə vətəndaşlarının hüquqlarının kobud şəkildə pozulması artıq Emmanuel Makron hakimiyyəti üçün adi hala çevrilib.

Acınacaqlı haldır ki, hökumətin səriştəsiz daxili və xarici siyasətinə qarşı etiraz aksiyalarında iştirak edən müxtəlif peşə sahiblərinə və hətta jurnalistlərə polislər tərəfindən mütəmadi zor tətbiq edilir. Bu da ilk növbədə fundamental insan haqlarının, sərbəst toplaşma və fikir azadlığı hüquqlarının kobud pozulmasıdır.

İndi də "demokratik" Fransanın AFP xəbər agentliyi "Yaxın Şərqdə baş verən hadisələri düzgün işıqlandırmadığı" üçün ictimai və siyasi təzyiqlərə məruz qalır. Yerli mətbuatın məlumatına görə, AFP-nin sədri və baş direktoru Fabris Fris xəbər agentliyinin yayım siyasəti ilə bağlı dinləmələr üçün Fransa Senatına çağrılıb.

Fris çıxışında agentliyin "antisemitizmi qızışdırmaqda" günahlandırıldığını bildirib. AFP rəhbəri bu cür ittihamları böhtan adlandırıb. Əslində, Fransanın uzaq və yaxın keçmişinə nəzər salsaq, baş verən hadisələr heç də təəccüb doğurmur. Bu, tarixən işğalçı və müstəmləkəçi siyasət yürüdən, dinc insanlara qarşı çoxsaylı cinayətlər və soyqırımı törədən ölkə üçün adi hal sayıla bilər.

Fransada toplaşma və ifadə azadlığı kimi anlayışlara artıq məhəl qoyulmur, etirazçıların dinc nümayişləri qəddarlıqla dağıdılır, insanların hüquqları kobud şəkildə pozulur. Ancaq digər ölkələrə Paris "demokratiya" və "insan hüquqları" dərsləri keçmək istəyir.

Bir müddər əvvəl Paris insan haqlarının vəziyyətinə görə BMT üzvləri tərəfindən sərt şəkildə tənqid olunub. Makron hakimiyyəti etirazçılara və miqrantlara qarşı hücumlar, irqi ayrı-seçkilik, müsəlmanlara qarşı diskriminasiyaya görə tənqid obyektinə çevrilib.

BMT-nin İnsan Haqları Şurası Fransada insan haqlarının vəziyyətini üç saatdan çox araşdırıb. Nəticədə ABŞ, İsveç, Norveç, İran, Çin, Malayziya, Braziliya, Yaponiya, Rusiya, Lüksemburq, Tunis, Danimarka, Lixtenşteyn və digər ölkələrin nümayəndələri Fransa hökumətini asayişin qorunması ilə bağlı siyasətini yenidən nəzərdən keçirməyə, polis məmurlarının iştirakı ilə baş verən irqçi insidentlərin bütün hallarının qeyri-polis orqanları tərəfindən qərəzsiz araşdırılmasını təmin etmək üçün addımlar atmağa çağırıblar.

Bu gün eyni zamanda Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycanın uğurlarını "həzm edə" bilməyən Fransanın ermənipərəst prezidenti Emmanuel Makronun tez-tez bölgədə mövcud vəziyyəti təhrif edən mövqe sərgiləməsi həm də onun tərəfindən tətbiq edilən ikili standartların və qərəzin bariz nümunəsidir. Müstəmləkə siyasəti çərçivəsində insan haqlarına heç bir önəm verməyən Fransanın ərazisində bir çox xalqların və etnik azlıqların firavan yaşadığı Azərbaycana dərs keçməyə çalışması qəbuledilməzdir. Eyni şəkildə, 30 ilə yaxın müddətdə hüquqları pozulmuş, ərazilərindən didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların faciələri barədə indiyə qədər heç bir şərh verməyən Fransanın indi ermənilərin hüquqlarını müdafiə etdiyini bildirməsi Parisin saxta niyyətindən xəbər verir. Amma istənilən halda Fransanın bölgədə sülhə xidmət etməyən və qarışıqlıq yaratmaq istiqamətindəki səyləri heç bir nəticə verməyəcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistanın gələcəyi...

## ABŞ-nin vədlərində deyil, Cənubi Qafqazda sülhün təmin olunmasındadır



Uzaqdan yol göstərmək də, canıyananlıq etmək də asandır. Bütün bunlar, yalnız öz mənafeyinə xidmət edəndə isə həm də riyakarlıq olur. Bu gün Ermənistana "canıyananlıq" göstərən bəzi Qərb ölkələrinin də əsl mövqeyi, niyyəti budur. Əsrlər boyu xislətində məkr, niyyətində işğalçılıq olmuş bir ölkəni - Ermənistanı öz təsirləri altında saxlamaqla Qərb və ABŞ Cənubi Qafqazda sülhün bərqərar olmasına yol vermək istəmirlər.

Əlbəttə, bəzi Qərb ölkələrinin bu "canfəşanlığında" erməni diasporunun rolunu və gücünü görməmək mümkünsüzdür. Ancaq bu məsələlərdə həmin ölkələrin öz mənfəətlərini güddükləri də ortadadır.

Görünür, güclü əllər başını oxşadıqca xumarlanan, gözləri tutulub gələcəyini görməyən İrəvan rəsmiləri özlərini necə bəlaya saldıqlarının fərqində deyillər. Əvvəla, "böyük Ermənistan" xülyasının boş olduğunu, özgə torpaqlarına göz dikməyin ağır və acı nəticələr verdiyini, Qarabağda, Şərqi Zəngəzurda aldıqları ibrət dərslərini unutmamalıdırlar. İkincisi, əmin olmalıdırlar ki, Cənubi Qafqazı onların əlləri ilə münaqişə ocağına çevirmək istəyənlər məqsədlərinə çatarlarsa, həmin ocağın alovunda yanan elə Ermənistan olacaq.

Cənubi Qafqazın problemlərini region ölkələri, ilk növbədə, özləri həll etməlidirlər. Regiondan kənar, xüsusilə bu yerlərə tamamilə yad olan, həm də tarix boyu yalnız müstəmləkəçilik siyasəti yürüdən, əsarət altında saxladığı, yeraltı, yerüstü sərvətlərini taladığı ölkələrin zavallı xalqlarına dəhşətli işgəncələr verməkdən, onları qətlə yetirməkdən çəkinməyən ermənipərəst Qərb ölkələrinin əsl simaları bəllidir. Onların Cənubi Qafqaz regionuna aid məsələlərə zərərli müdaxilələri bölgənin heç bir ölkəsinə xeyir gətirməz.

Prezident İlham Əliyev Cənubi Qafqaz regionunda artıq yeni reallıqlar yarandığını noyabrın 13-də ATƏT Parlament Assambleyasının prezidenti Pia Kaumanı qəbul edərkən qeyd etdi. Dövlət başçısı bildirdi ki, regionda baş vermiş son hadisələr Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş işğalı və hərbi təcavüzü kontekstində nəzərdən keçirilməlidir: "Bu işğal və təcavüzün nəticələrinə baxılmadan regionun gələcəyi ilə bağlı baxışların irəli sürülməsi düzgün yanaşma olmaz". Prezident İlham Əliyevin bildirdiyi kimi, Ermənistan Azərbaycan torpaqlarının işğalını əbədiləşdirməyə çalışırdı. 2020-ci ildə baş verən 44 günlük müharibədə Müzəffər Azərbaycan Ordusu Ernənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq bu məkrli erməni niyyətini puç etdi.

Lakin Ermənistan Vətən müharibəsindən sonra imzalanan 2020-ci il 10 noyabr Bəyanatından irəli gələn öhdəlikləri yerinə yetirmədi. Qarabağdakı silahlı qüvvələrini ərazidən çıxarmadı. Həmin ərazilərimizdə təxribatlar törətməkdə, mina terroru həyata keçirməkdə davam etdi. Bu il 19-20 sentyabrda aparılan lokal xarakterli antiterror əməliyyatının məqsədi Azərbaycanın suverenliyini tam bərpa etmək idi. Və Azərbaycan məqsədinə nail oldu. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, artıq bu məsələlər keçmişdə qaldı: "Hazırda regionun sülh gündəliyi üçün çox yaxşı imkanlar var".

Birtərəfli, qərəzli və açıq-aşkar anti-Azərbaycan təşəbbüsləri irəli sürən Qərb ölkələri Azərbaycanla Ermənistan arasında münasibətin normallaşmasından narahatdırlar. Bu səbəbdən həmin ölkələrin sırasında öndə dayanan Fransa Ermənistana kütləvi şəkildə silah və texnika tədarükünün başlanmasını elan etdi. Bu günlərdə çoxlu sayda "Bastion" çoxməqsədli zirehli avtomobilləri və onlara məxsus avadanlıqları Ermənistana göndərdi.

Beynəlxalq münasibətlərdə Qərbin siyasi dairələrinin mövqeyi çoxdan bəllidir. İkili standartlardan əl çəkməyən Qərb Azərbaycanla bağlı əsl həqiqətləri bilərək ifadə etmədiyini uzun illərdi göstərir. Azərbaycan torpaqları işğal altında qaldığı müddətdə Birləşmiş Millətlər Təşkilatları (BMT) tərəfindən qəbul olunan Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən 4 qətnamənin icra olunmamasına Qərbin siyasi mərkəzləri etirazlarını bildirmədilər, əksinə, ikili standartlardan çıxış etdilər.

Qərbin siyasi dairələri məkrli niyyətləri naminə bütün dünyada sülhün yaranmasına imkan vermirlər. Riyakarlıqları, beynəlxalq hüquqa zidd fəaliyyətləri ilə fitnə-fəsad törədirlər. Nəticədə, günahsız insanların evlərinə od düşür, onlar yersiz-yurdsuz, səfil, sərgərdan qalırlar. Təəssüf ki, bu gün də dünyanın harasında müharibə, kütləvi qırğınlar baş verirsə, orada baiskarın Qərbin qərəzli siyasi dairələrinin olduğu məlum olur. Öz sərhədləri daxilində sabitliyi bərqərar, vətəndaşlarının əmin-amanlığını, rifahını təmin edə bilməyən Qərb dövlətləri beynəlxalq aləmdə demokratiyadan ağızdolusu danışır, hətta başqalarının yerinə qərar qəbul etmək, hökm vermək istəyirlər. Həm də, qeyd etdiyimiz kimi, öz niyyətlərinə, məqsədlərinə uyğun olaraq. Acı nəticələr isə göz önündədir. Yaxın Şərqdə və Ukraynada baş verən qanlı hadisələr Qərb siyasi dairələrinin hərbi-siyasi oyunlarının, dövlətlər və xalqlar arasında yaratdıqları münaqişələrin faciəvi sonluğudur.

Otuz il Ermənistan-Azərbaycan münaqişəsinin həllində vasitəçilik missiyasını üzərinə götürüb heç bir iş görməyənlər bu gün - problemlər həllini tapdıqdan sonra, ədalət bərqərar olunduğu zamanda meydandan çəkilməlidirlər. Çəkilsələr, görərlər ki, Cənubi Qafqazda sülhün yaranması müşkül məsələ deyil.

İşğaldan azad edilən Qarabağın, Şərqi Zəngəzurun Azərbaycan dövlətinin ərazisi olduğunu Ermənistan rəsmiləri özləri də etiraf ediblər. Bu gün Azərbaycanla Ermənistan arasında sülhün imzalanmasına mane ola biləcək heç bir məsələ yoxdur. Və bu sülh bütün Cənubi Qafqaza xoş, təhlükəsiz günlər gətirəcək. Bu sülhə mane olmağa səy göstərənlər, ilk növbədə, Ermənistanı məhvə aparırlar. İrəvan rəsmiləri isə, əslində, bu bölgədəki yeni reallıqlarla barışmaq istəməyən Qərb siyasi dairələrinin yalan, qərəz, hiddət dolu vədlərinə uymaqla Ermənistana quyu qazır, gələcəyini təhlükə qarşısında qoyur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Ermənistan ehtiyatlı olsun

## Fransanın erməni sevgisi sonsuz deyil

Hələ ötən əsrin 80-ci illərinin sonlarında ermənilər Qarabağda qanlı hadisələr törətməyə başlayanda ətraflarına özlərinə oxşar xeyli "dost-tanış"ları toplaşmışdı. Bu "dost-tanış"lardan bəziləri indiyə qədər də onların yanındadır. Hələ də yeri düşdükcə-düşmədikcə ermənilərin Qarabağdakı cinayət əməllərinə haqq qazandırır, arxalarında dayanırlar, xalqımıza qarşı törətdikləri cinayətləri ört-basdır etməyə çalışırlar.



Ermənilərin belə canbir, qəlbbir "dost"larından biri də Fransadır. Təbii ki, Fransa xalqı bu işlərə çox qarışmır. Hələ məqamı düşəndə Makrona şillə vurub, yumurta, pomidor atıb deyirlər ki, ağıllı ol. Baxmayaraq ki, uzun illərdir ad-soyadından, kimliyindən asılı olmayaraq Fransada hakimiyyətə gələn dövlət başçılarının hamısı Ermənistanı, erməniləri müdafiə edirlər. Elə bil onların ermənilər qarşısında əbədi bir öhdəliyi var. Daim özlərini oda-közə vurub bu öhdəliyi yerinə yetirməyə çalışırlar.

Fransa hakimiyyətinin bu ürəkbulandıran hərəkətləri kiçikdən tutmuş böyüyə qədər hamımızı əsəbiləşdirir. Bu məqamda sabiq deputat mərhum Şamil Qurbanovun bir vaxtlar Fransanın Prezidenti olmuş Mitteran haqqında dediyi sözlər yadıma düşdü. Ş.Qurbanov Milli Məclisdə çıxış edərkən Mitteranın erməniləri müdafiə etdiyinə, haqqı nahaqqa verdiyinə, ağa qara dediyinə yaman hirslənmişdi. Elə hirsli-hirsli də demişdi ki, Mitteran qudurub. Şamil Qurbanov BDU-nun müəllimi idi və adətən, müəllimin dediyi söz heç vaxt yalan olmaz. Yəqin ki, professor Mitteranın qudurduğunu hiss etmişdi, yoxsa bu sözü deməzdi.

Həmin vaxtlar heç bilmirəm Mitteranın Şamil müəllimin dediyi sözlərdən xəbəri oldu, yoxsa yox? Yəqin ki, hər halda xəbər aparanları bu sözü də ona çatdırıblar. Müəllimin dediyi "qudurmaq" məsələsinə o vaxtlar inananlar da oldu, inanmayanlar da. Hətta bu sözü dilinə gətirdiyinə görə onu qınayanlar da oldu. Bir müddətdən sonra baş verən hadisə Şamil müəllimin fikrinin düz olduğunu təsdiq etdi.

İndi Makron Mitteranın yarımçıq qoyduğu planları həyata keçirərək harada gəldi erməniləri müdafiə edir, sanki bütün işgücü "kiçik bacısı"nı təzyiqlərdən qorumaqdır. Hərdən adama elə gəlir ki, o, Fransanın yox, elə işğalçı Ermənistanın prezidentidi. Paşinyanla da çox yaxındırlar. Gün ərzində dörd-beş dəfə zəngləşir, mesajlaşırlar. Heç elə bil ki, Makron öz ölkəsinin problemləri ilə maraqlanmır, camaatının qayğısına qalmır. Ona görə də "həftə səkkiz, mən doqquz" Fransada iğtişaşlar, mitinqlər, tətillər baş verir. Onun yürütdüyü yarıtmaz siyasətdən narazı qalan xalq küçələrə axışır, istefasını tələb edir.

Fransızşünas bir dostumuzdan Makronun ermənilərə olan sevgisinin haradan qaynaqlandığını soruşduq. Dedi ki, Fransada xeyli sayda zəngin erməni var. Bu Avropa ölkəsinin mətbuatının müəyyən faizi onların əlindədir. Həmin zənginlər məqsədli şəkildə seçkilərdə prezidentlərin təbliğatına xeyli pul buraxır və qaşılarına şərt qoyurlar ki, Qarabağ ermənilərini müdafiə etsinlər, "artsax"a müstəqillik verilməsinə çalışsınlar. Seçilən prezidentlər də onların yanında gözükölgəli olmamaq üçün haqsızcasına erməniləri müdafiə edirlər.

Elə buna görə də Fransa 30 ilə yaxın ATƏT-in Minsk qrupunun üzvü olaraq heç vaxt ədalətli mövqe tutmadı. Elə iş-gücü yalnız erməniləri müdafiə etmək oldu. 30 il ərzində bir dəfə də olsun Azərbaycanın torpaqlarını işğal etmiş, əhalisinə qarşı soyqırımlar törətmiş ermənilərin xətrinə dəyən bir söz demədi. Onları "işğalçı" deyib öz adları ilə çağırmadı. Həm aşkarda, həm də gizlində ermənilərə dəstək verdi. Təəssüflər olsun ki, bu dəstək hələ də davam edir. Bu gün Fransa Ermənistana silah-sursat, döyüş texnikası verir, hərbi təlimatçılar göndərməyə hazırlaşır. Nə qədər ki Fransanın erməni lobbisindən asılı qalan Makron kimi prezidenti var, bu, həmişə belə olacaq. Ona görə də çox hirslənməyə dəyməz. Ermənilər bu dostluqdan çox sevinməsinlər. Çünki Fransanın erməni sevgisi günlərin birində bitəcək. Onda ermənilər "böyük bacı"sız qalacaqlar.

Biz tarixən görmüşük ki, kiçik xalqlar böyük xalqlara yaltaqlanar, onun qulluğunda dayanar, üst-başını çırpar. Fransa-eməni bacılığında isə məsələ başqa cürdür, necə deyərlər, əksinədir. Böyük bacı kiçik bacıya yaltaqlanır. Qədim mədəniyyəti, zəngin tarixi olan fransızları, daha doğrusu, onların dövlət başçıları ermənilərin qarşısında quyruq bulayırlar. Hərdən adama elə gəlir ki, Makron erməniləri fransızlardan çox istəyir.

Azərbaycan dövləti, xalqımız üçün onların bacılığının təbii ki, heç bir əhəmiyyəti yoxdur. Biz uğurlara, zəfərlərə aparan düz yolumuzla heç kimdən qorxmadan, çəkinmədən inamla gedirik. Nə ermənilər, nə də onların birnömrəli havadarı olan Fransa vecimizədir. Onu da unutmasınlar ki, "dəmir yumruq" yerindədir.

***Vahid MƏHƏRRƏMOV***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## BTC-yə yol açan saziş

### 24 il əvvəl 5 dövlətin başçıları bu möhtəşəm kəmərin marşrutunu müəyyənləşdirən sənəd imzaladılar



1997-ci il noyabrın əvvəlində "Çıraq" platformasından "Əsrin müqaviləsi"nin ilkin nefti alındı. Qarşıdakı illərdə isə üç böyük hissədən - Mərkəzi, Qərbi və Şərqi hissələrdən ibarət olan "Azəri" yatağından, eləcə də "Günəşli"nin dərinlikdə yerləşən hissəsindən hasilata başlanılması gözlənilirdi. Neft hasilatı artdıqca, mövcud olan kəmərlərdən əlavə, daha böyük bir ixrac marşrutuna ehtiyac yaranacağı labüd idi.

Belə bir şəraitdə müəllifi Ümummilli Lider Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin çəkilişi ideyası irəli sürüldü. 1998-ci il oktyabrın 19-da Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə imzalandı. 1999-cu il noyabrın 18-də İstanbulda, ATƏT-in Zirvə toplantısında xəttin çəkilişi ilə bağlı növbəti sazişə imza atıldı. Bu, xam neftin BTC vasitəsilə Azərbaycan, Gürcüstanı və Türkiyənin əraziləri ilə nəql edilməsinə dair saziş idi. Kəmərin tikintisi üçün həlledici rol oynayan həmin mühüm sənədi Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və ABŞ-nin ovaxtkı prezidentləri imzaladılar. Bu, Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün oldu.

BTC qarşısında "yaşıl işıq" yandıran həmin sazişin imzalanması "Əsrin müqaviləsi"ndən sonra Azərbaycan üçün tarixi əhəmiyyət kəsb edən daha bir böyük hadisə idi. Çünki Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi çərçivəsində çıxarılan nefti dünya bazarlarına nəql etmək üçün boru kəmərləri çəkilməsi zərurəti həm də bu səbəbdən yaranmışdı. 1999-cu ildə Azərbaycan neftini Bakı-Supsa marşrutu ilə daşıyan Qərb İxrac Boru Kəməri (QİBK) istifadəyə verildi. Bu, texniki cəhətdən çox mürəkkəb layihə idi və böyük maliyyə vəsaiti hesabına reallaşdı. Tikintinin müvəffəqiyyətlə başa çatdırılması bir daha göstərdi ki, Azərbaycan böyük işlər görməyə, həm də onları qısa müddətdə həyata keçirməyə qadirdir.

Lakin BTC-nin həm ölkəmizdə, həm də xaricdə bədxahları çox idi. Onlar hər vasitə ilə bu layihənin gerçəkləşməsinə sədd çəkmək istəyirdilər. Əsassız bəhanələr gətirirdilər. Gah deyirdilər ki, Azrbaycanın bu xətti doldurmaq üçün kifayət qədər nefti yoxdur. Gah kəmərin seysmik zonalardan keçəcəyini söyləyir, gah da ətraf mühitə ziyan vuracağı barədə səs-küy qaldırırdılar.

Lakin Heydər Əliyev dühası ilə bu möhtəşəm layihə qalib gəldi. 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Ulu Öndərin iştirakı ilə kəmərin təməli qoyuldu. 2005-ci il mayın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə xəttə ilk neft vuruldu. BTC tam sistem kimi 2006-cı il iyulun 13-də istifadəyə verildi.

Qısa arayış: Uzunluğu 1768 kilometr olan BTC Xəzər regionundan Aralıq dənizinə təhlükəsiz və məsuliyyətli şəkildə xam neft ixrac etmək üçün çəkilib. Kəmər Azərbaycanda 443, Gürcüstanda 249, Türkiyədə 1076 kilometr məsafə qət edir. Ölkəmizdə 13 rayondan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafa rayonlarından keçir. Gürcüstanda 7 bölgənin - Qardabani, Marneuli, Tetritskaro, Tsalka, Borjomi, Axaltsixe və Agideni rayonlarının ərazisi boyu uzanır. Xəttin Türkiyədə keçdiyi 9 rayon isə Ərdahan, Qars, Ərzurum, Ərzincan, Sivas, Kayseri, Qəhrəman Maraş, Osmaniyə və Adanadır.

BTC əvvəvcə gündə bir milyon barel neft ötürmək gücündə layihələndirilmişdi. 2009-cu ilin yazından isə onun gündəlik ötürücülük qabiliyyəti 1,2 milyon barelə çatdırıldı. Kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Baş nasos stansiyası Səngəçalda yerləşir. İkinci stansiya da ölkəmizin ərazisində, Yevlax rayonundadır. Daha iki stansiya Gürcüstanda fəaliyyət göstərir. Qalan dörd stansiya Tükiyənin payına düşür.

İstismara verildiyi vaxtdan cari il sentyabr ayının sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 554 milyon ton (4,2 milyard barel) xam neft nəql edilib və həmin neft həcmləri Ceyhanda 5482 tankerə yüklənərək dünya bazarlarına göndərilib. BTC-nin ümumilkdə 4 milyard barel neft ixracına nail olması əlamətdar bir uğur kimi bu il yanvarın 18-də qeyd edilib.

Əməliyyatçı olan bp şirkətinin məlumatına görə, cari ilin ilk üç rübü ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 23 milyon ton (təxminən 171 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 238 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

Hazırda BTC əsasən AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmərlə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan və Türkmənistan) də nəql olunur. BTC haqlı olaraq regionda enerji ixracının arteriyası sayılır.

Kəmər istifadəyə verilərkən layihənin tərəfdaşları ona Ulu Öndər Heydər Əliyevin adının verilməsi təklifini irəli sürmüşdülər və bu təşəbbüs yekdilliklə bəyənilmişdir. BTC bu uca adı şərəflə daşıyır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Moldova DOST modelinin tətbiqinə hazırlaşır



**DOST modelinin Moldova Respublikasında da tətbiqi istiqamətində işlər aparılır. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Moldova Respublikasının Milli Sosial Sığorta Kassasının baş direktoru Yelena Tsıbırnanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə bildirilib.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycanla Moldova dövlət başçılarının səyləri ilə iki ölkə arasında dostluq münasibətlərinə əsaslanan əlaqələrin daim inkişaf etməkdə olduğunu bildirib.

Ötən dövrdə Moldova ilə sosial sahədə də fəal əməkdaşlıq təcrübəsinin formalaşdığı qeyd olunub. Keçən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Moldovanın Əmək və Sosial Müdafiə Nazirliyi arasında əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumunun önəmi vurğulanıb.

İki nazirlik arasında əməkdaşlıq istiqamətləri üzrə imzalanmış 2023-2024-cü illər üzrə Tədbirlər Planı çərçivəsində ardıcıl işlərin görüldüyü bildirilib. Ölkəmizdə əmək, məşğulluq və sosial müdafiə sahələrində son illər aparılan islahatlar, DOST konsepsiyası, xidmətlərin avtomatlaşdırılması istiqamətində əldə olunan uğurlar barədə məlumat verilib.

Moldovanın DOST konsepsiyasının tətbiqində maraqlı olduğu və Moldovada bu konsepsiyanın tətbiqi, habelə dövlət sosial xidmətlərinin rəqəmsallaşdırılması üçün təcrübəmizin bölüşülməsi məqsədilə qeyd olunan Tədbirlər Planı üzrə müvafiq işlər aparıldığı diqqətə çatdırılıb.

Y.Tsıbırna iki qurum arasında məqsədəuyğun şəkildə həyata keçirilən əməkdaşlıqdan, aparılan fəal təcrübə mübadilələrindən məmnunluğunu ifadə edib. Görüşdə gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.

Noyabrın 13-dən ölkəmizdə səfərdə olan Moldova nümayəndə heyəti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyində və digər qurumlarda görüşlər keçirib, DOST mərkəzlərinin fəaliyyəti, bu mərkəzlərdə əhaliyə xidmətlərin göstərilməsi prosesi ilə yaxından tanış olublar.

## Çinin Sian şəhərində Azərbaycan Ticarət Evi açılıb

**Dünən Çinin Şansi vilayətinin paytaxtı Sian şəhərində Azərbaycan Ticarət Evinin açılış mərasimi keçirilib.**

Mərasimdə çıxış edən ölkəmizin Çindəki səfiri Bünyad Hüseynov, Sian xalq hökuməti xarici işlər dəftərxanasının müdiri Çian Şen və digərləri Sian şəhərində Azərbaycan Ticarət Evinin açılmasının rəmzi məna daşıdığını bildiriblər. Belə ki, Sian şəhəri qədim İpək yolunun Çindəki başlanğıc nöqtəsi, Azərbaycan isə tarixən İpək yolu üzərində vacib ölkə olub. Müasir dövrdə Çindən Avropaya yük qatarı marşrutlarından bir neçəsi məhz Azərbaycandan keçir. Qeyd edilib ki, "Bir kəmər, bir yol" təşəbbüsü ticarət, nəqliyyat, mədəni mübadilə vasitəsi ilə Azərbaycan və Şansi vilayətini bir-birinə daha da yaxınlaşdırıb. Ticarət evinin açılması da bunun bariz nümunəsidir.

Şəhərin işgüzar zonasında yerləşən və 600 kvadratmetr sahəsi olan ticarət evində Azərbaycanın zəngin mədəni irsinə, turizm potensialına, iqtisadi imkanlarına və sərmayə mühitinə aid materiallar nümayiş olunur. Ticarət evində "Made in Azerbaijan" brendi altında istehsal olunan məhsullar, o cümlədən çay, meyvə şirələri, kompotlar, müxtəlif kosmetik məhsullar, şərab və brendlər, digər alkoqollu və alkoqolsuz içkilər, konservlər çinli istehlakçılara təqdim edilir.

Qeyd edək ki, bu, Azərbaycanın Çində sayca 5-ci ticarət evidir.

## İşğaldan azad edilmiş ərazilərdə ilk əmək yarmarkası keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Qarabağda ilk əmək yarmarkası keçirilib.**



Füzuli şəhərində, Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbdə baş tutan aktiv məşğulluq tədbiri şəhərə köçürülən sakinlər üçün təşkil olunub.

AZƏRTAC xəbər verir ki, dövlət və özəl sektordan olan habelə Füzulidə fəaliyyət göstərən 20 işəgötürənin iştirak etdiyi tədbirdə müxtəlif istiqamətlər üzrə 200-ə yaxın vakansiya təqdim edilib.

Yarmarkaya qatılan sakinlərə vakansiyalar, iş öhdəlikləri haqqında məlumat verilib, müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlərin qeydiyyatı aparılıb. Bundan başqa, yarmarkada iştirakçılara agentliyin həyata keçirdiyi aktiv məşğulluq tədbirləri və müraciət prosedurları ilə bağlı məlumat verilib.

Daha sonra yarmarkada iştirak edən işəgötürənlərlə, işğaldan azad edilmiş ərazilərdə görülən işlər və birgə əməkdaşlıq məsələlərinin müzakirəsinə dair görüş keçirilib. Görüşdə ilk olaraq işəgötürənlərə agentliyin fəaliyyəti, məşğulluq tədbirləri, icra olunan layihələr və Füzuliyə köçürülən sakinlərin məşğulluqlarının təmin edilməsi istiqamətində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, artıq şəhərə köçürülən 258 ailənin üzvlərinin məlumatları təhlil olunub, uyğun şəxslərin məşğulluq imkanları qiymətləndirilib və məşğulluq tədbirlərinə cəlb edilmələrinə başlanılıb. Görülən işlərin nəticəsi olaraq artıq 73 nəfər münasib işlərlə təmin edilib, 20 nəfər müxtəlif istiqamətlər üzrə özünüməşğulluq proqramına cəlb olunub. Hazırda daha 150-dək sakinin məşğulluğunun təmini istiqamətində iş aparılır.

Görüşdə həmçinin agentliyin işəgötürənlərə yönəlik dəstək tədbirlərindən danışılıb, azad olunan ərazilərə köçürülən şəxslərin məşğulluqlarının təmin olunması üçün əməkdaşlıq istiqamətləri müzakirə edilib, işəgötürənlərin tələbləri öyrənilib.

## Məqsəd Türk Dövlətləri Təşkilatını dünyanın iqtisadi güc mərkəzlərindən birinə çevirməkdir

Bütün zamanlarda dövlətlər arasındakı siyasi, iqtisadi, mədəni əlaqələr ölkələrin inkişaf səviyyəsinə təsir edib. Əlaqələr gücləndikcə dövlətlərarası birliklər yaranıb, ittifaqlar qurulub.

Bu baxımdan Azərbaycan da dünyanın bir çox birliklərinin üzvüdür və təmsil olunduğu həmin birliklərdə müəyyən söz sahibidir. Elə birlik də var ki, Azərbaycan məhz həmin qurumu yaradanlardandır. Bu, türk dünyası birliyi, daha doğrusu, Türk Dövlətləri Təşkilatıdır.

Qurum Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstanın təşəbbüsü ilə 2009-cu il oktyabrın 3-də Türk Şurası adı ilə yaradılıb. Həmin gün həm də Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü elan edilib və bu tarix Türk Şurasının yaradılmasının ildönümü hesab olunur. 2021-ci ildə İstanbulda keçirilən Türk Şurası Liderlərinin VIII Zirvə toplantısında Türk Şurasının rəsmi adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı (TDT) adlandırılıb. Bu gün TDT tarixi keçmişi, dil və mədəniyyət eyniliyi olan və əhalisinin ümumu sayı təxminən 250 milyon nəfərə çatan türk xalqlarının birliyi kimi tarix səhnəsində yer alıb. Prezident İlham Əliyevin Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışı zamanı qeyd etdiyi kimi, Azərbaycan həmişə TDT çərçivəsində mühüm və əhəmiyyətli ölkələrdən biri olub: "Biz təşkilatı daha vacib beynəlxalq oyunçuya çevirə bilsək, hər kəs bundan faydalanar. Bizim geniş coğrafiyamız, bəzi ölkələrdə böyük təbii sərvətlər, o cümlədən enerji ehtiyatları, bəzi ölkələrin güclü hərbi imkanları var. Beləliklə, biz bütün bu səyləri birləşdirsək, əlbəttə ki, qlobal səviyyədə ciddi oyunçu görə bilərik. Hesab edirəm ki, təşkilat qlobal güc mərkəzlərindən biri ola bilər və olmalıdır".



Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Türkmənistanın üzv, Macarıstanın isə müşahidəçi olduğu TDT-nin yaradılmasında məqsəd türkdilli dövlətlər arasında dostluğu, qardaşlıq münasibətlərini möhkəmləndirmək, əməkdaşlığı dərinləşdirmək, regional sülh və sabitliyə töhfə verməkdir. Öncədən razılaşdırılıb ki, təşkilata daxil olan dövlətlər xarici siyasət məsələlərində vahid mövqedən çıxış etsin, terrorizm və cinayətkarlığa qarşı mübarizədə birgə fəaliyyət göstərsin, ticarət və investisiyalar üçün əlverişli mühit yaratsın, hərtərəfli iqtisadi inkişafı təmin etsin və elmi-texniki innovasiyalarda əməkdaşlığı genişləndirsinlər. Bu gün sadalanan öhdəliklər hesabına TDT-yə üzv ölkələr arasında siyasi, iqtisadi, mədəni və hərbi sahələr üzrə əlaqələr genişlənir, möhkəmlənir. Bütün bunlar həmçinin təşkilatın beynəlxalq nüfuzunun artmasına səbəb olur.

Xəbər verildiyi kimi, bu yaxınlarda TDT-nin Qazaxıstanın paytaxtı Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə Astana Aktı və Astana Bəyannaməsi imzalanmışdır. "Türk Əsri" çağırışı altında keçirilən həmin toplantıda dövlət başçıları iqtisadi-siyasi, ticarət, nəqliyyat və gömrük kimi sahələrdə çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etmişlər. Amma TDT-nin fəaliyyəti dövlət başçıları səviyyəsində görülən ortaq işlərlə məhdudlaşmır. Təşkilat fəaliyyətinin bütün istiqamətlərində ortaq işlərə imza atır, ortaq qurumlarını yaradır. Yenə də bu ilin iyun ayında Şuşadan öncə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilən Qazaxıstanın indiki Türküstan (keçmiş Çimkənd) şəhərində Türk Dövlətləri Qiymətləndiricilər Birliyi (TDQB) təsis olunmuşdur. Birliyi yaratmaqda məqsəd peşəkar qiymətləndiricilərin yetişməsi, tədris və sertifikasiya fəaliyyəti, vahid məlumat bazasının yaradılması istiqamətində ortaq fəaliyyət göstərmək idi. Ötən bir neçə ay ərzində Türk Dövlətləri Qiymətləndiricilər Birliyinin strukturu demək olar ki, formalaşdırılmışdır.

Bir neçə gün əvvəl isə Türkiyənin paytaxtı Ankarada TDQB İdarə Heyətinin növbəti toplantısı keçirilmişdir. Birliyin prezidenti Askar Omerbekov görülən işlərlə bağlı çıxışında bildirmişdir ki, birlik qiymətləndiricilər arasında faydalı və qarşılıqlı münasibətlərin genişləndirilməsi istiqamətində xeyli işlər görmüşdür. Müzakirələr zamanı İstanbul Türk Dövlətləri Qiymətləndiricilər Birliyinin mərkəzi şəhəri elan edilmiş və qərara alınmışdır ki, mərkəzi qərargah İstanbulda yerləşsin və birliyin beynəlxalq təşkilat kimi qeydiyyatdan keçməsi Türkiyə Qiymətləndirmə Mütəxəssisləri Birliyinə həvalə edilsin. Birliyin icraçı katibi Marat Baytokov tərəfindən 2024-2025-ci illər üçün fəaliyyət planı İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur. Sənəddə quruma üzv dövlətlərin təklifləri nəzərə alınmış, aprelin 28-də Bakıda keçirilən Zirvə Görüşünün birliyin təsis olunmasında xüsusi rolu vurğulanmışdır. Eyni zamanda qərara alınmışdır ki, TDQB-nin 3-cü toplantısı gələn il mayın 31-i - iyunun 2-də Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin evsahibliyi ilə Azərbaycanda keçirilsin. Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, Türk Dövlətləri Qiymətləndiricilər Birliyinin vitse-prezidenti Vüqar Oruc isə ölkəmizdə qiymətləndirmə sektorunun mövcud vəziyyəti, inkişaf dinamikası, görülən işlər barədə toplantı iştirakçılarını ətraflı məlumatlandırmışdır. Qeyd etmişdir ki, rəhbəri olduğu qurum 60 peşəkar qiymətləndirmə şirkətini və yüzlərlə qiymətləndiricini birləşdirir.

Göründüyü kimi, kifayət qədər imkanlara malk olan TDT müasir dövrün çağırışlarını dəqiq qiymətləndirməklə Cənubi Qafqaz və Mərkəzi Asiyada iqtisadi baxımdan da güc mərkəzinə çevrilməkdə israrlıdır. O üzdən bu gün regional birlik kimi fəaliyyət göstərən Türk Dövlətləri Təşkilatının sabah beynəlxalq səviyyədə əhəmiyyətli təşkilata çevriləcəyi şübhəsizdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi haqqında Əsasnamə

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (bundan sonra - Agentlik) Azərbaycan Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təmin edilməsi, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarı, eləcə də bu sahədə xidmətlər göstərilməsinin təşkili, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarətin həyata keçirilməsi, Azərbaycan Respublikasında yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların (Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində yerləşən dəniz qurğuları, onların saxlanılmasını və qorunmasını təmin edən əsas və köməkçi avadanlıq istisna olmaqla), su təchizatı sistemlərinin monitorinqinin aparılması sahələrində (bundan sonra - müvafiq sahə) vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

## 2. Agentliyin fəaliyyət istiqamətləri

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahədə dövlət tənzimləməsini və əlaqələndirməni həyata keçirmək;

2.1.3. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.4. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.5. Azərbaycan Respublikasının ərazisində su təhlükəsizliyinin təmin edilməsi məqsədilə tədbirlər görmək;

2.1.6. tabeliyindəki qurumların balansında olan su təsərrüfatı obyektlərinin təhlükəsiz istismarının və etibarlı mühafizəsinin təmin edilməsi ilə bağlı tədbirlər görmək və onların texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirmək;

2.1.7. Azərbaycan Respublikasının ərazisində yerüstü və yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparmaq;

2.1.8. su obyektlərinin mühafizəsi və onlardan istifadə üzərində dövlət nəzarətini həyata keçirmək;

2.1.9. torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq məqsədilə meliorasiya sahəsində xidmətləri inkişaf etdirmək, eləcə də suvarılan torpaqların meliorativ vəziyyəti üzərində nəzarəti həyata keçirmək;

2.1.10. su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkisinin qarşısının alınması sahəsində tədbirləri müəyyənləşdirmək və onların həyata keçirilməsini təşkil etmək;

2.1.11. su ehtiyatlarının inteqrasiyalı idarə olunmasını təmin etmək.

## 3. Agentliyin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasının ərazisində yerləşən su təsərrüfatı obyektlərində, hidrotexniki qurğularda, su təchizatı sistemlərində, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə su obyektlərində monitorinqlərin, dövlət su kadastrının, yerüstü və yeraltı suların dövlət uçotunun aparılmasını təmin etmək;

3.1.2. su obyektlərindən təyinatına görə istifadə edilməsinə dair monitorinq aparmaq və müvafiq tədbirlər görmək;

3.1.3. suların vəziyyətinə zərərli təsir edən texniki qurğuların, avadanlığın, müəssisələrin (və ya onların bir hissəsinin) və digər obyektlərin istismara buraxılmasının qadağan edilməsi barədə, habelə onların istismarının məhdudlaşdırılması, dayandırılması və fəaliyyətinin qadağan edilməsi ilə bağlı təkliflər vermək;

3.1.4. qanunla nəzərdə tutulmuş hallarda və qaydada su obyektlərinin, o cümlədən içməli su təchizatı mənbələrinin sanitariya mühafizə zonaları və dairələrinin rejiminin təyin edilməsi, tabeliyindəki qurum vasitəsilə su təchizatı və kanalizasiya sistemi obyektlərində qanunla nəzərdə tutulmuş sanitariya mühafizə zonalarının yaradılması və ona nəzarətin həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.5. su mühafizə zonalarının, sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və onlardan istifadə qaydasının müəyyən edilməsi ilə bağlı aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə müvafiq tədbirləri həyata keçirmək;

3.1.6. yeraltı və yerüstü suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə tədbirlər planı hazırlamaq və həyata keçirilməsini təmin etmək;

3.1.7. təbii fəlakət və texnogen qəzalar nəticəsində zədələnmiş və ya sıradan çıxmış su təsərrüfatı obyektlərinin bərpasına dair təkliflər hazırlamaq, sel və daşqın nəticələrinin aradan qaldırılması üçün su və su təsərrüfatı obyektlərinin tikintisi (bərpası) işlərinin həyata keçirilməsini təşkil etmək;

3.1.8. su təsərrüfatı tədbirlərini və su ehtiyatlarına Azərbaycan Respublikasının perspektiv tələbatını müəyyən etmək, su obyektlərinin mühafizəsini və onlardan səmərəli istifadəni təmin etmək məqsədilə aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə su ehtiyatlarından kompleks istifadə və həmin obyektlərin mühafizəsi baş sxemini, hövzə və ərazi sxemlərini hazırlamaq;

3.1.9. sudan qənaətlə istifadə olunması, o cümlədən itkilərin qarşısının alınması və içməli suyun keyfiyyətinin texniki normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğunlaşdırılması ilə bağlı tədbirlər görmək;

3.1.10. tabeliyindəki qurumların balansında olan meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması obyektlərinin işlək vəziyyətdə saxlanılması üçün tədbirlər görmək;

3.1.11. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

3.1.12. su mühafizə zonalarındakı torpaqlardan istifadəyə qanunla nəzərdə tutulmuş qaydada razılıq vermək və bu ərazidəki fəaliyyətə nəzarəti təşkil etmək;

3.1.13. hidrotexniki qurğuların təhlükəsizliyinə təsir edən tikinti fəaliyyətini və konservasiya işlərini dayandırmaq barədə təkliflər vermək;

3.1.14. su obyektlərinin, hidrotexniki qurğuların və su təchizatı sistemlərinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin obyektlərdən (onların bir hissəsindən) istifadənin məhdudlaşdırılması, dayandırılması və qadağan olunması üçün tədbirlər görmək;

3.1.15. dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısını tərtib etmək;

3.1.16. su obyektlərinin istifadəçiləri və su istehlakçıları tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların uçotunun aparılmasına nəzarət etmək və bu məqsədlə istifadə olunan avadanlıq və cihazların vəziyyətinə dair aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə monitorinq aparmaq;

3.1.17. su obyektlərinin təyinatından asılı olaraq, suyun tələbata uyğun paylaşdırılması üçün tədbirlər görmək;

3.1.18. su ehtiyatlarından istifadə sahəsində proqnoz və layihələr hazırlamaq;

3.1.19. su obyektləri üzrə xüsusi suburaxma, çaylardan sel və daşqın sularının axıdılma və su anbarlarının doldurulub-boşaldılma rejimlərini aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə müəyyən etmək;

3.1.20. suların axım rejiminə, keyfiyyətinə və istifadəsinə dair məlumatların toplanılmasını və təhlilini təmin etmək;

3.1.21. təbii fəlakət və texnogen qəzalar nəticəsində su obyektlərində, meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərində baş vermiş qəzaların səbəblərinin müəyyənləşdirilməsində və bu qəzalar nəticəsində dəymiş zərərin qiymətləndirilməsində, habelə bərpa və yenidənqurma işlərinin təşkilində iştirak etmək;

3.1.22. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, ərazi planlaşdırılması sənədlərinə dair rəy vermək;

3.1.23. aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə ölkə, su hövzələri və inzibati ərazi vahidləri üzrə su təsərrüfatı balanslarının hazırlanmasını təmin etmək;

3.1.24. meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin dayanıqlı fəaliyyətini təmin etmək məqsədilə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, tikintiyə icazə verilməsinə dair rəy vermək, tabeliyindəki qurum vasitəsilə tikinti obyektlərinin istismarına icazə üçün istismara hazır olması barədə sənədlər vermək;

3.1.25. daşqın və subasma zonalarının müəyyənləşdirilməsində iştirak etmək;

3.1.26. sulardan istifadə və onların mühafizəsi sahəsində qanunla müəyyən edilmiş tələbləri pozan şəxslərə qarşı qanunla müəyyən edilmiş tədbirlər görmək;

3.1.27. müvafiq sahədə "Coğrafi İnformasiya Sistemi"nin (GİS) formalaşdırılmasını, aparılmasını və təkmilləşdirilməsini həyata keçirmək;

3.1.28. su ehtiyatlarının idarə edilməsi sahəsində müasir metodların tətbiqi üçün tədbirlər görmək;

3.1.29. transsərhəd su obyektlərinin, hidrotexniki qurğuların, meliorasiya və irriqasiya sistemlərinin dövlətlərarası birgə istismarının təmin edilməsi üçün tədbirlər görmək;

3.1.30. transsərhəd su obyektlərindən, hidrotexniki qurğulardan, meliorasiya və irriqasiya sistemlərindən istifadə sahəsində beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında iştirak etmək;

3.1.31. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə riayət olunması üçün tədbirlər görmək;

3.1.32. sudan ödənişli istifadənin həyata keçirilməsini təşkil etmək;

3.1.33. qanunla nəzərdə tutulmuş qaydada su obyektlərindən balıqçılıq üçün istifadəyə razılıq vermək, sututarlar və ya onların müəyyən hissələrinin idman və həvəskar balıq və digər su bioresurslarının ovu üçün ayırmaq;

3.1.34. xüsusi qorunan su obyektlərinin ölkə, bölgə və yerli əhəmiyyətli xüsusi qorunan su obyektlərinə aid edilməsi barədə təkliflər vermək;

3.1.35. meliorasiya, irriqasiya, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin pasportlaşdırılmasını həyata keçirmək, habelə meliorasiya və irriqasiya sistemlərinin kadastrını aparmaq;

3.1.36. hidrotexniki qurğuların dövlət reyestrini aparmaq;

3.1.37. dövlət mülkiyyətində olan meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması, qış otlaqlarının su təminatı sistemlərinin istismarını, sel və daşqınlara qarşı mübarizə tədbirlərini, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil etmək;

3.1.38. Sudan İstifadəedənlər Birliklərinin (bundan sonra - Birliklər) xidmət göstərdiyi ərazidə yerləşən torpaqların istifadəçiləri istisna olmaqla, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinin və uzunmüddətli sazişlərə uyğun olaraq Birliklərin suvarma suyu ilə təchizatını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.39. Birliklərin istifadəsində olan sistemlər istisna olmaqla, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.40. "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Birliklərin reyestrini aparmaq və onların fəaliyyətinə dövlət nəzarətini tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.41. meliorasiya və irriqasiya sahəsində ölkə və regional miqyaslı proqramları hazırlamaq və həyata keçirmək;

3.1.42. su və su təsərrüfatı obyektlərindən götürülən suların bölüşdürülməsini və sudan istifadəyə nəzarəti strukturuna daxil olan qurum vasitəsilə həyata keçirmək;

3.1.43. suvarılan və meliorasiya olunmuş torpaqların uçotunu tabeliyindəki qurum vasitəsilə təşkil etmək və monitorinqini aparmaq;

3.1.44. meliorasiya və irriqasiya sistemlərinin layihələrinin dövlət ekspertizasını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.45. suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətinə, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarına nəzarəti tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.46. tabeliyindəki qurumların balansında olan meliorasiya və su təsərrüfatı obyektləri boyunca qoruyucu meşə zolaqlarının salınmasını, onların saxlanılmasını və qorunmasını təmin etmək;

3.1.47. sudan istifadə ilə bağlı dövlət tənzimləməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşdırılmasında iştirak etmək və bu sahədə təkliflər vermək;

3.1.48. qanunla nəzərdə tutulmuş qaydada tullantı sularının axıdılması üçün su obyektlərindən istifadə edilməsinə razılıq vermək və ya tərkibində çirkləndirici maddələrin miqdarı normadan artıq olan tullantı sularının su obyektlərinə axıdılmasını strukturuna daxil olan qurum vasitəsilə məhdudlaşdırmaq, dayandırmaq və ya qadağan etmək;

3.1.49. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla, çaylarda, çay qollarında, meliorasiya və irriqasiya sistemlərində qalaqların yaradılmasının, su axımının qarşısının özbaşına kəsilməsinin, göllərdən və limanlardan su buraxılmasının qarşısının alınması üçün strukturuna daxil olan qurum vasitəsilə tədbirlər görmək;

3.1.50. ölkə əhəmiyyətli və rayonlararası suvarma sistemləri üzrə sudan istifadəyə dair ümumsistem planlarını təsdiq etmək;

3.1.51. müəyyən müddət üçün sudan istifadə limitlərini tabeliyindəki qurum vasitəsilə müəyyən etmək, qanunla müəyyən edilmiş hallarda və qaydada su ehtiyatlarından istifadəyə icazə vermək;

3.1.52. hidrotexniki qurğuların təyinatı üzrə təhlükəsizlik bəyannamələrini strukturuna daxil olan qurum vasitəsilə təsdiq etmək;

3.1.53. su və meliorasiya sahəsində elmi-praktiki araşdırmalar aparılmasını, elmi prinsiplərə əsaslanan risk qiymətləndirilməsini, həmçinin bu sahədə texniki normativ hüquqi aktların layihələrinin hazırlanmasını və tədqiqatların aparılmasını tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.54. su təsərrüfatı və meliorasiya obyektlərinin, su təchizatı, tullantı sularının emalı və axıdılması sistemlərinin layihələndirilməsini tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.55. su obyektlərindən istifadə və onların mühafizəsi qaydalarına, sudan istifadə limitlərinə, su obyektlərindən istifadə və onların mühafizəsi sahəsində sanitariya-gigiyena, ekoloji, hidrogeoloji, hidroloji, texnoloji tələbləri nəzərdə tutan normativ hüquqi aktlara, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə və Azərbaycan Respublikasının su qanunvericiliyinin digər tələblərinə riayət edilməsinə dövlət nəzarətini strukturuna daxil olan qurum vasitəsilə həyata keçirmək;

3.1.56. su təchizatı üçün suyun mənbədən götürülməsi, emalı, nəqli və satışı sahəsində fəaliyyəti təşkil etmək;

3.1.57. yağış və tullantı sularının toplanması, təmizlənməsi, təkrar istifadəsi, kənarlaşdırılması sahəsində fəaliyyəti tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;

3.1.58. "Elektron su təsərrüfatı" informasiya sisteminin fəaliyyətinin təşkilini, idarə olunmasını və təkmilləşdirilməsini təmin etmək;

3.1.59. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təkliflər vermək;

3.1.60. müvafiq sahədə dövlət proqramlarının hazırlanmasında iştirak etmək;

3.1.61. müvafiq sahənin sosial-iqtisadi inkişafının əsas istiqamətlərinə uyğun proqnoz və layihələrin hazırlanmasını təşkil etmək;

3.1.62. müvafiq sahədə elmi tədqiqat və təcrübə-konstruktor işlərinin aparılmasını təşkil etmək;

3.1.63. müvafiq sahə üzrə tövsiyə xarakterli metodiki sənədlər hazırlamaq və onları təsdiq etmək;

3.1.64. müvafiq sahə üzrə statistik uçot aparılmasını təmin etmək;

3.1.65. müvafiq sahə üzrə kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.1.66. müvafiq sahəyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və qanunla qadağan olunmayan digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.67. müvafiq sahədə elektron xidmətlərin təşkilini təmin etmək;

3.1.68. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.69. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.70. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.71. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.72. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.73. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.1.74. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.75. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Agentliyin hüquqları

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. müvafiq sahə üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.3. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən zəruri məlumatların alınması barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.4. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti orqanları (qurumları) ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq;

4.1.5. müvafiq sahəyə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb olunması üçün aidiyyəti üzrə təkliflər vermək;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər vermək;

4.1.7. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.8. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.1.9. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Agentliyin fəaliyyətinin təşkili

5.1. Agentliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair), habelə Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanı (qurumu) Agentliyin vahid sistemini təşkil edir. Agentlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Agentliyin strukturunu, Agentliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr rəhbərlik edir. Sədr Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Sədrin Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi birinci müavini və 3 (üç) müavini vardır. Sədrin müavinləri sədrin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Sədr:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Agentliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (və ya əsasnamələrini) təsdiq edir, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Agentliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.5. Agentliyin Aparatının işçilərini, habelə strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini, onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.6. Agentliyin strukturuna daxil olan qurumların digər işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.7. Agentliyin işçilərinə, strukturuna daxil olan qurumların rəhbərlərinə və onların müavinlərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir, habelə xüsusi fərqlənmiş əməkdaşlara Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət mükafatları ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

5.5.8. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla Agentlik işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.9. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.10. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Agentlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarının icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.11. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları) ilə, hüquqi və fiziki şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla münasibətdə Agentliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.12. Agentliyin fəaliyyət istiqamətləri üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.13. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir.

5.6. Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.7. Sədr öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti olaraq icrasını birinci müavininə və ya müavinlərindən birinə həvalə edə bilər.

5.8. Agentlikdə sədrdən (Kollegiyanın sədri), sədrin birinci müavini və müavinlərindən, Naxçıvan Muxtar Respublikasının müvafiq dövlət orqanının (qurumunun) rəhbərindən və Agentliyin digər rəhbər işçilərindən ibarət tərkibdə Kollegiya yaradılır. Agentliyin Kollegiyasının tərkibinə həmçinin mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Agentliyin Kollegiyası üzvlərinin sayını və tərkibini Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Agentliyin Kollegiyası öz iclaslarında Agentliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

5.11. Agentliyin Kollegiyası qərarlar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Agentliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Agentliyə tapşırılmış konkret normativ hüquqi aktları;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

5.11.5. sədrin təşəbbüsü ilə Agentliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulan normativ hüquqi aktları;

5.11.6. bu Əsasnamənin 5.11.1 - 5.11.5-ci yarımbəndlərinə uyğun olaraq, Agentliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktları ləğv edən və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.

5.12. Agentliyin Kollegiyasının iclasları Kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Agentliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Agentliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Agentliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, sədr bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Agentliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.14. Agentliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.

5.15. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura yaradıla bilər.

5.16. Agentlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Agentliyin və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin strukturu

1. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Aparatı (şöbələr və sektorlar).
2. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti və onun yerli bölmələri.

# "AzerGold" QSC Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş qızıl sikkənin təqdimat mərasimini keçirib





Noyabrın 17-də "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə istehsal edilmiş "100 il və onun fövqündə bir irs" adlı qızıl sikkənin təqdimat mərasimi keçirilib. Bu barədə qurumun Mətbuat xidmətindən məlumat verilərək bildirilib ki, tədbirdən əvvəl "AzerGold" QSC-nin rəhbərliyi Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək, xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.

Heydər Əliyev Mərkəzində təşkil olunan təqdimat mərasimində dövlət, hökumət nümayəndələri, millət vəkilləri, xarici ölkə səfirləri, mədəniyyət xadimləri, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələrinin rəhbər şəxsləri iştirak ediblər.

Mərasimdə giriş nitqi ilə çıxış edən "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov müasir Azərbaycan Respublikasının qurucusu Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlərindən, onun layiqli davamçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin hərətərfli inkişafı istiqamətində həyata keçirilən siyasətdən danışaraq, istehsal edilən yeni məhsulun Ulu Öndərin əziz xatirəsinə dərin hörmət və ehtiramın ifadəsi olduğunu bildirib.

Z.İbrahimov bütün həyatını, varlığını Azərbaycana, onun müstəqilliyinə, davamlı inkişafına həsr etmiş və xalqımızın qəlbində əbədilik qazanmış dahi şəxsiyyət Heydər Əliyevə həsr olunmuş yubiley sikkəsinin öz unikallığı ilə fərqləndiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Nəfis tərtibatda dizayn edilmiş, incə naxışlarla zərb olunmuş 999.9 əyarlı qızıl sikkənin QSC-nin daha əvvəl hazırladığı qiymətli məhsullardan fərqləndiyini deyən Z.İbrahimov yubiley sikkəsinin müasir numizmatika sahəsində inqilabi yenilik sayılan "Smartminting" texnologiyası əsasında ərsəyə gətirildiyini qeyd edib. Bu texnologiya vasitəsilə sikkə üzərində qeyri-adi, mürəkkəb dizayn elementlərinin dəqiqliklə əks etdirildiyi, qiymətli məhsula üçölçülü qabarıq relyef verildiyi diqqətə çatdırılıb.

Tədbirdə Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi Soltan Məmmədov qeyd edib ki, cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Heydər Əliyev İli" elan edilən 2023-cü ildə "AzerGold" QSC tərəfindən istehsal edilmiş qızıl sikkə tarixə öz imzasını qızıl hərflərlə yazmış Ümummilli Liderin zəngin mənəvi irsinin təbliğinə mühüm töhfədir.

Qeyd edək ki, 1 unsiya çəkidə istehsal edilən yubiley sikkəsi limitli sayda - 200 ədəd hazırlanıb. Qızıl sikkə üzərində Ümummilli Liderin portreti, onun "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" ifadəsi real səs dalğası və Morze əlifbasında təsvir olunub.

Xatırladaq ki, "AzerGold" QSC tərəfindən yerli pərakəndə satış bazarı üçün qızıl və gümüşdən hazırlanan sikkələr ilk dəfə 2018-ci ildə istehsal edilib. Müxtəlif dizaynlarda hazırlanmış qızıl və gümüş sikkə kolleksiyaları ölkəmiz və onun tarixi, incəsənəti, mədəni irsinin təbliğinə xidmət edən unikal hədiyyə seçimi, həm də istənilən zaman milli valyuta ilə mübadilə edilə bilən sərfəli investisiya alətidir.

# Xalq artisti Tofiq Kazımovun anadan olmasının 100 illiyi qeyd edilib

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə noyabrın 16-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında görkəmli rejissor, Xalq artisti Tofiq Kazımovun 100 illiyinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, yubiley münasibətilə teatrın hazırladığı "Sənsiz" tamaşasının premyerası olub.

Tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Milli Məclisin deputatları, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Qonaqlar əvvəlcə teatrın foyesində rejissorun həyat və yaradıcılığını əks etdirən fotosərgi ilə tanış olublar.

Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə bildirib ki, böyük rejissor Tofiq Kazımovun 100 illik yubileyi Prezident İlham Əliyevin 2023-cü il 3 mart tarixli sərəncamına əsasən qeyd edilir. Bildirilib ki, Tofiq Kazımovun milli teatr sənətinə böyük xidmətlərindən biri də istedadlı gənclərə meydan verməsi, yol açmasıdır. Elə bu nüans nəzərə alınaraq, nümayiş olunacaq tamaşanın rejissoru, rəssamı və bəstəkarı da gənclərdir. Onların hər üçü bu gün bu məsuliyyəti hiss edir.




Sonra Mehriban Ələkbərzadənin müəllifi olduğu, görkəmli rejissor Tofiq Kazımovun yaradıcılıq yolundan bəhs edən 10 dəqiqəlik qısametrajlı film nümayiş olunub.

Daha sonra yazıçı-dramaturq Şıxəli Qurbanovun "Sənsiz" pyesi əsasında hazırlanan eyniadlı tamaşa təqdim edilib.

Səhnə əsərinin quruluşçu rejissoru Nihad Qulamzadə, bəstəkarı Vüqar Babayev, rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Vaqifoğlu, rejissor assistentləri Xanım Həsənova və Könül Kərimovadır.

Rolları Xalq artisti Mehriban Zəki (Sevinc), Əməkdar artist Füzuli Hüseynov (Tərlan), aktyorlar İlahə Həsənova (Maral), Elçin Əfəndi (Fərhad), Elsevər Rəhimov (gənc Tərlan), Lalə Süleymanova (gənc Sevinc) canlandırıblar.

# *İcma:* "Aİ bölgədə vəziyyəti gərginləşdirən ikiüzlü və ayrı-seçkilik siyasətindən əl çəkməlidir"

Avropa İttifaqının (Aİ) rəsmisi Peter Stano noyabrın 17-də Ermənistanın "Armenpress" xəbər agentliyinə müsahibəsində təxribatçı və ayrı-seçkilik xarakteri daşıyan bəyanatlar verməklə regionda vəziyyəti gərginləşdirməyə çalışmışdır.

Aİ rəsmisi Azərbaycanın Qarabağ bölgəsindən Ermənistana köçmüş ermənilərin qayıtmaq hüququ barədə danışdığı halda, Ermənistandan qovulmuş 300 min azərbaycanlının qayıdışı barədə heç nə deməmişdir. Bu, etnik və dini zəmində ayrı-seçkilikdir. Xatırladaq ki, dəfələrlə ünvanladığımız müraciətlərə baxmayaraq, Aİ bizim qayıdış hüququmuz barədə mövqeyini ictimai şəkildə ifadə etməkdən imtina edir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının Avropa İttifaqının (Aİ) rəsmisi Peter Stanonun təxribatçı və ayrı-seçkilik xarakteri daşıyan fikirləri barədə bəyanatında yer alıb.

Bildirilib ki, bundan başqa, Aİ rəsmisi Ermənistanın ərazi bütövlüyünün qorunmasından müqəddəs vəzifə kimi dəm vuraraq, Azərbaycanı təhdid etmişdir. Əvvəla Aİ-yə yaxşı məlumdur ki, Azərbaycan bütün dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşır. Bundan əlavə, 30 il ərzində Azərbaycanın ərazi bütövlüyünü pozmuş, işğal etdiyi Azərbaycan ərazilərindən yüz minlərlə azərbaycanlını qovmuş və Azərbaycanın minə yaxın şəhər və kəndini dağıtmış Ermənistanın əməllərinə göz yuman Aİ-nin indi Ermənistanın heç bir təhdid altında olmayan ərazi bütövlüyünün müdafiəsinə qalxması ikiüzlülükdür.

Aİ rəsmisinin Azərbaycanın "Qarabağda birtərəfli hərbi addım atması"ndan əndişələnməsi riyakarlıqdır. Azərbaycan öz suveren ərazisində əməliyyat keçirməyə görə heç kimdən, o cümlədən Aİ-dən icazə almır və heç kimə hesabat vermir.

Qarabağda beynəlxalq qüvvələrin mövcudluğunun vacibliyini vurğulayan Aİ qoy belə missiyaların Aİ ölkələrinə, məsələn, irqçilik və islamofobiyanın çiçəkləndiyi, Korsika dilinin qadağan edildiyi Fransaya və ya rus etnik azlığına qarşı ayrı-seçkilik siyasəti yürüdülən Litvaya göndərilməsi ilə məşğul olsun.

Aİ Azərbaycanın daxili işlərinə müdaxilə kimi düşük və təkəbbürlü əməllərinə son qoymalı, bölgədə vəziyyəti gərginləşdirən ikiüzlü və ayrı-seçkilik siyasətindən əl çəkməli, Ermənistanın silahlandırılmasını dayandırmalı və bu ölkədən qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququna hörmət etməlidir.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 22.11.2023-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 05 oktyabr 2023-cü il tarixdə elanı verilmiş Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Şirvan şəhərində və Göygöl, Qusar, Oğuz, Balakən, Saatlı, Ağsu, Neftçala, Ağstafa və Salyan rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satın alınması ilə əlaqədar keçirilən açıq tenderdə qiymət təkliflərinin son verilmə tarixi və vaxtı 21 noyabr 2023-cü il saat 18:00-dan 01 dekabr 2023-cü il saat 18:00-dək uzadılır.

Tender təkliflərinin açılış tarixi və vaxtı 04 dekabr 2023-cü il saat 15:00 kimi nəzərə alınsın.

***Tender komissiyası***

# Gənc Sahibkarların IV Forumu baş tutub

Noyabrın 17-də Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə "Bakı KOB evi"ndə Gənc Sahibkarların IV Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Qlobal Sahibkarlıq Həftəsi çərçivəsində reallaşan tədbirdə 100-dən çox sahibkar, sahibkarlıq ekosisteminin fəal üzvləri, startap, habelə biznes fəaliyyətinə marağı olan gənclər iştirak ediblər.

Forum Azərbaycanda sahibkarlığın inkişafında böyük rolu olan Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə ölkəmizdə elan edilmiş "Heydər Əliyev ili" çərçivəsində təşkil olunan tədbirlərin tərkib hissəsi olaraq keçirilib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə işə başlayıb.



Forumda gənclər və idman naziri Fərid Qayıbov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədr müavini Ülvi Abasquliyev çıxış ediblər. Çıxışlarda ölkəmizdə sahibkarlığın inkişafına göstərilən dəstək tədbirləri, gənclər arasında sahibkarlığın təşviqi, bu istiqamətdə həyata keçirilən layihələrin əhəmiyyəti, gənclərin sahibkarlıq təşəbbüslərində innovativ yanaşma, ölkəmizdə sahibkarlıq ekosisteminin inkişafında gənclərin rolunun, sahibkarlığa marağı olan gənclərin bilik və bacarıqlarının artırılması, gənclərin müasir əmək bazarının çağırışlarına adaptasiyası, onların potensialının üzə çıxarılması və təşəbbüslərinin dəstəklənməsi istiqamətində atılan addımlar barədə məlumat verilib.

Həmçinin Qlobal Sahibkarlıq Həftəsinin həmtəsisçisi və Qlobal Sahibkarlıq Şəbəkəsinin prezidenti Conatan Ortmansın videomesajı da dinlənilib.

Tədbir çərçivəsində təşkil olunan "Sahibkarın qeyd dəftəri: sabaha hesablanan yatırımlar" mövzusunda panel müzakirədə Gənclər Fondunun, "İnnovasiyalar Mərkəzi" MMC-nin, Dövlət Vergi Xidmətinin, "Caucasus Ventures" Fondunun, "SABAH.HUB İnnovasiya Mərkəzi"nin nümayəndələri tərəfindən gənclər sahibkarlıq sahəsində yeniliklər və dövlətin güzəştləri barədə məlumatlandırılıb, iştirakçıların sualları cavablandırılıb.

Qeyd edilib ki, ölkəmizdə artıq dördüncü dəfə təşkil olunan və ənənə halını alan Gənc Sahibkarlar Forumunun başlıca məqsədi gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviqi, biznes layihələrinin reallaşdırılması istiqamətində mövcud imkanlar və dövlət dəstəyi mexanizmləri haqqında onların məlumatlandırılması, öz bizneslərini qurmaları üçün ilkin biliklərə yiyələnmələrinə dəstək olmaq, sahibkarlıq subyektlərinin şəbəkələşməsidir.

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Leyla Zamanovaya əzizi

**RAHİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xalq şairi Nəriman Həsənzadə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya anası

**PƏRİXANIM ASTAN QIZININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi həmkarları müşavir Şahbəddin Musayevə qardaşı

**ƏMİRXAN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5328**
**Sifariş 2962**

**Qiyməti 40 qəpik**